RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 145 (8461) ŞƏNBƏ, 25 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev bütün imkanları səfərbər edir

## Ölkədə su qıtlığı probleminin həlli üçün kompleks tədbirlər görüləcək

**Azərbaycanı su sarıdan bəxti gətirən ölkə hesab etmək olmaz. Baxmayaraq ki, Kür və Araz kimi iri, Girdiman, Türyançay, Qudyalçay kimi dağ çaylarımız var, Azərbaycan həmişə sudan az və ya çox dərəcədə korluq çəkib. Təkcə yerləşdiyimiz Qafqaz regionundakı su ehtiyatlarının təxminən 11 faizinin ölkəmizin payına düşdüyünü xatırlatmaq yetər ki, bu sahədəki problemlərimizin obyektiv səbəbi məlum olsun.**

Amma dərd bununla da bitmir. Məlum olduğu kimi, artıq neçə ildir dünyada və təbii ki, o cümlədən Azərbaycanda quraqlıq hökm sürür. Təkcə bu üzdən Azərbaycanın onsuz da çox olmayan su ehtiyatları 15 faiz azalmışdır. Lakin bu da hələ hamısı deyil. Mütəxəssislərin hesablamalarına görə, quraqlıq bu sürətlə və bu həddə davam edərsə, su resurslarımızın daha 15 faiz azalacağı qaçılmaz olacaq. Quraqlığın davam etmək ehtimalı isə az deyil. Ekoloqlar deyirlər ki, əgər əvvəllər quraqlıq 2-3 il olurdusa, indi artıq 8 ildir davam edir. Üstəlik, müşahidələr göstərir ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da yağıntılar zaman və məkan üzrə bərabər paylanmır və nəticədə bir yerdə torpaq susuzluqdan cadar-cadar olanda, digər ərazidə sel aləmi yuyub aparır.

İqlimin dəyişməsi, daha doğrusu, yayda havaların normadan artıq isti, qışda isə şaxtasız və yağmursuz keçməsi çayların suyunu azaldır ki, bu da su qıtlığını yaradan əsas səbəblərdən sayılır. Yenə də rəqəmlərə müraciət edək: Kür və Qanıq çaylarında sululuq normaya nisbətən 2019-cu ildə 29,2, son 6 ayda 45,8 faiz azalmışdır. Yağıntılar isə norma ilə müqayisədə 2019-cu il üzrə 17, 2020-ci ilin ötən dövründə 25 faiz az olmuşdur. Əsas dağ çaylarımızın formalaşdığı ərazilərdə də son 10 ildə yağıntının miqdarı orta hesabla nə az, nə çox - 8,7 dəfə aşağı düşmüşdür. Belə bir reallığın fonunda su qıt olmasın, neyləsin?! Su isə bütün dövrlərdə bol məhsul, təmizlik, sağlamlıq, bir sözlə, dəfələrlə təkrarlandığı kimi həyat sayılıb.

Bu baxımdan Prezident İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş müzakirənin keçirilməsinin əhəmiyyəti böyükdür. Videoformatda keçirilmiş müşavirədə Prezident Administrasiyasının və müvafiq mərkəzi icra qurumlarının rəhbərlərinin iştirakı isə əvvəlcədən tədbirin işgüzar şəraitdə keçəcəyindən xəbər verirdi.

Əslində su ilə bağlı belə formatda işgüzar müşavirənin keçiriləcəyi gözlənilən idi. Çünki Prezidentin sədrliyi ilə Nazirlər Kabinetinin 6 ayın sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında əsasən quraqlıq səbəbindən ölkədə yaranmış su problemindən ətraflı danışılmış və bu sahədə təxirəsalınmaz tədbirlərin görülməsinin vacibliyi qeyd edilmişdir. Odur ki, iyulun 23-də keçirilən müşavirəni hökumətin son iclasında ölkənin su təsərrüfatlarındakı mövcud vəziyyətlə bağlı qaldırılmış problemlərin həlli istiqamətində görülən və görüləcək işlərin müzakirəsi də hesab etmək olar.

Əvvəl görülmüş işlər barədə. Prezident İlham Əliyevin müşavirədəki nitqində vurğulandığı kimi, Azərbaycanda 2004-cü ildən - ilk regional inkişaf proqramı qəbul ediləndən bəri ölkənin həm təsərrüfat, həm də içməli su ilə təchizatının yaxşılaşdırılması üçün vacib tədbirlər həyata keçirilmişdir. Məhz həmin tədbirlər nəticəsində ölkə üzrə içməli su ilə təchizat 40 faizdən 70, o cümlədən bölgələrdə 9 faizdən 63 faizə çatmışdır. Paytaxta gəldikdə, burada fasiləsiz su ilə təchizat 29 faizdən 82 faizə yüksəlmişdir.

"Bu, doğrudan da tarixi nailiyyətdir. Biz bunu ilk növbədə insanların sağlamlığı, iqtisadiyyatın, kənd təsərrüfatının inkişafı üçün etmişik" - deyən dövlət başçısı təbii ki, əldə edilənlərlə qənaətlənməyərək sözügedən sahədə hələ çox işlərin görülməli olduğunu diqqətə çatdırmışdır: "Ancaq bununla bərabər, bu rəqəmlər onu göstərir ki, biz istədiyimizə tam nail ola bilməmişik. Buna görə bundan sonra içməli su layihələri, meliorasiya sahələri bizim gündəliyimizdə ən vacib məsələlər kimi duracaq".

Qeyd edək ki, Prezidentin bu qərarı təsadüfi deyil. Baxmayaraq ki, ötən illər ərzində ölkədə Oğuz-Qəbələ-Bakı kimi nəhəng su kəməri çəkilib, 270 milyon kubmetr su tutumu olan Taxtakörpü, 165 milyon kubmetrlik Şəmkirçay, eləcə də Göytəpə və Tovuzçay su anbarları tikilib, Ceyranbatan su anbarı yenidən qurulub, Taxtakörpü su anbarından Ceyranbatan su anbarına yeni beton kanal çəkilib və digər mühüm tədbirlər görülüb, son illər yaşanan su qıtlığı göstərdi ki, bu sahədə bütün işlər heç də istənilən səviyyədə deyil.

*Ardı 8-ci səh.*

# *Mehriban ƏLİYEVA:* "İnsan haqlarının müdafiəsini özlərinin missiyası elan edən "Freedom House", "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını törədilmiş hadisələrə ədalətli qiymət verməyə çağırıram"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Amerikanın Los-Anceles şəhərində və bəzi Avropa ölkələrinin paytaxtlarında yaxın günlərdə baş vermiş hadisələrlə bağlı həmvətənlərimizə müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.



Əziz həmvətənlər!

Amerikanın Los-Anceles şəhərində və bəzi Avropa ölkələrinin paytaxtlarında yaxın günlərdə baş vermiş hadisələr milyonlarla azərbaycanlı kimi, məni də dərindən hiddətləndirib.

Azərbaycanlıların öz Vətənini dəstəkləmək üçün müvafiq dövlət orqanları ilə əvvəlcədən razılaşdırılmış dinc, vətənpərvərlik aksiyaları erməni diasporunun nümayəndələri tərəfindən fiziki zorakılıq, aqressiya və qeyri-insani nifrət hissi ilə üzləşib.

Yaxşı hazırlıq və təlim keçmiş təhrikçilər sayca xeyli üstün olmalarından istifadə edib dinc nümayişçilərə hücum çəkərək onlara xəsarət yetiriblər. Bir sıra hallarda aqressiv əhvali-ruhiyyəli erməni qrupları həmin vaxt azlıqda qaldığına görə azğınlaşmış kütləyə müqavimət göstərə bilməyən azərbaycanlılara hücum ediblər.

Onilliklər boyu aşılanan nifrət və azərbaycanofobiya ideologiyası öz "eybəcər bəhrəsini" verir - ermənilərin bir qismi dinc azərbaycanlı nümayişçilərə dünya paytaxtlarının mərkəzində daş atır, digərləri Azərbaycan vətəndaşlarının evlərinə ağır artilleriya silahlarından atəş açırlar.

Tarixdə Azərbaycan xalqına qarşı bu cür cinayətlər törədilməsi nümunələri çox olub.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinin dinc azərbaycanlı əhalisinin Ermənistan silahlı qüvvələri tərəfindən kütləvi şəkildə məhv edilməsini xatırlamaq kifayətdir.

*Ardı 2-ci səh.*

# Prezidentin hücum diplomatiyası dünya erməniliyinə böyük zərbə vurur

Bir neçə gün əvvəl dövlət sərhədinin Tovuz istiqamətində Ermənistanın hərbi təcavüzünün qarşısını alan Azərbaycan yalnız işğalçı dövlətə deyil, dünya erməniliyinə də böyük zərbə vurdu. Beynəlxalq ictimaiyyətin obyektiv kəsimi respublikamızı birmənalı şəkildə dəstəkləyərək, Ermənistana sərt etiraz bildirdi. Nəticə etibarilə bu təxribat işğalçı dövlətin özünün əleyhinə işləyən hadisə oldu.

### Erməni diasporu öz hərəkətləri ilə vandal və terrorçu olduğunu təsdiqləyir

Bu məğlubiyyət, erməniləri əməlli-başlı sarsıdıb. Son bir həftə ərzində Azərbaycanın bir sıra ölkələrdəki diplomatik nümayəndəliklərinə və aksiya keçirən dinc azərbaycanlılara qarşı radikal ermənilər tərəfindən təxribatların həyata keçirilməsi, qeyri-insani hərəkətlərin edilməsi erməni diasporunun keçirdiyi sarsıntıların göstəricisidir. Yalanlarının artıq ifşa olunduğunu, ayaq tutub yerimədiyini həzm edə bilməyən ermənilər xislətlərinə və mahiyyətlərinə uyğun olaraq ən çirkin əməllərə əl atırlar.

Xatırladaq ki, Ermənistanın törətdiyi təxribatlarla bağlı ordumuza dəstək məqsədilə son günlərdə dünyanın 25 ölkəsində soydaşlarımız tərəfindən 60-a yaxın aksiya keçirilib. Bir çox ölkələrdə COVID-19 pandemiyası ilə əlaqədar məhdudiyyətlərə baxmayaraq 10 minlərlə soydaşımız müxtəlif aksiyalarda fiziki olaraq iştirak edib. Aksiyalarla bağlı öncədən hüquq-mühafizə orqanlarının məlumatlanmasına baxmayaraq, təəssüf ki, bəzi hallarda polis lazımi mühafizə tədbirləri təşkil etməyib. Bu, xüsusilə Los Anceles və Brüsseldə təşkil olunan aksiyalarda özünü göstərib. Nəticə etibarilə Belçikada 10 nəfərədək, ABŞ-da isə 30-a yaxın soydaşımız xəsarət alıb. Həmçinin Polşa, Niderland və Fransada da vətəndaşlarımızın üzərinə butulka, daş, şüşə parçaları, partlayıcı vasitələr atılıb. Maşınlar əzilərək aşırdılmağa cəhd edilib, səfirliyin binalarına ziyan vurulub.

*Ardı 4-cü səh.*

# Azərbaycan nümunə göstərməkdə davam edir

## Bunu BMT-nin son hesabatı da təsdiqləyir

Koronavirus pandemiyası təkcə insanların sağlamlığına deyil, həm də dünya iqtisadiyyatına mənfi təsir göstərir. Bu üzdən dünyada iş yerlərinin kütləvi şəkildə bağlanması səbəbindən milyonlarla insan işsiz qalıb.

Sözsüz ki, pandemiya Azərbaycan iqtisadiyyatına da öz mənfi təsirini müəyyən qədər göstərir. Lakin dövlət iqtisadiyyatın və insanların qorunması üçün operativ şəkildə lazım olan bütün tədbirləri görür.

Təsadüfi deyil ki, dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı olan Birləşmiş Millətlər Təşkilatı ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatları yüksək qiymətləndirir. Belə qiymətləndirmədən sonuncusu "Davamlı inkişaf hesabatı - 2020" sənədində 166 ölkə arasında "Davamlı inkişaf məqsədləri indeksi" üzrə Azərbaycanın 54-cü pilləyə layiq görülməsidir. Qeyd edək ki, BMT bu indeksi müəyyənləşdirərkən hər bir ölkə üzrə dərin elmi araşdırmalar aparır.

Ölkəmiz həyata keçirilən dərin islahatlar sayəsində iqtisadi və sosial sahələrdə bir sıra uğurlara imza atıb. BMT-nin sənədində qeyd edilir ki, Azərbaycan səhiyyə, rifah, yoxsulluq, qidalanma, təmiz su, təmiz enerji, davamlı şəhərlər və icmalar, sülh, ədalət və güclü institutlar kimi sahələrdə yüksək irəliləyişə nail olub. Onu da bildirək ki, ölkəmiz "Davamlı inkişaf məqsədləri indeksi"nin mümkün 100 balından 72,6 bal toplayaraq Şərqi Avropa və Mərkəzi Asiya regionunda orta göstəriciləri 70,9 bala çatdırıb.

Həqiqətən, Azərbaycanda son iki-üç ildə pensiyaların, təqaüdlərin, sosial müavinətlərin, dövlət və özəl strukturlarında çalışanların əməkhaqlarının artırılması əhalinin sosial müdafəsinin güclənməsini təmin edib. Elə buna görədir ki, hesabatda sosial rifahın yüksəldilməsini təsdiq edən fakt kimi Azərbaycan gündəlik gəliri 3,2 dollardan az olan yoxsulun qeydə alınmadığı ölkələr sırasına daxil olunub.

BMT-nin bu sənədinin bir maraqlı tərəfi də ondan ibarətdir ki, ölkəmiz sözügedən indeks üzrə keçmiş SSRİ məkanında olan ölkələrlə müqayisədə ən üstün mövqedədir. Belə ki, bu indeks üzrə Rusiya 57-ci, Gürcüstan 58-ci, Qazaxıstan 65-ci, Ermənistan 75-ci pillədə qərarlaşıb. Qonşulara gəldikdə, İran 59-cu, Türkiyə 70-ci yerdədir.

Belə yüksək uğurun əldə edilməsi Prezident İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü sosial-iqtisadi siyasət sayəsində mümkün olub.

*Ardı 4-cü səh.*

# Azərbaycan qısa zamanda pandemiyaya qarşı döyüş hazırlığına gətirildi

## Müsbət dinamika virusla mübarizənin daha uğurlu mərhələlərə daşındığından xəbər verir

**Hazırda dünya ən böyük sınaq ilə üz-üzə qalıb, qlobal pandemiya elan edilən COVID-19-un yol açdığı təhlükədən qorunmağa, ona qarşı mübarizə aparmağa çalışır. Bəşəriyyətin bəlası yeni növ koronavirus insanları təkcə sağlıqları ilə təhdid etmir, bütün yaşam sahələrinə zərbə vurur, ölkələri maddi sıxıntı ilə üz-üzə qoyur.**

Mütəxəssislər isə COVID-19-un vaksininin gələn ilin əvvəlindən tez hazır olmayacağı ilə bağlı məlumat verirlər. Yəni dünya hələ qarşıdakı bir neçə ay ərzində koronavirusla savaş şəklində yaşamağa məcburdur.

Azərbaycanda qlobal böhranın aradan qaldırılması istiqamətində görülən işlər əvvəldən çox düzgün istiqamətdə aparıldı və hazırda da bu strategiyanın müsbət nəticələrini görməkdəyik. Dünyada COVID-19 infeksiyası yayılmağa başladığı ilk dövrdən, xüsusilə virusun ölkəmizin sərhədlərinə yaxınlaşdığı ilk gündən başlayaraq Azərbaycan hakimiyyəti bütün istiqamətlər üzrə ciddi tədbirlər həyata keçirməyə başladı. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq pandemiyanın qarşısının alınması üçün qətiyyətli və çevik addımlar atıldı.



### Qısa zamanda səhiyyə infrastrukturu koronavirusla mübarizəyə istiqamətləndirildi

Bu cür intensiv və düzgün fəaliyyət sayəsində səhiyyə infrastrukturu qısa zamanda koronavirusla mübarizəyə istiqamətləndirildi. COVID-19 virusuna yoluxmuş şəxslərin müalicəsi ilə bağlı xəstəxanalar müəyyən edildi və 20-dən artıq xəstəxana, o cümlədən ən müasir standartlara cavab verən "Yeni Klinika" koronavirus xəstələrinin ixtiyarına verildi.

*Ardı 10-cu səh.*

# "Ölkənizin son hadisələrlə bağlı obyektiv mövqeyinə görə Sizə öz adımdan və Azərbaycan xalqı adından minnətdarlığımı bildirirəm"

## Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri zati-aliləri cənab Şefik Caferoviçə

Hörmətli cənab Sədr.

İlk növbədə Sizə səmimi salamlarımı yetirirəm.

Ermənistanın qəfil və xain hücumu nəticəsində ordumuzun hərbçiləri və mülki vətəndaşımızın həlak olması ilə bağlı göndərdiyiniz başsağlığına və ölkənizin son hadisələrlə bağlı obyektiv mövqeyinə görə Sizə öz adımdan və Azərbaycan xalqı adından minnətdarlığımı bildirirəm.

Məlum olduğu kimi, cari ilin 12 iyul tarixində Ermənistan silahlı qüvvələri Azərbaycan və Ermənistanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində artilleriya qurğularından istifadə edərək atəşkəs rejimini kobud şəkildə pozmuş, hərbi təxribata əl atmışdır. Əks həmlələr və cavab atəşi nəticəsində hücum dəf edilsə də, növbəti günlərdə Ermənistanın hərbi-siyasi rəhbərliyi öz avantürist və təcavüzkar siyasətindən əl çəkməyərək hərbi və mülki obyektlərin, dinc sakinlərə məxsus evlərin bombalanması ilə bağlı göstərişlər vermişdir.

Bildiyiniz kimi, 30 ilə yaxın müddətdir ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətrafındakı yeddi rayon Ermənistanın işğalı altındadır, bir milyondan çox azərbaycanlı doğma torpaqlarından didərgin düşmüşdür. Son hadisələr bir daha Ermənistan rəhbərliyinin ikiüzlü, ölkənin isə təcavüzkar olduğunu nümayiş etdirdi. Məhz bu səbəbdən qeyd olunan hücum Ermənistanın işğalçı siyasətinin davamıdır.

Bu hadisələr zamanı hərbçilərlə yanaşı, uşaq, qadın və yaşlı insanların hədəfə alınması, öldürülməsi Xocalı soyqırımını həyata keçirənlərin hələ də hazırkı Ermənistan iqtidarında təmsil olunduğunu təsdiq etdi.

Ölkəmizin hərbi qüdrəti, qəhrəman övladlarımızın şücaəti sayəsində Ermənistanın məkrli və çirkin təxribatının qarşısı qətiyyətlə alındı və bundan sonra da alınacaqdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunması ilə bağlı Bosniya və Herseqovinanın ədalətli mövqeyinə görə Sizə bir daha təşəkkür edirəm.

Biz də öz növbəmizdə 1995-ci ildə Srebrenitsa faciəsini yaşayan Bosniya xalqının dərdinə şərik çıxır, qətliam qurbanlarının əziz xatirəsini dərin ehtiramla yad edirik.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq və tərəfdaşlıq münasibətləri birgə səylərimizlə xalqlarımızın rifahı naminə bundan sonra da genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bosniya və Herseqovina xalqına daim firavanlıq və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2020-ci il*

# Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsi hesabına verilən güzəştlərin maliyyələşdirilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, kənd təsərrüfatı texnikasına, texnoloji avadanlığa, suvarma sistemləri və soyuducu anbar dəstlərinə, damazlıq heyvanlara dövlət büdcəsinin vəsaiti hesabına güzəştlərin tətbiqi ilə əlaqədar maliyyə vəsaitinə yaranmış ehtiyacın qarşılanması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinə 20,0 (iyirmi) milyon manat ayrılsın.

2. "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.65-1-ci bəndində göstərilmiş məbləğdən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinə 20,0 (iyirmi) milyon manat ayrılsın.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci və 2-ci hissələrində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2020-ci il*

# "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

1. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1230; 2019, № 5, maddə 841) 1.3-cü bəndində "və fəaliyyətinə" sözləri ", fəaliyyətinə və peşə təhsili müəssisələrinin əldə etdiyi büdcədənkənar vəsaitdən ayırmalar da daxil olmaqla, maliyyələşdirilməsinə" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2020-ci il*

# *Mehriban ƏLİYEVA:* "İnsan haqlarının müdafiəsini özlərinin missiyası elan edən "Freedom House", "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını törədilmiş hadisələrə ədalətli qiymət verməyə çağırıram"

*Əvvəli 1-ci səh.*

Bu faciəli hadisələr 10-dan çox dövlət tərəfindən soyqırımı kimi tanınıb və beynəlxalq təşkilatlar səviyyəsində pislənib.

O qanlı gecədə təpədən dırnağa qədər silahlanmış erməni döyüşçülər xüsusi qəddarlıqla 613 nəfəri qətlə yetirib, 421 dinc sakin işgəncələrə və təhqirlərə məruz qalıb, 1275 nəfər itkin düşüb və ya girov götürülüb, şəhər özü isə tamamilə yandırılıb.

Mindən çox dinc vətəndaş odlu silah yaraları nəticəsində şikəst olub. Öldürülənlər arasında 106 qadın, 63 uşaq, 70 ahıl şəxs olub.

Səkkiz ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. 56 nəfər diri-diri yandırılıb.

İki yaşlı Zəhra Quliyevanın erməni təcavüzkarlar tərəfindən qətlə yetirilməsini də qeyd etməmək olmaz. Zəhra 2017-ci il iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndinin iriçaplı silahlardan atəşə tutulması nəticəsində nənəsi ilə birlikdə həlak olub. Başqa bir misal. 2020-ci il iyulun 14-də Tovuz rayonunun 76 yaşlı dinc sakini Əziz Əzizov erməni silahlı qüvvələri tərəfindən mülki obyektlərin artilleriya atəşinə tutulması nəticəsində həlak olub.

Erməni təbliğat-təşviqat şəbəkəsi 30 ildən artıqdır ki, bu amansız cinayətlərə haqq qazandırmağa çalışaraq çoxsaylı diasporunun köməyi ilə məkrli anti-Azərbaycan təbliğatı aparır. Sirr deyil ki, ölkəmizə qarşı böhtan kampaniyalarının mütləq əksəriyyəti də məhz erməni diasporu tərəfindən inspirasiya edilir və maliyyələşdirilir.

Nifrət və aqressiya dərəcəsi o qədər artıb ki, bu diasporun bəzi nümayəndələri özlərini demokratiyanın beşiyi hesab edən Qərb ölkələrinin paytaxtlarında qanunsuzluq və hərc-mərclik törədirlər.

Avropa siyasətinin mərkəzi sayılan Brüsseldə Azərbaycan Respublikası səfirliyinin daşa basılmasını, dinc nümayişçilərə xəsarət yetirilməsini başqa necə izah etmək olar?

Los-Ancelesdən, Brüsseldən və digər şəhərlərdən çəkilmiş, düşmənlərimizin həqiqi simasını göstərən zorakılıq və vandalizm kadrları həm haqlı olaraq hiddət, həm də əsaslı suallar doğurur.

Həmin ölkələrin hüquq-mühafizə orqanları azğınlaşmış bandit qruplaşmalarının bu cür hərc-mərclik törətməsinə nə üçün imkan verirlər? Bu cinayətlərə necə göz yummaq olar?

Mən bütün dünyada yaşayan milyonlarla azərbaycanlı adından ABŞ-ın, Belçikanın və digər dövlətlərin hüquq-mühafizə orqanlarını bu hadisələri hərtərəfli təhqiq etməyə, onlara müvafiq hüquqi qiymət verməyə və bütün təqsirkarları məsuliyyətə cəlb etməyə çağırıram, çünki qanunsuz əməllər cəzalandırılmalıdır.

Mən, həmçinin çoxsaylı qeyri-hökumət təşkilatlarını, o cümlədən insan haqlarının müdafiəsini özlərinin missiyası elan edən "Freedom House", "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını törədilmiş hadisələrə ədalətli qiymət verməyə çağırıram. Lakin nədənsə biz hələ onların səslərini eşitmirik. Ümidvaram ki, bu qurumlar yetərincə prinsipiallıq nümayiş etdirərək ikili standartlar siyasətindən əl çəkəcək və faktlara əsaslanan bəyanatlarla çıxış edəcəklər.

Əziz qardaşlar və bacılar!

Baş verənlər Ermənistanın işğalçı siyasətinin dinc Azərbaycan əhalisi üçün nə qədər təhlükəli olmasını dünya birliyinə əyani şəkildə nümayiş etdirir.

Belə hallarda bizim borcumuz bu həqiqəti dünya birliyinə çatdırmaqdır.

Bizim vəzifəmiz birləşmək və son zorakılıq aktlarının ədalətlə təhqiq edilməsini, təqsirkarların məsuliyyətə cəlb olunmasını bütün tribunalardan təkidlə tələb etməkdir.

Hər bir səsin əhəmiyyəti var!

Mən bütün dünya azərbaycanlılarını birgə hərəkət etməyə, azğınlaşmış düşmənə layiqli cavab vermək üçün bizim diasporun bütün potensialını birləşdirməyə çağırıram. Bununla belə, unutmamalıyıq ki, qeyri-insani nifrət hissini əsas götürən vəhşilərə və banditlərə bənzəmək olmaz. Bizim mübarizəmiz yalnız hüquq müstəvisi çərçivəsində aparılmalıdır.

Bu günlərdə bütün dünya şəhərlərində öz səsini ucaltmış və Azərbaycan bayrağını qaldırmış hər kəsə təşəkkür edirəm.

Qoy, heç kim şübhə etməsin ki, heç bir provokasiya bizi haqq yolundan dönməyə məcbur edə bilməz. Biz milyonlarlayıq, bizim bir məqsədimiz var - Vətəni müdafiə etmək, onun ərazi bütövlüyünü və tarixi həqiqəti bərpa etmək.

Ona görə ki, Qarabağ Azərbaycandır və nida işarəsi!

# Milli Məclisin Sədri Rusiyanın Azərbaycandakı səfiri ilə görüşüb

İyulun 24-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov ilə görüşüb.



Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Səfir Mixail Boçarnikov görüş imkanı yaradıldığı üçün Milli Məclis Sədrinə minnətdarlığını bildirib. Rusiyalı səfir əvvəlcə Sahibə Qafarovanı Milli Məclisin Sədri seçilməsi münasibətilə təbrik edib. Azərbaycan-Rusiya əlaqələrinin möhkəm dostluğa əsaslandığını qeyd edən səfir iki ölkə arasında olan münasibətlərin müxtəlif sahələri əhatə etməsindən məmnunluğunu vurğulayıb.

Sahibə Qafarova mövcud münasibətlərin parlamentlərarası əməkdaşlığın gələcək perspektivi üçün çox yaxşı zəmin yaratdığını qeyd edib, humanitar sahədə əməkdaşlığın vacibliyini vurğulayıb.

Ermənistanın Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində iyulun 12-dən etibarən yaratdığı vəziyyətə xüsusilə toxunan Milli Məclisin Sədri bildirib ki, bir çox beynəlxalq qurumlar və təşkilatlar Ermənistan tərəfindən törədilən bu təxribatı pisləyib.

Milli Məclisin Sədri Ermənistan tərəfindən törədilən təxribata etiraz olaraq son günlərdə dünyanın müxtəlif ölkələrində dinc aksiyalar keçirən azərbaycanlılara qarşı ermənilər tərəfindən hücumların təşkil edilməsini kəskin şəkildə qınayıb.

Səfir M.Boçarnikov ATƏT-in Minsk qrupunun üzvlərindən biri kimi Rusiyanın problemin sülh yolu ilə həll edilməsində maksimum səy göstərdiyini bir daha qeyd edib.

Görüşün sonunda rusiyalı diplomat Rusiya Federasiyası Federal Şurasının Federal Məclisinin sədri Valentina Matviyenkonun dəvətini xatırladaraq, ən qısa zamanda Milli Məclis Sədrini Moskvada gözlədiklərini bildirib. Sahibə Qafarova, öz növbəsində COVID-19 pandemiyası səbəbindən hazırda bütün səfərlərin vaxtının dəyişdirilməsindən təəssüfləndiyini qeyd edərək, pandemiya bitdikdən sonra ilk səfərlərdən birinin məhz Rusiya Federasiyasına ediləcəyini vurğulayıb.

# Hikmət Hacıyev Kanadanın "CTV News" televiziyasına müsahibəsində Ermənistanın hərbi təcavüzündən danışıb




Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Kanadanın "CTV News" televiziya kanalına müsahibə verib.

AZƏRTAC xəbər verir ki, Sovet İttifaqının dağılmasından sonra Azərbaycanın Ermənistanın hərbi təcavüzündən əziyyət çəkdiyini bildirən H.Hacıyev ərazilərimizin 20 faizinin Ermənistan tərəfindən işğal olunduğunu və işğal edilmiş ərazilərimizdə etnik təmizləmənin həyata keçirildiyini diqqətə çatdırıb.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə toxunan Prezidentin köməkçisi münaqişənin həlli istiqamətində nəzərəçarpacaq nəticələrin olmadığını və münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı, eləcə də azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtması əsasında həllinin zəruriliyini vurğulayıb.

Ermənistanın Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində son hərbi təxribatına toxunan Prezident Administrasiyasının şöbə müdiri Ermənistan silahlı qüvvələrinin artilleriyadan istifadə edərək Azərbaycan mövqelərinə atəş açdığını və hərbçilərimizin həlak olduğunu, habelə məqsədyönlü şəkildə Azərbaycanın yaşayış məntəqələrini və mülki insanları hədəfə aldığını söyləyib.

Prezidentin köməkçisi Ermənistanın bu hücumu törətməkdə məqsədinin həmin ərazidən keçən Şərq-Qərb dəhlizi və Azərbaycanın neft-qaz kəmərlərinə təhlükə yaratmaq olduğunu bildirib. Azərbaycanın sərhəd zonasında hərbi məqsədlərinin olmadığını bildirən H.Hacıyev ölkəmizin münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həllinə çalışdığını qeyd edib.

Metsamor Atom Elektrik Stansiyasının (AES) fəaliyyətinə toxunan H.Hacıyev sözügedən stansiyanın dünyada Çernobıl texnologiyasının istifadə olunduğu yeganə AES olduğunu bildirib. Köhnəlmiş texnologiyaların istifadə olunduğu AES-in region üçün təhlükə olduğunu söyləyən H.Hacıyev Metsomorun radioaktiv maddələrin qaçaqmalçılığı üçün bir vasitəyə çevrildiyini xüsusilə vurğulayıb.

Eyni zamanda, Kanadada yaşayan azərbaycanlılara və Kanadanın hüquq-mühafizə orqanlarına müraciət edərək erməni lobbi qruplarının Los-Anceles, Paris və Brüsseldə azərbaycanlılara hücum etdiyini və erməni terror təşkilatlarının azərbaycanlılara hücum edə biləcəyindən onları ayıq olmağa çağırıb.

Xəbər ilə aşağıdakı keçid vasitəsilə tanış olmaq mümkündür:

https://www.ctvnews.ca/video?clipId=2001162

# *YAP İcra Katibliyində "İyul döyüşləri:* Qəhrəmanlıq və vətənpərvərlik dərsləri" mövzusunda videokonfrans keçirilib

İyulun 24-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində "İyul döyüşləri: Qəhrəmanlıq və vətənpərvərlik dərsləri" mövzusunda videokonfrans keçirilib.



YAP-ın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, videokonfransda çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin indiyə kimi tənzimlənməməsi Ermənistanın ardıcıl olaraq davam edən təxribatları üçün "münbit" zəmin yaradıb. Onun sözlərinə görə, iyulun 12-də dövlət sərhədinin Tovuz rayonu istiqamətində törədilən təxribat nəticəsində baş verən qanlı toqquşmalar da bunun nümunəsi sayıla bilər: "Təəssüf ki, ayrı-ayrı beynəlxalq təşkilatlar, xüsusilə ATƏT-in Minsk qrupunun həmsədrləri müxtəlif dövrlərdə erməni təxribatı nəticəsində baş verən qanlı toqquşmalarla əlaqədar ədalətli mövqe ortaya qoymaq əvəzinə tarazlı, balanslaşdırılmış bəyanatlar səsləndirməyə üstünlük verirlər. Həqiqət isə budur ki, bu cür bəyanatlar əslində mahiyyət etibarilə təcavüzkar Ermənistanı gizli yollarla dəstəklənməsi effektini yaradır. Bu da onları növbəti təxribatlar törətməyə həvəsləndirir. Erməni tərəfinin bu təxribatları törətməkdə məqsədi münaqişənin ədalətli həllini uzatmaqdır".

Əli Əhmədov qeyd edib ki, Ermənistan bu təxribatı törətməklə münaqişənin coğrafiyasını və onun iştirakçılarının sayını artırmaq niyyətini ortaya qoymuşdu. Başqa bir niyyətləri də o idi ki, Aprel döyüşlərindən sonra yaşadıqları uğursuzluq və gücsüzlük sindromundan xilas olsunlar. Amma ordumuzun düşmənə sarsıdıcı zərbələri nəinki onların bu sindromdan xilas olmasına kömək etmədi, əksinə bu zərbələrin təsirindən yəqin ki, təxribat törətməklərindən ciddi şəkildə peşman olublar.

Baş verən hadisənin nəticələrindən danışan YAP Sədrinin müavini qeyd edib ki, döyüşlər nəticəsində bir daha sübut olundu ki, ordumuz bütün parametrlər üzrə erməni ordusundan xeyli üstündür. Bu, erməni tərəfinə növbəti dəfə dərs oldu. Digər tərəfdən, döyüşlər bütün dünyaya Azərbaycan və Ermənistanın hansı döyüş potensialına malik olduğunu göstərdi.

"İkinci nəticə siyasi-diplomatik müstəvidə özünü göstərdi. Məlumdur ki, Ermənistan xislətinə uyğun olaraq bu hadisələrə görə günahı Azərbaycanın üzərinə yıxmağa çalışdı. Amma tam iflasa uğradılar, ermənilər kənar qüvvələrin onlara dəstək verəcəklərini gözləsələr də, bu, baş vermədi. Azərbaycan isə beynəlxalq mövqelərini daha da möhkəmləndirdi. Bütün ciddi beynəlxalq təşkilatlar, ayrı-ayrı dövlətlər ölkəmizin ədalətli mövqeyini dəstəklədilər. Bir daha bu münaqişənin ədalətli yolla həll olunması çağırışları səsləndirildi. Bu da Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir".

Əli Əhmədovun fikrincə, baş verən hadisələrdən çıxan bir nəticə də Azərbaycan xalqının hərbi-vətənpərvərlik ruhunun yüksəlməsi ilə əlaqədardır: "Tovuz istiqamətində gedən döyüşlər xalqımızın, xüsusilə gənclərimizin hərbi vətənpərvərlik ruhunu daha da yüksəltdi. Vətəndaşlarımız Azərbaycan torpaqlarının işğaldan azad olunması uğrunda canlarından keçməyə hazır olduqlarını nümayiş etdirdilər. İyulun 14-dən 15-ə keçən gecə Bakıda və digər bölgələrdə keçirilən aksiyalar, yürüşlər bu həqiqəti ortaya qoydu. Azərbaycan gəncliyi ordu, dövlət və Prezident İlham Əliyevlə bir olduğunu nümayiş etdirdi. Bu fakt ordunun döyüş ruhunu artırmağa xidmət edən ən mühüm faktlardan biri kimi qeyd olunmalıdır. Ordumuzun şücaəti, düşmənə endirilən sarsıdıcı zərbələr bizi addım-addım torpaqlarımızın işğaldan azad olunmasına yaxınlaşdırır. Biz arzu edirik ki, ərazi bütövlüyümüzün bərpa olunması, xalqımızın pozulmuş hüquqlarının bərpası qan tökülməklə deyil, dinc yolla həyata keçirilsin. Bu isə Ermənistanın seçimidir. Ermənistan bu seçimdən imtina edəcəksə, onda Azərbaycan Ordusu və xalqı pozulmuş hüquqlarını bərpa etmək, torpaqlarımızı azad etmək üçün ən təsirli addımları atmağa hazır olduğunu və qələbəsini təmin etmək qüdrətini sübuta yetirəcək".

Videokonfransda, həmçinin Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Milli Məclisin deputatı Arzu Nağıyev, Milli Məclisin deputatı Ceyhun Məmmədov və Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı Fəzail Ağamalı çıxış edərək Ermənistanın törətdiyi növbəti hərbi təxribat barədə fikirlərini bildiriblər. Qeyd olunub ki, işğalçı Ermənistan bu təxribatı törətməklə öz məkrli məqsədlərinə nail olmayıb. Azərbaycan Ordusu qarşı tərəfə layiqli cavab verib. Bildirilib ki, Ermənistanın məqsədi öz daxili problemlərindən diqqəti yayındırmaq, həmçinin Azərbaycanın artan beynəlxalq nüfuzuna zərbə vurmaqdan ibarət olub. Amma işğalçı ölkə heç bir məqsədinə nail ola bilməyib. Çıxışlarda qeyd edilib ki, döyüş və diplomatiya müstəvisində məğlub olan ermənilər beynəlxalq terrora əl atıb. Bunu bir sıra ölkələrdə Azərbaycan diasporuna və diplomatik korpuslara edilən hücumlar da təsdiqləyir.

Videokonfransa yekun vuran YAP Sədrinin müavini Əli Əhmədov qeyd edib ki, bu gün güclü və qüdrətli Azərbaycanın qarşısında təlaş içində vurnuxan Ermənistan dayanıb. Onun sözlərinə görə, Azərbaycan xalqı addım-addım qələbəyə doğru irəliləyir və biz Prezident İlham Əliyevin rəhbərliyi ilə bu qələbəyə nail olacağıq.

# Hikmət HACIYEV: "Azərbaycan ATƏT-in Minsk qrupu çərçivəsində konkret danışıqların tərəfdarıdır"

**Azərbaycan Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri, Prezidentin köməkçisi Hikmət Hacıyev Rusiyada çıxan "Kommersant" ("C") qəzetinə iyulun 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində törətdiyi provokasiya barədə müsahibə verib. AZƏRTAC həmin müsahibəni təqdim edir.**

Ötən həftə Ermənistan-Azərbaycan sərhədində hərbi münaqişə son illərdə ən ciddi şəkildə kəskinləşib. Tərəflər indiyə qədər hər gün atəşkəs rejiminin pozulması hallarını qeyd edirlər. "C" qəzetinin müxbiri, münaqişə zonasından Bakıya gəlmiş Kirill Krivoşeyev Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi Hikmət Hacıyevin yaranmış vəziyyəti necə görməsi və tərəflərin danışıqlara nə vaxt qayıda biləcəyi barədə suallarla müraciət edib. Oxşar məzmunlu sorğu Ermənistan XİN-ə də göndərilib, Ermənistan tərəfi hadisəni öz mövqeyindən qiymətləndirib.

## "Qərəzli provokasiya və hərbi-siyasi avantüra"

**- Azərbaycanın hakimiyyət orqanları yaxın günlərdə vəziyyətin kəskinləşməsindən necə nəticə çıxaracaqlar?**

- Bu kəskinləşmə erməni silahlı qüvvələri tərəfindən qərəzli provokasiya və hərbi-siyasi avantüra idi. Biz bunu təcavüz aktı, terror aktı, o cümlədən silahlı qüvvələrdən Azərbaycana qarşı qanunsuz istifadə aktı və dövlət sərhədini pozmaq cəhdi kimi qiymətləndiririk.

Bütün bunlara baxmayaraq, erməni tərəfi öz qarşısına qoyduğu məqsədlərə nail ola bilmədi.

**- Gələcəkdə buna oxşar vəziyyətin təkrarlanmasını istisna etmək üçün siz nə edə bilərsiniz?**

- Bu hadisələr ATƏT-in Minsk qrupunun həmsədrləri (Rusiya, ABŞ və Fransa - "C"), bütün beynəlxalq birlik tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına yönəlmiş tədbirləri gücləndirməyin zəruri olmasını bir daha vurğulayır. Regionda sülhə və təhlükəsizliyə təhdidin əsas mənbəyi münaqişənin nizamlanmamış statusudur. Sonuncu dəfə vəziyyətin kəskinləşməsi bir daha göstərdi ki, erməni tərəfi regionda vəziyyətin kəskinləşməsi, gərginlik yaradılması və iki ölkə arasında dövlət sərhədi və təmas xətti boyunca eskalasiya üçün bu cür hərbi avantüralardan həmişə istifadə edir.

**- Tovuz rayonunda adamlar mənə söyləyirdilər ki, onlar dövlətlər arasında qanuni sərhəddə vəziyyətin bu dərəcədə kəskinləşməsini ilk dəfə görürlər. Bu, o demək ola bilərmi ki, münaqişə zonası Qarabağın hüdudlarından kənara genişlənir?**

- İki ölkənin sərhədində yeni münaqişə ocağı yaratmağa çalışan erməni tərəfin niyyətlərindən biri məhz bundan ibarət idi. Onlar həm də Şərq-Qərb xəttində nəqliyyat, o cümlədən enerji və kommunikasiya xətləri üçün təhlükə yaratmaq niyyətindədirlər. Bundan əlavə Ermənistanda daxili vəziyyət kəskinləşir. Ermənistanın hakimiyyət orqanları bu yolla əhalinin diqqətini, xüsusən COVID-19-a qarşı mübarizə sahəsində özlərinin fəaliyyətsizliyi nəticəsində yaranmış daxili problemlərdən yayındırmaq istəyirlər.

Bununla bərabər, erməni tərəfi münaqişəyə üçüncü tərəfləri, o cümlədən özünün daimi üzv olduğu hərbi-siyasi alyansları (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, KTMT nəzərdə tutulur - "C"). Lakin bu təşkilatın üzvləri olan ölkələr erməni tərəfin niyyətlərini tamamilə başa düşərək öz fikirlərini müxtəlif səviyyələrdə ifadə ediblər. Ermənistandan başqa bu təşkilatın üzvü olan bütün ölkələrlə Azərbaycan arasında dostluq münasibətləri yaranıb. Erməni tərəfin məkrli cəhdləri uğursuz olub.

**- Siz münaqişənin budəfəki kəskinləşməsində Rusiyanın mövqeyini necə qiymətləndirirsiniz? Nə isə başqa şey gözləyirdinizmi?**

- Rusiya tərəfi ilə diplomatik kanallar üzrə, o cümlədən ATƏT-in Minsk qrupunun Rusiyadan olan həmsədri İqor Popovla intensiv dialoq aparırdıq. Hərbi kanallar üzrə kommunikasiya və dialoq mexanizmi mövcuddur, bu mexanizm də işə salınmışdır. Hazırda Rusiya tərəfi vəziyyətin deeskalasiyası üçün əlindən gələni edib. Məsələn, Rusiya və KTMT-nin üzvü olan bütün başqa ölkələr bir daha öz fikirlərini bildirdilər ki, erməni tərəfin niyyətlərinə və təhriklərinə baxmayaraq yaranmış vəziyyət bu təşkilatın məsələsi deyil.

Ən başlıcası - lap yaxın vaxtlarda, bu hadisələr zamanı Rusiya Federasiyasında hərbi təlimlər keçirilirdi. Erməni tərəfi təbliğat fonu yaratmaq üçün bu faktdan istifadə etmək istəyirdi.

Lakin biz Rusiya hərbi idarəsindən zəmanət aldıq ki, bu təlimlər Ermənistan-Azərbaycan sərhədində vəziyyətin kəskinləşməsi ilə əsla bağlı deyil.

## "Ermənistan hətta humanitar məsələlərdə də pozucu mövqe tutur"

**- Məhz vəziyyətin kəskinləşdiyi vaxtda Azərbaycanda Xarici İşlər naziri dəyişdirildi. Bu ərəfədə Prezident İlham Əliyev Nazirlər Kabinetinin müşavirəsində Elmar Məmmədyarovu tənqid etdi. O deyirdi ki, məsələnin mahiyyətinə aid olmayan mənasız danışıqlar aparılır. Siz bu frazanı necə izah edə bilərsiniz? Son vaxtlar xalqları sülhə hazırlamaq proqramı barədə danışıqlar aparılırdı. Belə çıxır ki, Prezident məhz humanitar mübadilələri, jurnalistlərin mübadiləsini mənasız adlandırıb?**

- Yox, mən deyərdim ki, burada söhbət bütövlükdə danışıqlar prosesindən gedir. 1994-cü ildən atəşkəs rejimi mövcuddur. O vaxtdan bəri erməni tərəfi Azərbaycanın suveren ərazilərini ilhaq etmək üçün həmişə bu rejimdən pərdə kimi istifadə edir. ATƏT-in Minsk qrupunun həmsədrlərinin mandatında isə açıq-aydın yazılıb ki, həmin mandat BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, Helsinki Yekun Aktına və beynəlxalq hüquqa əsaslanır. Danışıqlar prosesinin mahiyyəti Azərbaycan ərazilərinin işğaldan azad olunmasını və azərbaycanlı qaçqınların öz yurdlarına qaytarılmasını təmin etmək, Azərbaycanın beynəlxalq miqyasda tanınmış sərhədləri çərçivəsində onun ərazi bütövlüyünü bərpa etməkdir.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin ali səviyyədə dəfələrlə bəyan etdikləri kimi status-kvo qəbuledilməzdir və dəyişməlidir. Ermənistan isə Azərbaycan ərazilərinin hərbi işğalını və ilhaqını davam etdirmək məqsədilə danışıqlar prosesindən sui-istifadə edir. Ermənistan var qüvvəsi ilə mühüm mövzuların müzakirəsindən diqqəti yayındırmağa çalışır və əsas diqqəti simptomatik məsələlər üzərində cəmləşdirir. Məsələn, 2016-cı ilin aprelində vəziyyət kəskinləşəndən sonra ermənilər təmas xəttində insidentlərin təhqiqatı ilə, Kaspşikin (ATƏT-in fəaliyyətdə olan sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə həmsədri Anji Kaspşik - "C") qrupunun əməkdaşlarının sayının artırılması ilə məşğul olmağı təklif edirdilər. Məsələnin mahiyyəti üzrə danışıqlar prosesi çərçivəsində bu cür texniki məsələlər, o cümlədən, erməni qoşunlarının çıxarılması kontekstində müzakirə edilə bilər.

Azərbaycan xalqın sülhə hazırlanmasının, humanitar mübadilələrin əleyhinə deyil. Lakin biz, ilk növbədə, hərbi işğal məsələsini həll etməliyik.

Yenilənmiş Madrid prinsiplərində münaqişənin nizamlanması və işğalçı erməni qüvvələrinin mərhələli şəkildə çıxarılması nəzərdə tutulur. Lap yaxın vaxtlarda Sergey Lavrov (RF XİN başçısı - "C") bu faktı vurğulayıb. Minsk qrupunun zaman çərçivələri, yəni erməni qoşunlarının Azərbaycanın işğal edilmiş bu və ya digər rayonundan nə vaxt çıxarılacağı göstərilməklə öz fəaliyyət planı olmalıdır.

Minsk qrupunun sədri Mario Rafaelli olanda (1992-1993-cü illər) onun konkret planı vardı. Bu plan BMT Təhlükəsizlik Şurasının Ermənistanın hərbi qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılması barədə qətnamələri əsasında tərtib edilmişdi. Artıq 30 il keçib. Bəs bu plan nə üçün reallaşdırılmır? Minsk prosesində 11 ölkə iştirak edir. Onlar hamısı fəal olmalıdır.

Biz Minsk prosesinin bütün iştirakçılarını çağırmalı və əsas diqqəti danışıqlar prosesinin mahiyyəti üzərində cəmləşdirməliyik.

Jurnalistlər mübadiləsi və ya hər hansı başqa humanitar layihələr isə əsas məqsəd ola bilməz. Bunlar hamısı köməkçi elementlərdir.

**- Yəni əgər siz danışıqlar masası arxasına qayıtsanız və erməni tərəfi yenə humanitar mübadilə təklif etsə siz deyəcəksiniz ki, bunu yalnız sonra müzakirə edəcəksiniz?**

- Biz ümumi vəziyyəti qiymətləndirməliyik. Erməni tərəfi danışıqlar prosesinə sadiq olduğunu təsdiq etməlidir. Ona görə ki, biz indiyə qədər görmüşük: ermənilər ali səviyyələrdə gah bir, gah başqa söz deyirlər. Onlar danışıqlar prosesinin formatını və predmetini hər vasitə ilə pozmaq istəyirlər. Ermənistan hətta humanitar məsələlərdə də pozucu mövqe tutur. Məsələn, Azərbaycan erməni tərəfin saxladığı hərbi əsirləri və girovları "hamını hamıya" prinsipi üzrə dəyişməyi təklif edir (onlardan biri Rusiya vətəndaşıdır). Azərbaycan COVID-19 pandemiyası dövründə bu təklifi bir daha irəli sürdü, erməni tərəfi isə yenə rədd cavabı verdi.

Xalqların sülhə hazırlanması məsələsinə gəldikdə isə biz hesab edirik ki, sülhə hazırlaşmağa ehtiyacı olan, ilk növbədə, Ermənistanın hərbi siyasi rəhbərliyidir. Paşinyan (Ermənistanın baş naziri Nikol Paşinyan - "C") bəyan edir ki, Qarabağ Ermənistandır. Məgər bu bəyanat sülhə xidmət edir? Yaxud Ermənistanın müdafiə naziri (David Tonoyan - "C") "yeni ərazilər xatirinə, yeni müharibə" barədə danışır. Bu sülhə hazırlıqdır, yoxsa bu yaxınlarda gördüyümüz yeni müharibəyə?

**- Lakin erməni tərəfi danışıqlar masası arxasına Stepanakert nümayəndələrini əlavə etmək niyyətində olduğunu gizlətmir.**

- İndiki məqamda danışıqlar prosesinin formatı artıq məlumdur. Münaqişənin iştirakçıları Ermənistan və Azərbaycandır. Beynəlxalq hüquqa görə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərində olması Ermənistanın münaqişə tərəfi kimi məsuliyyətini müəyyən edir. Azərbaycanın işğal edilmiş ərazisində qeyri-qanuni rejim yaradılması isə həmin rejimə danışıqlar prosesinin iştirakçısı olmaq hüququ vermir. Münaqişənin nizamlanması formatını dəyişməyə heç kəsin hüququ yoxdur.

**- Minsk qrupu işinin öhdəsindən gəlmir?**

- Mən belə deyərdim: bu bizi qane etmir. Mən onlara açıq demişəm ki, onların yalnız məlumatların çatdırılmasından ibarət olan iş mexanizmi səmərəli deyildir. Onlar erməni tərəfindən müəyyən informasiyanı alır, bu informasiyanı bizə, sonra isə geriyə çatdırırlar. Halbuki erməni qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasının və qaçqınların doğma yurdlarına qayıtmasının dəqiq planı olmalıdır.

Həmsədrlər deyirlər: Qoy Ermənistan və Azərbaycan öz aralarında razılığa gəlsinlər, biz isə onların qərarını dəstəkləyərik. Belə olan halda onların moderator rolu nədən ibarətdir?

Bir məsələni də unutmayın ki, bu qrupun üç həmsədri BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Bir daha təkrar edirəm, hərbi işğal faktı mövcuddur. Həmsədrlər bu fakta siyasi və hüquqi qiymət verməli və bunun əsasında biz irəliyə getməliyik.

Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistanın qanunsuz hərəkətləri, o cümlədən oraya ermənilərin qeyri-qanuni köçürülməsi danışıqlar prosesinin mənasını tamamilə heçə endirir. ATƏT-in 2005-ci və 2010-cu illərdə fakt-araşdırıcı missiyaları Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-leqal hərəkətlərlə bağlı çoxlu faktlar aşkar etdi. Bu məsələlərə münasibətdə həmsədrlər tərəfindən konkret mövqe görünmür. Həmsədrlərin mandatı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsidir. Başqa sözlə desək, həmsədrlərin birinci dərəcəli məqsədi həmin qətnamələrin tələblərini yerinə yetirməkdən ibarət olmalıdır.

Bu qətnamələr Minsk qrupu təsisatının pasportu və doğum haqqında şəhadətnaməsidir. Lakin çox təəssüf ki, onlar bunu tez-tez unudurlar.

## "Erməni nazir danışıqlar prosesinə kompüter oyunu kimi baxır"

**- Lakin erməni tərəfi deyir ki, son iki ildə danışıqlar prosesində uğurlar qazanılıb. Siz bu fikirlə razı deyilsiniz?**

- Əsla razı deyiləm. Nümunə üçün deyin, hansı irəliləyişlər olub. Bir şey aşkardır ki, Ermənistan üçün tərəqqi heç bir nəticə verməyən danışıqlar prosesinin imitasiyasının davam etməsidir.

**- Düşənbə (2018-ci ilin sentyabrında orada Nikol Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyev görüşüblər - "C"), operativ əlaqə yaradılması...**

- Düşənbədə məhz Azərbaycan tərəfin siyasi iradəsi və konstruktivizmi sayəsində danışıqlar prosesinin irəliləməsi üçün müsbət fon yaradılıb. O vaxt Paşinyan hakimiyyətə yenicə gəlmişdi və Azərbaycan tərəfi gözləyirdi ki, Ermənistanın yeni rəhbərliyi öz sələfləri ilə müqayisədə fərqli siyasət yürüdəcək və beləliklə danışıqlar prosesində irəliləyişə nail olmaq mümkündür.




Onlar danışıqlar prosesi ilə tanış olmaq üçün vaxt istədilər. Bəs sonra nə oldu? Ermənistanın hərbi-siyasi rəhbərliyi özünün ziddiyyətli bəyanatları ilə danışıqlar prosesinə çox ziyan vurdu. Nikol Paşinyan məhz o vaxt demişdi ki, Qarabağ Ermənistandır, NATO-nun qərargahında iş üzrə tanış olduğumuz David Tonoyan isə Brüsseldə "Yeni müharibə - yeni ərazilər" formulunu söylədi. Yeri gəlmişkən, yadımdadır ki, David Tonoyan kompüter oyunlarını çox xoşlayırlar. Hər şeydən görünür ki, erməni nazir danışıqlar prosesinə kompüter oyunu kimi baxır, bu isə çox kədərlidir.

**- Mən nazir Tonoyan ilə də, Azərbaycan Müdafiə Nazirliyinin nümayəndəsi Vaqif Dərgahlı ilə söhbət etmişəm. İstər Ermənistanda, istərsə də Azərbaycanda operativ əlaqənin necə işlədiyini heç kəs mənə izah edə bilmədi. Nə üçün bu əlaqə indi işə düşmədi?**

- Prinsip etibarilə həmin əlaqə işləmir və səmərəli deyil.

**- Bu insanlar mənə deyirlər: bilirsinizmi, bu məsələ ilə hərbçilər məşğul olmurlar, bununla başqa idarə məşğul olur, amma hansı idarədirsə demirlər. Azərbaycanda kim erməni hərbçilərinə zəng vurub soruşa bilər: "Siz nə edirsiniz?"**

- İki ölkənin səlahiyyətli nümayəndələri arasında müəyyən rabitə kanalı var. Lakin Ermənistanla əlaqədar faktorlar nəticəsində, xüsusən Yerevanda daimi kadr hərc-mərcliyi üzündən bu rabitə kanalı praktiki olaraq işləmir və səmərəli deyil. Faktiki olaraq orada əlaqə saxlayası adam yoxdur.

Onlar (Ermənistanın hakimiyyət orqanları - "C") özləri belə bir mexanizm yaradılmasını xahiş etdilər, sonra isə özləri bir daha göstərdilər ki, bu mexanizm onları maraqlandırmır. Bu fakt Ermənistanın səmimi olmamasını bir daha təsdiq edir.

**- Lakin hər halda, bəlkə elə etməyə dəyər ki, bilavasitə hərbçilər zəngləşə bilsinlər. Məsələn, zastava komandirlərinin birbaşa ünsiyyət saxlaması yaxşı olarmı?**

- Lokal səviyyədə, xüsusən təmas xəttində (Ermənistanın və Azərbaycanın beynəlxalq miqyasda tanınmış sərhədində deyil, Qarabağda - "C") belə rabitə xəttinin müəyyən forması mövcuddur. Lakin biz yenidən danışıqlar prosesinin mənası məsələsinə qayıtdıq. Bütün bunlar nə üçün baş verir? Ona görə ki, hərbi işğal faktı var. Əgər Ermənistan silahlı qüvvələri bizim işğal edilmiş ərazilərdən çıxarılsa, belə texniki mexanizmlərə ehtiyac qalmayacaq. Lakin erməni silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən çıxarılması çərçivəsində onlara ehtiyac ola bilər.

**- Prezident Əliyev deyib ki, Azərbaycan diplomatiyası hücum diplomatiyası olmalıdır və keçmiş təhsil nazirini yeni xarici işlər naziri təyin edib. Bu seçim nə ilə bağlıdır, nə üçün karyeralı diplomat seçilmədi?**

- Bu, cənab Prezidentin qərarıdır. Prezidentin qərarları müzakirə edilmir və şərh olunmur, onlar icra edilir. Mən yeni Xarici İşlər naziri Ceyhun Bayramovu çox yaxşı tanıyıram və ona uğurlar arzu edirəm. Onunla yoldaşlıq əlaqələrimiz və işgüzar münasibətlərimiz var. Təhsil Nazirliyində özünü çox yaxşı menecer kimi göstərib. Cənab Bayramov strateji təsəvvürlü, çox təcrübəli adamdır. Buna görə inanıram ki, o, cənab Prezidentin yüksək etimadını doğruldacaq.

## "Bundan sonra ağır artilleriya istifadə etməyin mənası nədən ibarət idi?"

**- KİV-də yayılmış məlumata görə, lap yaxın günlərdə Bakı Türkiyədən "Bayraktar" pilotsuz uçuş aparatları alıb. Hərçənd, Azərbaycan KİV-i onlar haqqında iyun ayında da, hətta fevral ayında da yazmışdı. Nə isə təzə tədarük olubmu?**

- Əvvələn, Azərbaycan ilə Türkiyə arasında strateji münasibətlər var. Türkiyə Cənubi Qafqaz regionu ilə bağlıdır, həm Azərbaycanla, həm də Ermənistanla sərhədləri var. Türkiyə həm də Minsk qrupunun üzvüdür.

Türkiyədən keçməklə Suriyadan Azərbaycana silahlıların göndərilməsi barədə informasiya tamamilə cəfəngiyat, yanlış və uydurma xəbərdir. Bu məlumat hansısa əhəmiyyətsiz media-resurslarda yayılıb.

Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq sirr deyil: bizim həm Türkiyə, həm də Rusiya ilə yaxşı hərbi-texniki əlaqələrimiz var. Biz görürük ki, indiki məqamda Rusiya ilə Türkiyənin strateji maraqları üst-üstə düşür, yəni Cənubi Qafqaz regionunda, Qara dəniz və Xəzər dənizi hövzələrində sülhü, təhlükəsizliyi və əməkdaşlığı təmin etmək lazımdır. Bu, eyni zamanda, həm Rusiyanın, həm də Türkiyənin maraqlarına uyğundur. Nəhayət, bu həm də Ermənistanın mənafelərinə uyğundur. Lakin hansısa üçüncü tərəflərin (Ermənistanla münaqişəyə - "C") cəlb edilməsi Azərbaycanın mənafeyinə uyğun deyil.

Azərbaycan ordusu yaxşı təchiz edilib, ruh yüksəkliyinə və dövlət sərhədinin müdafiəsinin, o cümlədən özünün işğal altında olan ərazilərinin azad edilməsini təmin etmək üçün hər cür imkana malikdir.

**- Deməli, siz hər hansı insident baş verə biləcəyini və Türkiyənin bu məsələyə öz qoşunları səviyyəsində müdaxilə etməsi barədə xahiş olunmasını istisna edirsiniz?**

- Bu, Azərbaycanın maraqlarına uyğun deyil. Bizdə hər şey açıqdır, şəffafdır. Biz, eyni zamanda, həm Rusiya, həm Türkiyə, həm İsrail həm də başqa ölkələrlə çox sıx hərbi-texniki əməkdaşlıq etməyimizi gizlətmirik.

**- Hər halda, Azərbaycan "Bayraktar" pilotsuz uçuş aparatları alıb ya yox?**

- Bu məsələ barədə tam məlumatım yoxdur. Yalnız bunu əlavə edə bilərəm ki, Azərbaycanın çox yaxşı dronlar donanması var. Bu, bizim regionda ən yaxşı donanmalardan biridir. O cümlədən, pilotsuz zərbə uçuş aparatları, pilotsuz kəşfiyyat aparatları var. Döyüş əməliyyatları zamanı onlar Azərbaycanın Ermənistan üzərində strateji üstünlüyünü bir daha nümayiş etdirdi.

**- Ermənilər bir neçə dəfə guya vurduqları pilotsuz uçuş aparatlarının fotoşəkillərini nümayiş etdiriblər. Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidməti mənə deyirdi ki, UAZ avtomobilləri (erməni tərəfin versiyasına görə vəziyyətin kəskinləşməsi içərisində Azərbaycan hərbçiləri olan UAZ avtomobilinin ermənilərin nəzarəti altında olan əraziyə daxil olmasından başlanıb - "C") hər iki tərəfdə var və onunla saxta video çəkmək asandır. Lakin İsraildə istehsal edilmiş, Azərbaycanın istifadə etdiyi pilotsuz uçuş qurğuları Ermənistanın təchizatında yoxdur. Siz erməni əsgərlərinin bu cür pilotsuz aparatlarla fotoşəkillərini necə izah edərsiniz?**

- Azərbaycan Müdafiə Nazirliyi bu məsələ barədə bəyanat verib. Əlbəttə, erməni tərəfi burada daha çox fotoşop ilə məşğul olur. Bu müsahibənin dərc edilməsi ərəfəsində Yerevanda erməni tərəfin dediyinə görə, döyüş əməliyyatları zamanı vurulmuş pilotsuz aparatların sərgisi açılıb. Lakin Bakıda onların həqiqiliyini etiraf etmədilər. UAZ avtomobilləri ilə bağlı xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycanın Ermənistan ilə dövlət sərhədində hər hansı hərbi planları və ya hədəfləri yoxdur. Buna görə, Ermənistan ilə sərhədin müəyyən hissəsinin mühafizəsi sərhəd qoşunları tərəfindən həyata keçirilir.

Azərbaycan-Ermənistan dövlət sərhədində eskalasiya Azərbaycanın maraqlarına uyğun deyil. Əksinə, sərhədin bu sahəsində gərginlik mövqeyinin yaranması Ermənistanın maraqlarına uyğundur.

Hər hansı müasir ordunun düşmənin döyüş mövqelərinə zirehsiz nəqliyyat vasitələri ilə hücum edəcəyini düşünmək səfehlikdir. Əgər Azərbaycan hücum etməyi qərara almış olsaydı, o, özünün işğal altında olan ərazilərini azad etmək məqsədilə bunu təmas xətti boyunca edərdi.

**- Demək istəyirsiniz ki, hər halda UAZ olub və haradasa hərəkət edib?**

- UAZ olub, Azərbaycan postları arasında hərəkət edib. Bu onların gündəlik işidir.

**- Siz belə güman etmirsinizmi ki, o, başqa yola düşə, aza bilərdi? Yoxsa ermənilər hansısa yeni istehkam qurub, Azərbaycan əsgərlərinin bundan xəbəri olmayıb və postun üstünə çıxıblar?**

-Bəli, belə xırda insidentlər ola bilər. Bu istisna olunmur. Lakin bundan sonra ağır artilleriyadan istifadə etməyin və Azərbaycan Silahlı qüvvələrinin postlarına hücum etməyin mənası nə imiş? Bu, Azərbaycan tərəfdən üç nəfərin ölümünə və beş nəfərin yaralanmasına gətirib çıxarıb. Erməni tərəfi bu suala cavab verməlidir. Məhz onlar artilleriyadan istifadə etməyə başlamaqla eskalasiya təşəbbüsü veriblər. Bu, ermənilər tərəfindən aşkar təhrikçilik idi. Erməni tərəfi nə üçün artilleriyadan istifadə edirdi?

**- Azərbaycan bildirir ki, döyüşlərdə azı yüz erməni əsgəri ölüb. Bu, Ermənistanın özünün bəyan etdiyindən xeyli çoxdur. Ermənistan deyir ki, onun cəmi dörd əsgəri həlak olub. Bu adamların cəsədləri haradasa olmalıdır Azərbaycan həmin cəsədləri göstərəcəkmi, vətənə qaytaracaqmı?**

- Erməni silahlı qüvvələrinin itkiləri əsasən Ermənistan ərazisində baş verib. Bu halda, erməni tərəfi öz hərbi itkilərini, mən deyərdim ki, çox "peşəkarlıqla" gizlədir. Onların öz alqoritmi var. Birincisi, onların ön xəttində əsasən muzdlular - Suriyadan və başqa ölkələrdən olan ermənilər dislokasiya edilib. İkincisi, təcrübə göstərir ki, 10-15 gündən sonra erməni tərəfi, məsələn, belə bəyanatlar edir ki, bədbəxt hadisələr, avtomobil qəzaları baş verib və əsgərlər həlak olub.

Buna görə də biz gözləyirik ki, tezliklə ermənilər tərəfindən belə bir informasiya yayılacaq. Bu sual erməni ictimaiyyətinə, erməni jurnalistlərə, bütövlükdə erməni xalqına aiddir. Baxın, bu hərbi avantüra, bu siyasət nəticəsində sizin uşaqlarınız həlak olub. Bu hərbi avantüraya görə Ermənistanın hərbi-siyasi rəhbərliyi məsuliyyət daşıyır. Biz isə, Azərbaycan cəmiyyətinə həmişə tam informasiya veririk.

## "Azərbaycan məsələnin mahiyyəti üzrə danışıqlara sadiqdir"

**- Bəlkə Moskvanın, bəlkə də ATƏT-in vasitəçiliyi ilə Ermənistanla yeni danışıqları nə vaxt gözləyirsiniz?**

- Gəlin, həmsədrləri gözləyək. Onlar da vəziyyəti ümumən təhlil etməli, o cümlədən öz işlərinin effektivliyinə baxmalı və konkret fəaliyyət planları təqdim etməlidirlər. O cümlədən, münaqişənin nizamlanması üzrə növbəti addımlar barədə konkret təkliflər verməlidirlər. Bir daha bəyan etmək istərdim ki, Azərbaycan ATƏT-in Minsk qrupu çərçivəsində məsələnin mahiyyəti üzrə danışıqlara sadiqdir.

**- Əgər siz Minsk qrupunun işindən narazısınızsa, orada güclü və zəif oyunçular varmı? Hər halda, bir neçə həmsədr var. Siz Rusiyanın, Fransanın, ABŞ-ın işini ayrı-ayrılıqda necə qiymətləndirirsiniz?**

-Mən onların işini ayrı-ayrılıqda qiymətləndirmək istəmirəm. Bu, etikadan kənar və qeyri-peşəkar hərəkət olardı. Həmsədr ölkələr BMT Təhlükəsizlik Şurasının mandatı əsasında bu məsuliyyəti öz üzərlərinə birlikdə götürüblər. Ona görə də bu prosesi bütünlükdə qiymətləndirmək olar. Ümidvarıq ki, bir məsələdə həmsədrlər də bizimlə razılaşarlar ki, danışıqlar prosesində hələlik heç bir konkret irəliləyiş yoxdur.

Azərbaycanın işğal edilmiş əraziləri hələ işğal altında qalır və qaçqınlar öz evlərinə qayıtmayıblar.

Bununla bərabər Azərbaycanın işğal edilmiş ərazilərinə (ermənilərin) qeyri-qanuni köçürülməsi davam edir, digər qanunsuz hərəkətlər edilir.

**- "Əl-Cəzirə" telekanalında nazir Mnatsakanyan (Ermənistan XİN rəhbəri Zöhrab Mnatsakanyan - "C") ilə debatları Məmmədyarov yox, siz aparırdınız. O vaxt bu müəyyən mənada vaxtsız təsir bağışlayırdı...**

- Bu, tamamilə təsadüfən olmuşdu. Mən heç bilmirdim ki, Mnatsakanyan orada olacaq. Siz artıq bilirsiniz ki, mən təbiətən jurnalistlər üçün çox açıq adamam və onların işini çox yüksək qiymətləndirirəm. "Əl-Cəzirə" telekanalından mənə müraciət etdilər və dedilər ki, mənimlə müsahibə təşkil etmək istəyirlər. Mən razılaşdım. Veriliş vaxtı onlar bildirdilər ki, Ermənistan tərəfdən də kimsə olacaq. Mən dedim qoy olsun. Onlar hətta qeyd etdilər ki, bu bir qadın olacaq. Mən cavab verdim lap yaxşı mənim üçün o qədər də əhəmiyyəti yoxdur. Lakin proqramın gedişində gördüm ki, orada ermənilər tərəfindən məhz Ermənistanın xarici işlər naziri Mnatsakanyan iştirak edir.

**- Bilirsiniz bunu nəyə görə deyirəm? Elə bir dövr olacaqmı ki, yeni nazir işin içərisinə daxil olsun və danışıqlara nazir yox, siz gedəsiniz?**

İndiki məqamda bu sualınızı şərh edə bilmərəm. Ona görə ki, xarici işlər naziri var. Onun öz vəzifələri, öz səlahiyyətləri var. Təbii ki, cənab Prezident öz müvafiq tapşırıqlarını verib.

**- Deməli, siz indi həmsədrlərdən danışıqların bərpası barədə təkliflər gözləyirsiniz?**

- Siz haqlısınız. Azərbaycan danışıqlar prosesinin tərəfdarıdır. Biz Azərbaycan ərazilərinin işğaldan azad olunmasının və azərbaycanlı qaçqınların öz evlərinə qayıtmasının təmin edilməsi məqsədilə konkret danışıqlar prosesinin davam etdirilməsi barədə həmsədrlərdən konkret təkliflər gözləyirik.

# Azərbaycanın bir qrup ictimai-siyasi, elm və mədəniyyət xadimi Rusiyanın "Birinci" telekanalının baş direktoruna müraciət ünvanlayıb

**Azərbaycanın bir qrup tanınmış ictimai-siyasi, elm və mədəniyyət xadimi, dini icmaların rəhbərləri, media nümayəndələri Rusiyanın "Birinci" telekanalının baş direktoru Konstantin Ernstə müraciət ünvanlayıblar. Müraciətdə telekanalın "Vremya pokajet" proqramının 20 iyul tarixli buraxılışında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonu istiqamətində törətdiyi növbəti təxribatdan sonra baş vermiş hadisələrin mahiyyətini təhrif edən bir sıra təhrikçi bəyanatlarla bağlı narahatlıq ifadə olunur. AZƏRTAC müraciəti təqdim edir.**

Hörmətli Konstantin Lvoviç!

Bu müraciətin yazılmasına əsas "Vremya pokajet" proqramının 2020-ci il 20 iyul tarixli buraxılışı olub. Həmin buraxılışda istər bütövlükdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin, istərsə də Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının Tovuz rayonu istiqamətində törətdiyi növbəti təxribatdan sonra baş vermiş hadisələrin mahiyyətini təhrif edən bir sıra təhrikçi bəyanatlar səslənib.

Yeri gəlmişkən, belə bir müraciət üçün bundan əvvəl də kifayət qədər səbəb var idi. Lakin hər şey haqqında ardıcıl olaraq bəhs edəcəyik.

Qeyd edilən 20 iyul buraxılışında ("Birinci" kanalın saytında bu fraqment "Ərik müharibəsi" adlandırılıb) jurnalist etikasının qərəzsizlik, vicdanlılıq və sosial məsuliyyət kimi əsas prinsipləri pozulmaqla bərabər, həm də Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında münasibətlərə ziyan vurmaq məqsədilə ictimai rəyi manipulyasiya etmək üçün kobud cəhd göstərilib.

Verilişin aparıcıları Artyom Şeyninin və Anatoli Kuziçevin təhrikçi davranışı, eləcə də ermənipərəst qüvvələrin xeyrinə aşkar meyil göstərən qondarma "ekspertlər"in seçilməsi bizim xalqlarımız arasında münasibətlərə birbaşa meydan oxumaqdır, Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığa zərər vurur və bizim dost dövlətlərimizin mənafelərinə uyğun deyil.

Prezidentlər İlham Əliyev və Vladimir Putin xalqlarımız arasında münasibətlərin yüksək səviyyədə olduğunu dəfələrlə vurğulayıblar və məhz bu səbəbdən "Birinci" kanalın aparıcılarının bu qədər kəskin anti-Azərbaycan mövqeyi Azərbaycan ictimaiyyətində heyrət və hiddət doğurur.

Yeri gəlmişkən, aparıcılar Şeynin və Kuziçev, deyəsən, özlərinin ermənipərəst rəğbətlərini gizlətməyi heç fikirlərinə də gətirmirlər.

Bu sözlərin əsassız olmadığını sübut etmək üçün bir neçə əyani misal gətirək. Əgər siz 20 iyul tarixli proqrama yenidən baxsanız, çox maraqlı bir mənzərəni görərsiniz. Verilişin demək olar ki, bütün birinci yarısında Şeynin və Kuziçev tamaşaçıda belə bir aldadıcı təsəvvür formalaşdırmağa çalışırdılar ki, "Fud Siti" bazarındakı insident əsla Azərbaycanın Tovuz rayonunda baş vermiş faciəli hadisələr üzündən bu ticarət obyektinin rəhbərlərinin keçirə biləcəyi stresin və ya emosiyaların nəticəsi deyil. Əksinə, onlar bu insidenti "münaqişəni Cənubi Qafqazdan Moskvaya keçirmək üçün qəsdən göstərilən cəhd" kimi təqdim edirdilər.

Sözlərinin "inandırıcı" olması üçün ekranda iri planla əzilmiş əriklər nümayiş etdirilir, aparıcılar isə bu halda daha yaxşı tətbiq edilməyə layiq olan inadkarlıqla eyni sualı verirdilər: "Bəs indi moskvalılar bu əriklərsiz necə yaşayacaqlar?" Sanki bunlar planetdə sonuncu əriklər imiş.

"Ərik farsı" o qədər çılğın müzakirə edilirdi ki, məsələnin mahiyyətini bilməyən tamaşaçı düşünə bilərdi, guya, iki qonşu xalq arasında münaqişəyə səbəb məhz bu cənub meyvəsi olub.

Sanki 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərinin dinc əhalisinə qarşı vəhşicəsinə soyqırımı olmayıb.

Yaxud 2011-ci ildə içərisinə partladıcı maddə doldurulmuş və ermənilər tərəfindən çaya buraxılmış oyuncaq itin partlaması nəticəsində 13 yaşlı Aygün Şahmalıyevanın (yeri gəlmişkən, o, valideynləri ilə bərabər Sankt-Peterburqdan qohumlarına qonaq gəlmişdi) ölümü baş verməyib.

Və ya Füzuli rayonunun Alxanlı kəndinin erməni qoşunları tərəfindən minaatanlardan və qumbaraatanlardan atəşə tutulması nəticəsində ikiyaşlı Zəhra Quliyeva nənəsi ilə bərabər həlak olmayıb.

Lakin bütün bunlar olub. Həmçinin BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə və beynəlxalq təşkilatların çoxsaylı başqa qərarlarına, - onların sadalanması elə bir neçə səhifə tutardı, - rəğmən Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin və ona bitişik yeddi rayonun ərazisini bu günə qədər zorla əldə saxlayan erməni işğalçı qüvvələrinin bir çox başqa cinayətləri də olub.

Buna baxmayaraq, sizin proqramın aparıcıları "Fud Siti" bazarında baş vermiş insidentin səbəblərini axtarmaq əvəzinə, yalnız onun nəticələri ilə maraqlanırdılar.

Erməniləri "ərik müharibəsi"nin qurbanları kimi təqdim etmək cəhdləri, həmçinin Şeyninin ulu babasının Bakıda öldürülməsi barədə sözarası işlətdiyi ifadə ən azından yersiz görünürdü. Təbii ki, bu halda o, auditoriyaya heç bir təfsilat təqdim etmədi. Görünür, müəmmalılıq "Azərbaycandan olan qatillər" barəsində əhvalatı daha çox inandırıcı göstərməli idi.

Bu məqamda dəvət edilmiş ekspertlər üzərində dayanmaq istərdik.

Sarkis Saturyan adlı birisini ayrıca xatırlamağa dəyər. "Birinci" kanal onu "İ.A Realist"in baş redaktoru kimi təqdim etdi (həqiqətdə o, Rusiyada qeydiyyatda olan ultratəhrikçi erməni nəşri "İ.A Reqnum"un şərhçisi kimi daha çox məşhurdur).

Cəfakeş obrazında olan Saturyan israrla sübut edirdi ki, "ərik terroru" bilavasitə Bakıdan əlaqələndirilən aksiyadır. Görünür, bu halda o, Göbbelsin "Yalan nə qədər dəhşətlidirsə, insanlar ona bir o qədər həvəslə inanırlar" prinsipini rəhbər tuturdu.

Deyəsən, "Birinci" kanalın efirində belə yalançı patriotların görünməsi pis ənənəyə çevrilib.

Bundan bir neçə gün əvvəl - iyulun 15-də elə həmin verilişin başqa buraxılışı çərçivəsində Sarkis Saturyan Tovuzda baş vermiş hadisələri İstanbulda müqəddəs Sofiya məbədi məsələsi ilə, Ərdoğanın siyasəti və "Dağlıq Qarabağı və Azərbaycanı yenidən yaradılmış Osmanlı İmperiyasının tərkibinə daxil etmək planı" ilə qarışdırırdı. Belə fantaziyaya yalnız "qibtə etmək" olar - hətta neoosmanizm ideyalarının ən sədaqətli tərəfdarları da belə möhtəşəm ideyalar səsləndirməyib.

Lakin Saturyan tək deyildi - birinci skripka rolunu RF Dövlət Dumasının deputatı, özünün ermənipərəst mövqeyi ilə tanınan Konstantin Zatulin ifa edir, jurnalist Maksim Yusin isə onun dediklərini təsdiqləyirdi.

Zatulinin KTMT-ni Ermənistanı müdafiə edən hərəkətlərə sövq etmək üçün necə canfəşanlıq göstərməsi təhrikçilər üçün müntəxəbata daxil edilməyə layiqdir. Bununla belə, o, bir sadə suala cavab vermədi: Tovuzda eskalasiya Azərbaycanın nəyinə lazım idi, axı, əks-terror əməliyyatını ermənilər tərəfindən işğal edilmiş Dağlıq Qarabağda başlamaq daha məntiqli olardı, çünki BMT Nizamnaməsi buna imkan verir.

Zatulinin susmasını çox sadə izah etmək olar.

Ermənistan yeganə ölkədir ki, məhz Tovuzda, Azərbaycan ilə sərhəddə toqquşma onun üçün sərfəlidir, çünki bu halda nəzəri baxımdan Rusiya, guya, təcavüzə məruz qalmış KTMT üzrə tərəfdaşının müdafiəsinə qalxa bilər.

Buna baxmayaraq, KTMT-nin təmkinli reaksiyası, həmçinin Rusiyanın rəsmi strukturlarının ölçülüb-biçilmiş mövqeyi onu göstərir ki, ermənilərin planı baş tutmayıb - Moskvada dövlətlər arasında münaqişənin növbəti dəfə kəskinləşməsinin kimin və hansı məqsədlə düşündüyünü çox gözəl anlayırlar.

Bu baxımdan, "Birinci" kanalın populyar şousunda iki dost dövlət arasında münasibətlərə necə məqsədyönlü şəkildə ziyan vurulmasını müşahidə etmək çox təəccüblüdür.

Proqramın müəllifləri bu məqsədə çatmaq üçün təkcə şübhəli ekspertlərin deyil, həm də problemin mahiyyətini qəsdən təhrif edən nadürüst jurnalistlərin xidmətlərindən istifadə edirlər.

Belə ki, 20 iyul buraxılışında hərbi müxbir Semyon Peqov "Tavuş" kəndinin adı yazılmış lövhənin altında (sərhədin ermənilər tərəfində) dayanaraq "hər gün artilleriya və pilotsuz uçuş aparatlarının atəşlərindən öz evlərinin zirzəmilərində gizlənən" sakinlər barədə danışırdı. O, guya, "atəşə tutulmuş uşaq bağçası və dinc evlər" barədə də danışdı... Lakin bu müxbir öz sözlərini sübut etmək üçün heç bir kadr təqdim etmədi. Sanki o, televiziya efirində deyil, radio efirində çıxış edirdi.

Bu halda cənab Peqov reportajda nə üçün Azərbaycan tərəfinin mövqeyinə toxunulmaması barədə sualın cavabında səmimi olmadı. Onun sözlərinə görə, "o, azərbaycanlılara söz verə bilərdi, lakin Dağlıq Qarabağa səfər etdiyinə görə onu bu ölkəyə buraxmırlar".

Şeynin-Kuziçev dueti bu bəyanata çox emosional reaksiya verdi, dəfələrlə təkrar etdilər ki, bu, biabırçılıqdır, çünki "azərbaycanlılar özləri bu adamın obyektiv reportaj hazırlamasına imkan vermirlər". Bu sözlərdə həqiqətdən əsər-əlamət yoxdur. Onlar yalnız tamaşaçını yalan məlumatla çaşdırmağa yönəliblər.

Cənab Ernst, məgər siz Rusiyanın ən böyük telekanalının rəhbəri kimi, bilmirsiniz ki, Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə səfər edilməsi sonradan Azərbaycana səfərlər etməyə heç bir əngəl yaratmır, o şərtlə ki, səfərdən əvvəl bu regiona getmək üçün Azərbaycan Respublikası Xarici İşlər Nazirliyindən icazə alınmış olsun.

Bu prosedur barədə Artyom Şeyninin də məlumatlandırılması pis olmazdı, onun sözlərinə görə, o da Azərbaycana gedə bilmir, çünki keçmişdə bizim respublikanın qüvvədə olan qanunlarına riayət etmədən Dağlıq Qarabağa getməyə macal tapıb.

Üstəlik, nəzərinizə çatdırmaq istərdik ki, Azərbaycan XİN-in qara siyahısına düşmüş şəxslərin həmin siyahıdan çıxarılması üçün xüsusi prosedur var - xarici siyasət idarəsinə müraciət etmək, Azərbaycanın ərazi bütövlüyünü tanımaq və gələcəkdə qüvvədə olan qanunları pozmaqla işğal edilmiş ərazilərə səfərlər etməməyi vəd etmək lazımdır.

Öz əməkdaşlarınıza və tərəfdaşlarınıza tövsiyə edin ki, bu qaydalara riayət etsinlər. Xüsusən Azərbaycan Respublikasının ərazi bütövlüyünü və suverenliyini tanıyan Rusiya hökumətinin mövqeyini nəzərə alsınlar.

Hörmətli Konstantin Lvoviç!

Azərbaycan ictimaiyyəti adından sizə "Vremya pokajet" verilişinin müəlliflər kollektivinin və aparıcılarının bu cür təhrikçi fəaliyyətindən narahatlığımızı və hiddətləndiyimizi bildiririk.

Təəssüflə qeyd etməyə məcburuq ki, bu cür provokasiyalar əvvəllər də olub - 2016-cı il aprelin əvvəlində Dağlıq Qarabağdakı hadisələr fonunda Azərbaycan Ordusu erməni silahlı qüvvələrinin növbəti provokasiyasını dəf edəndə elə həmin "Vremya pokajet" verilişinin efirində yalançı "Rusiya patriotları" Gevorq Mirzoyan, Semyon Baqdasarov və məşhur provokator Sergey Kurginyan qalmaqal salırdılar.

Gördüyümüz kimi, dekorasiyalar və ifaçılar dəyişir, amma verilişin düşmən mahiyyəti dəyişməz qalır.

Biz dövlətlərimizin ikitərəfli münasibətlərinə zərər vuran bu qüsurlu praktikaya son qoyulmasını tələb edirik və ümidvarıq ki, sizin şəxsən müdaxiləniz "Birinci" kanalın efirində Azərbaycan Respublikasının və onun xalqının ünvanına bu cür iyrənc insinuasiyalara son qoyacaq.

Bu məktubun sonunda "Vremya pokajet" verilişində səslənmiş yalan bəyanatlara cavab olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu ilin oktyabrında "Valday" Forumundan dediyi sözləri sitat gətirməyi münasib hesab edirik: "Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Bu, sizin televiziya efirində nə səslənməsindən asılı olmayaraq danılmaz həqiqətdir.

*Hörmətlə,*

**1. Fərhad Bədəlbəyli**
Azərbaycan Respublikasının Xalq artisti, SSRİ-nin Xalq artisti, Bakı Musiqi Akademiyasının rektoru

**2. Elçin Əfəndiyev**
Azərbaycan Respublikasının Xalq yazıçısı

**3. Nizami Səfərov**
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan-Rusiya Rarlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri

**4. Mixail Zabelin**
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan-Rusiya Rarlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, Azərbaycan Rus İcmasının sədri

**5. Əhliman Əmiraslanov**
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Rusiya Federasiyası Elmlər Akademiyasının xarici üzvü, Azərbaycan-Rusiya Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü

**6. Çingiz Abdullayev**
Azərbaycan Respublikasının Xalq yazıçısı

**7. Nərgiz Paşayeva**
M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru

**8. Nailə Vəlixanlı**
AMEA Milli Azərbaycan Tarixi Muzeyinin direktoru

**9. Anar Rzayev**
Azərbaycan Respublikasının Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri

**10. Nizami Cəfərov**
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

**11. Aleksandr Şarovski**
Azərbaycan Respublikasının Xalq artisti, Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının baş rejissoru

**12. Fərhad Xəlilov**
Azərbaycan Respublikasının Xalq rəssamı, Azərbaycan Rəssamlar İttifaqının sədri

**13. Tahir Salahov**
Azərbaycan Respublikasının Xalq rəssamı, SSRİ-nin Xalq rəssamı

**14. Kamal Abdulla**
Azərbaycan Dillər Universitetinin rektoru

**15. Ziyad Səmədzadə**
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan-Rusiya Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü

**16. Səbinə Əliyeva**
Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

**17. Firəngiz Əlizadə**
Azərbaycan Respublikasının Xalq artisti, Azərbaycan Bəstəkarlar İttifaqının sədri

**18. Ömər Eldarov**
Azərbaycan Respublikasının Xalq rəssamı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, SSRİ Dövlət mükafatı laureatı

**19. Nadejda İsmayılova**
Azərbaycan Respublikasının Əməkdar jurnalisti

**20. Murad Adıgözəl-zadə**
Azərbaycan Respublikasının Xalq artisti, Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru

**21. Anna İbrahimbəyova**
Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin direktoru

**22. Emin Hacıyev**
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan-Rusiya Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü

**23. Urxan Ələkbərov**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru

**24. Yalçın Adıgözəlov**
Azərbaycan Respublikasının Xalq artisti, dirijor

**25. Aslan Aslanov**
Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC-ın İdarə Heyətinin sədri

**26. Eldar Quliyev**
Azərbaycan Respublikasının Xalq artisti, kinorejissor

**27. Əziz Əliyev**
İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru

**28. Elbay Qasımzadə**
Azərbaycan Respublikasının Əməkdar memarı, Azərbaycan Memarlar İttifaqının sədri

**29. Aleksandr İşein**
Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu

**30. Kamran İmanov**
Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri

**31. Şneor Seqal**
Azərbaycan Avropa yəhudiləri icmasının baş ravvini, "Xabad-Or-Avner" yəhudi təhsil kompleksinin direktoru

**32. Siyavuş Kərimi**
Azərbaycan Respublikasının Xalq artisti, Azərbaycan Milli Konservatoriyasının rektoru

**33. Milix Yevdayev**
Dağ yəhudiləri dini icmasının rəhbəri

**34. Vasili Novoseltsev**
İsmayıllı rayonunun İvanovka kəndindəki N.Nikitin adına kolxozun sədri

**35. Rəhman Hacıyev**
"Bakinski raboçi" qəzetinin baş redaktoru

**36. Fəxrəddin Manafov**
Azərbaycan Respublikasının Xalq artisti

**37. Natiq Rəsulzadə**
Azərbaycan Respublikasının Xalq yazıçısı

**38. Oleq Əmirbəyov**
Aktyor, teleaparıcı

# Azərbaycanın Baş prokuroru xarici ölkələrdəki həmkarlarına müraciət edib

Məlum olduğu kimi, son bir həftə ərzində Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə qarşı, eləcə də Ermənistan silahlı qüvvələrinin bu il iyulun 12-dən etibarən Azərbaycan və Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində başlatdığı hərbi təxribatla bağlı xarici ölkələrdəki azərbaycanlı icmanın üzvləri tərəfindən keçirilən aksiyalar zamanı dinc nümayişçilərə qarşı radikal erməni qüvvələri tərəfindən təxribat xarakterli qanunsuz hərəkətlər törədilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin hadisələrlə əlaqədar Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Amerika Birləşmiş Ştatlarının Baş prokuroru Vilyam Barr, Kaliforniya ştatının Baş prokuroru Xavier Beccerra, Fransa Respublikasının Paris şəhərinin Baş prokuroru Remi Heitz və Belçika Krallığının Brüssel şəhərinin Baş prokuroru Johan Delmulleye həm birbaşa, həm də diplomatik kanallarla rəsmi müraciət edib.

Müraciətlərdə qeyd olunub ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünə yönəlmiş təcavüzkar mövqeyi ilə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini icra etməyərək münaqişənin sülh yolu ilə həll olunmasına süni əngəllər törədir, habelə terrorçu siyasətinin təzahürü kimi bu il iyulun 12-də Azərbaycan ilə Ermənistanın sərhədində yerləşən Tovuz rayonunda təxribat törədib, o cümlədən beynəlxalq hüququn əsas norma və prinsiplərinə zidd olaraq mülki dinc əhalinin sıx yaşadığı əraziləri atəşə tutub.

Eyni zamanda göstərilib ki, iyulun 21-də və 22-də erməni icmasının çoxsaylı üzvləri, erməni lobbisinin radikalları, Daşnaksütyun partiyasının üzvləri, habelə beynəlxalq aləmdə terror qrupu kimi tanınan ASALA-nın ideoloji tərəfdaşları və davamçıları Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinə, o cümlədən həmvətənlilərimizə qarşı müxtəlif vandalizm aktları törədiblər. Nəticədə azərbaycanlı dinc nümayişçilər müxtəlif dərəcəli bədən xəsarətləri alıblar.

Baş prokuror diplomatik nümayəndələrimizin və soydaşlarımızın təhlükəsizliklərinin təmin olunmasını xahiş etməklə, baş vermiş hadisələrlə bağlı qeyd edilən ölkələrin hüquq-mühafizə orqanları tərəfindən hərtərəfli, tam və obyektiv araşdırmalar aparılacağına və təqsirkar şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb ediləcəklərinə ümidvar olduğunu bildirib.

# Prezidentin hücum diplomatiyası dünya erməniliyinə böyük zərbə vurur

*Əvvəli 1-ci səh.*

Bütün bunlar, o cümlədən Azərbaycanın Vaşinqtonda yerləşən Səfirliyinin giriş darvazasına ermənilər tərəfindən üzərində Azərbaycan əleyhinə yazıları əks etdirən banerin bağlanması və bunun erməni media, mətbuat vasitələrində nümayiş etdirilməsi göstərir ki, sivil ölkələrdə fəaliyyət göstərsələr belə, erməni diaspor təşkilatları öz hərəkətləri ilə vandal və terrorçu olduqlarını sübut edirlər.

Bu məsələ ilə bağlı Azərbacan Xarici İşlər Nazirliyi bəyanat yayıb. Bəyanatda deyilir: "Fransa, Böyük Britaniya, İsveç, Polşa, Avstraliya, ABŞ, Niderland, Belçikada Azərbaycanın diplomatik nümayəndəliklərinin binalarına, eləcə də bu ölkələrdə dinc yolla fikirlərini ifadə edən azərbaycanlı nümayişçilərə qarşı törədilən erməni təxribatları özündə vandalizm və terror elementlərini ehtiva etməklə və bilərəkdən azərbaycanlı icmaların üzvlərinə, diplomatlara və onların mülklərinə xəsarət yetirmək məqsədini güdməklə cinayət məsuliyyəti doğuran əməllər kimi səciyyələndirilir".

## Dünya saxta iddialara və yalanlara artıq inanmaq istəmir

Xatırladaq ki, Ermənistanın Tovuz istiqamətindəki təxribatından sonra Avropa təşkilatları Ermənistanın son təxribatını açıq şəkildə pisləməsələr də, dünya ictimaiyyətindən Azərbaycanı müdafiə edən reaksiyalar özünü çox gözlətmədi. Dost ölkələrdən gələn bəyanatlarda Ermənistanın işğalçılıq siyasəti pislənildi, torpaqlarımızın azad edilməsi tələb edildi, ölkəmizə dəstək ifadə olundu. Bu sırada Qoşulmama Hərəkətanın, İslam Əməkdaşlıq Təşkilatının, Türk Şurasının Azərbaycanın haqlı mövqeyini dəstəkləmələri xüsusi qeyd edilməlidir. O cümlədən Azərbaycanın müttəfiqi və dostu olan ölkələr də Ermənistana sərt etirazlarını bildirdilər.

Ermənistana vurulan ən böyük diplomatik zərbələrdən biri də ABŞ Konqresində qəbul edilən sənədlər oldu. Məlum olduğu kimi, bir neçə gün əvvəl ABŞ Konqresində erməni diasporunun və ermənipərəst konqresmenlərin Azərbaycan əleyhinə təşviq etdikləri düzəlişlər səsvermə nəticəsində qəbul edilmədi. Ən mühümü isə odur ki, Azərbaycanın dostu olan parlamentarilər tərəfindən təklif olunan Ermənistanın əleyinə olan düzəlişlər qəbul olundu. Bu, ABŞ tarixində Ermənistanın əleyhinə olan düzəlişlərin qəbul olunmasına dair ilk hadisədir.

Bu hadisə erməni lobbisinin və diaspor təşkilatlarının, o cümlədən ermənilərin daha çox məskunlaşdıqları ABŞ-dakı erməni milli komitəsinin çaşqınlığına səbəb olub. Hətta bu işdə ermənipərəst mövqeyi ilə seçilən Qaydalar Haqqında Komitənin sədrinin dəstək göstərməməsi də erməniləri məyus edib. Erməni milli komitəsi diqqəti yanlış məcraya yönəltməyə cəhd etsə də, fakt faktlığında qalır ki, ABŞ Konqresi erməni diasporuna və erməni yalanlarına böyük zərbə vurub. Ermənistanın əleyhinə olan düzəlişlərin qəbul olunması saxta erməni iddialarını alt-üst edib.

## İlham ƏLİYEV: "Milli maraqlar tam təmin edilməlidir"

Azərbaycanın xarici siyasətinin başlıca məqsədlərindən biri ərazi bütövlüyümüzün bərpa olunmasıdır. Ona görə Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması xarici siyasətimiz qarşısında duran vəzifə və tapşırıqlar sırasında prioritet yer tutur. Xarici siyasətimiz qarşısında hücum strategiyasını müəyyən edən Prezident İlham Əliyev həm də erməni yalanlarının ifşa edilməsi və dünya miqyasında yayılması istiqamətində Azərbaycan diplomatları qarşısında ciddi tapşırıqlar qoyub.

Ermənistanın hərbi təcavüzü şəraitində Azərbaycanın ümumi inkişafı və xarici siyasətdə hücum diplomatiyası yüz ildən artıq bir dövr ərzində erməni ideoloqları tərəfindən formalaşdırılan böyük bir xülyanı tamamilə boşa çıxarıb. Məhz Azərbaycan dövlətinin güclənməsi fonunda erməni lobbisinin və diasporunun ölkəmizə qarşı təxribatlarının qarşısı alınır və yalanları ifşa olunur. Ermənilərin sıx cəmləşdiyi ölkələrdə belə Azərbaycan həqiqətlərt siyasi-ictimai dairələrə sirayət edir.

Bu baxımdan son hadisələr həm ermənilərin xarici ölkələrdəki vandalizm aktları, həm Ermənistanın əleyhinə qəbul olunan sənədlər göstərir ki, Prezident İlham Əliyevin hücum diplomatiyası, beynəlxalq miqyasda görülən işlər dünya erməniliyinə böyük zərbələr vurur. Bu günlərdə Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edən Prezident İlham Əliyev bir daha xarici siyasətin əsas prioritetlərini diqqətə çatdırdı. *"Bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, milli maraqlar tam təmin edilməlidir",* - deyə İlham Əliyev bəyan etdi.

Son illərin mənzərəsi göstərir ki, Azərbaycanın xarici siyasəti ilə bağlı prioritetlərin, Prezident İlham Əliyevin müəyyən etdiyi vəzifələrin, diplomatiyada hücum xəttinin həyata keçirilməsi öz müsbət nəticəsini verir. Bu siyasət bundan sonra da sürətlə davam etdiriləcək və saxta erməni iddialarının qarşısı dünyanın hər yerində alınacaq. Çünki bu, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində vacib rol oynayan əsas vəzifələrdən biridir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan nümunə göstərməkdə davam edir

*Əvvəli 1-ci səh.*

İslahatların nəticəsində ölkədə qeyri-neft sektoru inkişaf edib ki, bu da iqtisadi tərəqqinin təmin edilməsində mühüm rol oynayıb. Qeyri-neft sektorunda, xüsusilə qeyri-neft sənayesində istehsalın artması idxalın azalmasına da səbəb olub. Digər tərəfdən, bu sektorda istehsal olunan məhsulların xarici bazara ixracı ölkəyə əlavə valyuta gətirib.

Prezident İlham Əliyev indiki çətin şəraitdə ölkə iqtisadiyyatının problemlərə sinə gərdiyini bildirərək demişdir: "Mən bildirmişəm ki, keçən ay əldə edilmiş nəticələrdə kiçicik də olsa, artım var - 0,2 faiz. Ancaq təxmin edirəm ki, 5 ayın yekunları artıq tənəzzülü əks etdirəcək, belə də oldu. Mənə verilən məlumata görə, ümumi daxili məhsul beş ayda 1,7 faiz aşağı düşüb. Ancaq yenə də bir çox inkişaf etmiş ölkələrlə müqayisədə bizdəki tənəzzül çox kiçik həcmlidir. Bununla parallel olaraq bildirməliyəm ki, sənaye istehsalı bir qədər artıb. Amma qeyri-neft sektorunda sənaye 14 faiz artıb. Kənd təsərrüfatında 3,6 faiz artıb. İnsanların orta əməkhaqqı 740 manata yaxınlaşıb. Bu, təqribən 430 dollardan çoxdur. İnfilyasiya 3 faizdən aşağıdır, proqnozlaşdırılmış səviyyədədir".

Bütün bunlar onu göstərir ki, Prezidentin apardığı sosial-iqtisadi siyasət nəticəsiz qalmamışdır. Məlum olduğu kimi, dünyanın 150-dən çox ölkəsi böhrandan çıxmaq, əhalinin sosial müdafiəsini təmin etmək üçün borc almaqdan ötrü Dünya Bankına müraciət etmişdir. Amma belə bir şəraitdə dünyanın nəhəng maliyyə qurumları Azərbaycana sərmayə qoymaq üçün Prezident İlham Əliyevə müraciət edirlər. Bu isə o deməkdir ki, Azərbaycan etibarlı tərəfdaş olmaqla bərabər, həm də sərmayə üçün münbit şəraiti olan ölkədir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Xalq Ali Baş Komandanın və Ordunun ətrafında yumruq kimi birləşib

# Azərbaycanda erməni təxribatına qarşı milli birlik və həmrəylik nümayişi

**2020-ci ilin İyul döyüşləri Azərbaycan xalqı üçün xalq-iqtidar-ordu birliyinin növbəti təzahürü, cəmiyyətimizin Ali Baş Komandanımıza, Prezidentimizin siyasətinə dərin etimadı, Ordumuzla böyük fəxarət, şəhidlərimizlə yüksək qürur və xalqımızın, dünya Azərbaycanlılarının milli birlik, həmrəylik ruhu ilə yadda qaldı. Düşmən ölkənin təxribatları ilə başlayan İyul döyüşləri Silahlı Qüvvələrimizin Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı üçün təhdid olan istənilən hadisəyə, təxribata, təcavüzə hazırlıqlı olduğunu, Azərbaycan əsgərinin səngərdə, ön cəbhədəki ayıq-sayıqlığını, Azərbaycan xalqının mərdliyini, bütün dünya azərbaycanlılarının milli həmrəyliyini, Azərbaycanın işğalla heç vaxt barışmayacağını və Azərbaycan xalqının öz ərazi bütövlüyünün qorunması və bərpası uğrunda hər zaman gözlənilən müharibəyə hazır olduğunu növbəti dəfə sübut etdi.**

2020-ci il iyul ayının 14-dən 15-nə keçən gecə Bakı şəhərində keçirilən Azərbaycan Ordusuna möhtəşəm dəstək yürüşü həmin iradənin təzahürü idi. İyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmənin təxribatları ilə pozulan atəşkəs rejimi təkcə Silahlı Qüvvələrimizi ayağa qaldırmadı, hadisələrin sonrakı inkişafının göstərdiyi kimi, bütün xalqımızı səfərbər etdi. Cəbhə xəttindən yayılan rəsmi məlumatlar orada vəziyyətin nə qədər gərgin olduğunu göstərirdi.

Yüksəkrütbəli hərbi qulluqçularımız Azərbaycan əsgəri ilə səngərdə, müdafiənin ön xəttində çiyin-çiyinə qəhrəmanlıqla vuruşaraq işğalçı Ermənistanın iyulun 12-dən etibarən sərhəd xəttində törətdiyi təxribatların qarşısını qətiyyətlə aldı və düşmənin xain həmlələrini puç etdi. Düşmən nəinki hədəflədiyi Tovuz yüksəkliklərini ələ keçirməyə, heç bir santimetr də olsun öz postlarından irəli getməyi bacarmadı, əvəzində işğalçının sərhəd boyunca çoxsaylı dayaq məntəqələri, uzunmüddətli atəş nöqtələri, səhra idarəetmə məntəqəsi, hərbi nəqliyyat vasitələri, avtomobil texnikası, düşmənə məxsus kazarma, xeyli sayda canlı qüvvəsi, döyüş texnikası məhv edildi. Hərbi qulluqçularımızın Azərbaycan sərhədinin toxunulmazlığını qətiyyətlə qoruması və düşmənə növbəti dəfə sarsıdıcı zərbələr endirməsi vətəndaşlarımızda və bütün dünya azərbaycanlılarında döyüş və qələbə ruhunu əhəmiyyətli dərəcədə yüksəltdi. Bu ağır döyüşlərdə general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev də daxil olmaqla 12 nəfər hərbi qulluqçumuz qəhrəmancasına şəhid oldular. Azərbaycanın ərazi bütövlüyü uğrunda İyul döyüşlərində qəhrəmancasına şəhid olan hərbi qulluqçularımıza Allahdan rəhmət, ailələrinə, bütün Azərbaycan xalqına səbir diləyirəm. Yaralılarımıza tezliklə sağalıb Vətənin keşiyinə, cəbhədə yoldaşlarının sıralarına dönməyi arzu edirəm.

Onu da qeyd edək ki, bəşəriyyəti təhdid edən COVID-19 pandemiyasına qarşı mübarizə aparılan bir zamanda, qlobal atəşkəs çağırışlarına məhəl qoymadan, qlobal həmrəylik və birliyə ehtiyac olan bu günlərdə düşmən tərəfinin başlatdığı bu döyüşlər onun hansı mənəviyyat daşıyıcısı olduğunu da ortaya qoydu. Buna baxmayaraq, xalqımızın milli birlik və həmrəylik göstərərək ordumuzun, dövlətimizin və Silahlı Qüvvələrimizin Ali Baş Komandanı, Prezident İlham Əliyevin ətrafınfa sıx birləşdiyini bəyan etməsi gözlənilən hadisə idi.

Bölgələrimizdə və Bakı şəhərində insanların axın-axın küçələrə çıxaraq Ordumuza dəstək şüarları səsləndirməsi haqqında yürüşlərin başladığı elə ilk saatlarda xəbər tutdum. Əminəm ki, o dəstək şüarlarını eşidən, o insan selini görən hər bir Azərbaycan vətəndaşı o anda böyük qürur və fərəh hissi keçirirdi. Azərbaycan xalqı mərd xalqdır, tarix boyu öz torpağı və azadlığı uğrunda düşmənlə şərəflə, ləyaqətlə mübarizə aparan xalqdır. Torpaq bizim üçün milli şərəf məsələsidir. Azərbaycan xalqı o gecə Bakı küçələrindəki milli həmrəylik yürüşü ilə bütün dünyaya bir daha öz cəsarətini və milli birliyini, işğal altındakı torpaqlarımızı hər an azad etməyə hazır olduğunu və bir qarış da olsa torpağını düşmənə verməyəcəyini bir daha nümayiş etdirdi.

İndi təsəvvür edin ki, əzəli düşmənimiz Ermənistan Qarabağa aid olmayan və ondan 300 km uzaqda olan Tovuzda Azərbaycan sərhədini pozub və müharibəyə başlayıb. Ölkə təhlükədədir, düşmən strateji əhəmiyyətli yüksəklikləri ələ keçirmək və böyük bir ərazini nəzarətdə saxlamaq niyyətindədir. Ön cəbhədə ayıq-sayıq dayanan qəhrəman hərbçilərimiz nəinki düşmən təxribatının qarşısını mətanətlə alır, hətta onlara sarsıdıcı zərbələr endirir. Bu gün Ali Baş Komandanın əmri olsa, Azərbaycan Ordusu düşmən ərazisinə keçmək və düşməni elə öz ərazisində əzmək gücündədir. İyul döyüşləri Azərbaycan xalqının bu əmrə nə qədər hazır olduğunu bir daha göstərdi. Səngərdə ağır döyüşlər gedən hər gün, hər saat hər bir Azərbaycan vətəndaşı diqqətlə gözləyirdi ki, Ali Baş Komandan bu əmri versin və xalqımızın çoxdanki arzusu gerçəkləşsin. Ordumuzun gücündən, düşmənə verdiyi layiqli cavablardan ruhlanan, ilhamlanan Azərbaycan gəncliyi, vətəndaşlarımız heç kimin göstərişi olmadan, öz təşəbbüsləri ilə əllərində Azərbaycan bayrağı Bakıda, bölgələrimizdə küçələrə axışır, çox keçmir ki, bir-iki saat ərzində bu yürüş böyük bir izdihama çevrilir. Bakı küçələrindəki yürüş boyu hamı bir ağızdan qəhrəman əsgərlərimizə, ordumuza, Ali Baş Komandanımıza dəstək şüarları səsləndirir, polisimiz bu dinc milli həmrəylik-dəstək yürüşünə nəinki mane olmur, əksinə vətəndaşlarımıza qoşularaq dəstək şüarları səsləndirirlər və bu möhtəşəm izdiham Milli Məclis binasının qarşısına gəlir. Sosial şəbəkələrdə yürüş canlı yayımlanırdı, hamımız izləyirdik, Milli Məclisin önündə bir insan seli var idi və xalqımızın bu milli birlik nümayişi hər birimizi qürurlandırırdı. Orada olan minlərlə insan ordumuza dəstək ifadə edərək onları daha da irəliyə getməyə, düşmən postlarını məhv etməyə, cəbhəyə gedib ərazi bütövlüyümüz və işğal altındakı torpaqlarımızı azad etmək üçün səfərbərlik elan olunması haqqında istəklərini bildirirdilər. Belə bir şəraitdə bu izdihamla yumruq kimi birləşmək, bir olmaq əvəzinə təəssüf ki, bəlli qüvvələrə xidmət edən bir qrup təxribatçı bu xoşməramlı xalq yürüşünü tamamilə başqa istiqamətə yönəltməyə cəhd etdilər. İnsan hələ də inana bilmir ki, içimizdə bu dərəcədə şüursuz, milli ruhdan uzaq tör-töküntülər var. Onlar bu təxribatları ilə nəyə nail oldular? Birmənalı olaraq heç nəyə, yalnız özlərini biabır və rüsvay etdilər, onların bu dözülməz hərəkətləri bütün Azərbaycan xalqının, ictimaiyyətin haqlı qınağına və nifrətinə tuş gəldi.

Hesab edirəm ki, Bakı şəhərində Azərbaycan Ordusuna dəstək yürüşü və təqdir olunası həmin tədbir zamanı dövlətçiliyə zərbə vurmağa, milli birliyi pozmağa, qarşıdurma yaradacaq situasiyalara yol açmağa xidmət edəcək o cəhdlərə Yeni Azərbaycan Partiyasının yaydığı bəyanatda çox düzgün, dəqiq və sərrast qiymət verilib. Bəyanatın ruhu və hadisələrə verilən qiyməti isə partiyamızın yüz minlərlə üzvü kimi, mən də bəyənir və müdafiə edirəm.

Fərəhləndirici haldır ki, bu çətin, mürəkkəb bir zamanda, Vətənimizin ağır günlərində respublikamızda fəaliyyət göstərən müxtəlif siyasi partiyalar və təşkilatlar da yüksək siyasi mədəniyyət nümayiş etdirərək, bu prosesdən geri qalmamış, müstəqillik tariximizdə ilk dəfə olaraq siyasi proqram və platformalardan asılı olmayaraq, siyasi baxışlarını bir yana qoyaraq, milli həmrəylik göstərərək Ali Baş Komandanın yanında olduqlarını bəyan etmişlər.

Azərbaycanda fəaliyyət göstərən 43 siyasi partiyanın cəbhədəki son təxribatlar ilə əlaqədar yaydığı milli həmrəylik bəyanatı Azərbaycan xalqının birliyinin, Vətən, ümummilli, ümumxalq dövlətçilik maraqlarının siyasi, partiya, şəxsi maraqlarından üstün olmasının əyani nümayişidir. Məhz bu prinsiplər əsl demokratik, sivil cəmiyyətlərə xas olan prinsiplərdir - xalqın, dövlətin, Vətənin maraqları hər şeydən üstün olmalıdır.

Mən bir daha bilərəkdən və ya bilməyərəkdən bu təxribata alət olanlara üzümü tutub demək istəyirəm: Ay gənclər! Vətən təhlükədə olanda iqtidar, müxalifət bölgüsü ola bilməz. Hamımız bir millət, bir xalqın nümayəndələriyik, bu məqamda yumruq kimi bir olmalı, milli birlik, həmrəylik nümayiş etdirməli, bir nöqtəyə vurmağı bacarmalıyıq. Vətənə, xalqa, orduya müxalif olmaq olmaz. Hər birimiz Ali Baş Komandanımızın, Ordumuzun yanında olmalıyıq. Əli silah tutanlar ön cəbhədə, digərləri arxa cəbhədə mümkün olan bütün sahələrdə, xüsusilə informasiya müharibəsində, beynəlxalq tribunalarda erməni yalanlarını, təxribatlarını, döyüş zamanı mülki obyektləri, dinc sakinləri hədəf alan düşmənin terrorçu xislətini ifşa etməli və hər birimiz öz işimizin müsəlləh əsgəri kimi əzəli düşmənlərimizlə mübarizə aparıb onlara sarsıdıcı zərbələr endirməliyik. Bizim vahid bir amalımız var - düşmən tapdağı altındakı torpaqlarımızı geri qaytarmaq, Dağlıq Qarabağı, Azərbaycanın qəlbi olan doğma Qarabağımızı azad etmək, millətimizin şərəfini ucaldaraq işğal ləkəsini xalqımızın üstündən silmək. Bu hər birimizin müqəddəs vətəndaşlıq və vicdan borcudur. Vətən uğrunda döyüşüb bu yolda şəhid olmaqdan uca və şərəfli ölüm varmı? Biz Ali Baş Komandanımıza inanırıq, bilirik ki, yaxın zamanlarda Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və işğaldan azad olunmuş bütün torpaqlarımız üzərində üçrəngli bayrağımız qururla dalğalanacaqdır. *"Qarabağ mütləq azad ediləcək. Onu azad edən komandan nə gözəl komandandır; o ordu nə gözəl ordudur!" (Məhəmməd Peyğəmbərin (s.ə.v.) Hədisi-şərifində İstanbul haqqında buyurduqlarına iqtibasən).* Bu Böyük Qələbə günü, bu şanlı zəfərlər uzaqda deyil. Bir kərə yüksələn bayrağımız bir daha enməyəcəkdir.

İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında cənab Prezidentin hamı üçün ibrət olan nitqindəki bir məqama diqqət çəkməyi lazım bilirəm: *"Həyat dəyişir və yeni çağırışlar üzə çıxır. Belə olan halda, əlbəttə ki, biz öz planlarımıza da düzəlişlər etməliyik və edirik. Bu düzəlişlərin əsas məqsədi ölkəmizin uğurlu inkişafını sürətləndirmək, bunu təmin etməkdir".* Təbii ki, bu müdrik sözlər, gələcək qarşısında məsuliyyət hiss edən bir Liderin düşüncələridir və hesab edirəm ki, bütövlükdə, cəmiyyətimiz, xüsusən gənclərimiz ölkə rəhbərimizin gələcəyə hədəflənən bu fikirlərinin arxasında nələrin dayandığına diqqət çəkməlidirlər. Onu da qeyd edək ki, dövlət başçısı, partiyamızın Sədri iyulun 14-dən 15-nə keçən gecəki yürüşün mahiyyətini dəyişmək, ona kölgə salmaq istəyən qüvvələrə, onların 28 il əvvəlki situasiyaların yaranmasında göstərdikləri "xidmətləri" bir daha qeyd etməklə, yenə də düşmən dəyirmanına su tökdüklərini xatırlatdı. Mən istərdim ki, möhtərəm Prezidentimizin bu sözlərini bir daha Azərbaycan ictimaiyyətinə çatdırım: *"Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib və bilməz. Torpaqların itirilməsi bir daha demək istəyirəm ki, o vaxt hakimiyyətə göz dikmiş Azərbaycan Xalq Cəbhəsinin və onun başında dayananların xəyanətidir. O vaxt Azərbaycanda vəziyyəti qarışdırmaq, hərc-mərclik salmaq, hakimiyyəti yıxmaq üçün onlar Qarabağ bölgəsində xəyanət etmişlər. O vaxt o bölgədə fəaliyyət göstərən Azərbaycan Xalq Cəbhəsinin batalyonları və onların komandirlərinin bir neçəsi xəyanət etmişlər. Baxmayaraq ki, onların tərkibində cəsur və Vətənə bağlı insanlar döyüşürdülər, öz canlarını qurban vermişlər. Ancaq o vaxt Azərbaycan Xalq Cəbhəsinin başında dayananlar nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək üçün torpaqları satdılar və beləliklə, ovaxtkı hakimiyyəti yıxa bildilər. O vaxt bizim torpaqlarımızın itirilməsi bilavasitə Azərbaycan Xalq Cəbhəsinin xəyanətkar fəaliyyəti ilə bağlıdır. Ona görə Ermənistan hər zaman bu imkanlardan faydalanıb. İndi də özləri gizlətmirlər ki, o vaxt Azərbaycanda xaos, anarxiya idi, onlar bundan istifadə edib torpaqlarımızı zəbt etdilər".*

İndi həmin hava ilə yaşayanlar hər məqamda ölkəmizdəki ictimai-siyasi stabilliyi və əmin-amanlığı pozmağa, aparılan əsaslı islahatlara, sürətli inkişafa, Azərbaycan xalqının rifahının yüksəlməsinə, itirilmiş torpaqların qaytarılmasına istiqamətlənən dövlət siyasətinin ardıcıl uğurlarına kölgə salmağa çalışırlar. Onlar təbii ki, "bulanıq su axtarışındadırlar", lakin axtardıqlarını Azərbaycanda tapa bilməyəcəklər. Elə buna görə də Azərbaycan üçün pis olan hər şey onlar üçün fürsət kimi görünür. Bunun üçün də yığışdıqları hər məclisdə neftin bazar qiymətlərinin 14 dollara düşməsini "ən gözəl xəbər" kimi qarşılayırdılar. Belə bir mənəviyyatla yaşayan insanlara hansı adın verilməli olduğunu isə xalqımız yaxşı bilir. Xalqımız onu da yaxşı bilir ki, bugünkü Azərbaycan 90-cı illərin Azərbaycanı deyil. Bu gün yenə cəmiyyətdə bölücülük fəaliyyəti ilə məşğul olmağa cəhd edən dağıdıcı radikalların hakimiyyətdə olduğu dövrdə - Azərbaycanın 1992-1993-cü ilin birinci yarısında necə acınacaqlı vəziyyətdə olduğu orta və yaşlı nəslin yaxşı yadındadır. Tamamilə dağılmaq, məhv olmaq, parçalanmaq ərəfəsində olan Azərbaycanda 1993-cü ilin iyununda xalqın təkidli tələbi və dəstəyi ilə rəhbərliyə gələn Ulu Öndər Heydər Əliyev böyük xilaskarlıq missiyasını yerinə yetirərək Azərbaycanın müstəqilliyini qorumaq və möhkəmləndirmək üçün 10 il ərzində mümkün olan hər şeyi etdi, ölkənin istisnasız olaraq ictimai-siyasi, sosial-iqtisadi həyatının bütün sahələrində gələcək dinamik inkişaf üçün real baza formalaşdırdı.

Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən başlayaraq həyata keçirilən uğurlu dövlət siyasəti nəticəsində ölkəmiz malik olduğu resurslardan, geosiyasi və geoiqtisadi üstünlüklərdən bacarıqla istifadə edərək, dünya iqtisadiyyatına və dünya birliyinə milli maraqların prioritetliyi əsasında ən rasional şəkildə inteqrasiya olundu, hüquqi dövlət quruculuğuna və vətəndaş cəmiyyətinin formalaşmasına nail oldu, sosialyönümlü bazar iqtisadiyyatı modelinə keçidi tam başa çatdırdı. Prezident İlham Əliyev tərəfindən aparılan düşünülmüş, qətiyyətli, uzaqgörən, çevik və praqmatik siyasət nəticəsində ölkəmizin milli maraqları və təhlükəsizliyi tam təmin edildi, ictimai-siyasi sabitlik bərqərar olundu, iqtisadiyyatın dinamik inkişafına nail olundu. Bu dövr ərzində ölkəmizdə müasir tələblərə, minilliyin çağırışlarına, qarşıya qoyulan strateji vəzifələrə cavab verən səmərəli dövlət idarəçiliyi sistemi yaradıldı və onun beynəlxalq nüfuzu, siyasi çəkisi xeyli yüksəldi. Son illərdə dövlət müstəqilliyimiz daha da möhkəmlənmiş, sözün tam mənasında əbədi və dönməz xarakter almışdır. Bu gün Azərbaycan həm iqtisadi, həm də siyasi cəhətdən tam müstəqil bir dövlətdir və heç kimdən asılı olmayaraq öz milli maraqlarına uyğun siyasət həyata keçirmək iqtidarındadır. Azərbaycan öz dövlətçilik tarixində heç vaxt indiki qədər müstəqil olmamışdır. Bu gün Azərbaycan 3 qitəni və 3 dənizi birləşdirən nəhəng transmilli enerji və nəqliyyat layihələrini reallaşdırmış, regionda və beynəlxalq təşkilatlarda söz sahibi olan ölkədir. Son bir neçə ayda baş verən hadisələr bu dediklərimizin əyani sübutudur. Cənab İlham Əliyevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının sədri statusunda pandemiya ilə mübarizədə qlobal həmrəyliyə çağırış etməsi və bu çağırışın dünyanın 130-dan çox dövlət və hökumət başçıları tərəfindən dəstəklənməsi nəticəsində BMT-nin Baş Assambleyasının 31-ci xüsusi sessiyasının çağırılması Azərbaycan Prezidentinə, ölkəmizə dünya dövlətlərinin regional və beynəlxalq arenadakı rəğbəti, etimadı sayəsində mümkün oldu. Azərbaycan altı aydan çoxdur ki, bütün dünyanı öz məngənəsinə alan, dünya iqtisadiyyatını sarsıdan, istisnasız olaraq bütün dünya ölkələri üçün qlobal sınağa çevrilən yeni koronavirus (COVID-19) pandemiyası dövründə də qlobal çağırışlara cavab verən ölkə olduğunu birmənalı olaraq sübut etdi. Təsadüfi deyildir ki, möhtərəm Prezidentimiz qlobal pandemiya ilə mübarizə üçün beynəlxalq həmrəylik və səfərbərlik çağırışını dünyada ilk səsləndirən və bu istiqamətdə ilk real addımlar atan dövlət başçısıdır. Fərəhləndirici haldır ki, ölkə başçımızın pandemiya ilə mübarizədə cəmiyyətimizdə birlik, bərabərlik, mütəşəkkillik, həmrəylik rəmzinə çevrilən "Biz birlikdə güclüyük!" çağırışı bu gün dünya ictimaiyyətinin şüarına çevrilir və ümumbəşəri xarakter alır.

Artıq heç kimdə şübhə doğurmayan faktdır ki, qlobal pandemiya dünya iqtisadiyyatı üçün ciddi böhran və yeni çağırışlar yaratdı. Dünya iqtisadiyyatının və ayrı-ayrı regionların, milli iqtisadiyyatların itkiləri, özünübərpa üçün tələb olunan müddət, müxtəlif sektorlardakı kiçilmə hazırda əsas müzakirə mövzularıdır. Bir çox ölkələr ağır iqtisadi itkilər və təxirə salınan sosial proqramlarla üzləşdilər. Azərbaycan isə ölkə rəhbərinin apardığı düşünülmüş, kreativ, uzaqgörən siyasət nəticəsində pandemiyadan ən az əziyyət çəkən və iqtisadi cəhətdən ayaqda qalan azsaylı ölkələrdəndir. Bu ilin 6 ayının iqtisadi göstəricilərinə nəzər yetirsək, dediklərimiz öz təsdiqini tapar. Belə ki, pandemiyanın təbii nəticələri olaraq Azərbaycanda ÜDM 2,7% aşağı düşsə də, kənd təsərrüfatı 2,2%, qeyri-neft sənayesi istehsalı 11%-dən çox artmışdır. Əlbəttə ki, əgər koronavirusun fəsadları olmasaydı, bu artım daha da yüksək olacaqdı. Pandemiyadan ən çox zərər görən sahələr təbii olaraq turizm (48% tənəzzül) və tikinti sektorlarıdır (14,5% tənəzzül). Bunlarla yanaşı, sevindirici haldır ki, bu yarımildə dövlət büdcəsinin gəlirləri proqnoza qarşı 2,9 faiz və ya 338 milyon manat çox icra olunmaqla 12 milyard 23 milyon manat təşkil edib. Pandemiya dövründə bütün iqtisadi çətinliklərə, xüsusilə neftin dünya bazarındakı qiymətinin bir neçə dəfə aşağı enməsinə baxmayaraq, ölkəmizdə heç bir sosial proqram ixtisar olunmadı, sərt karantin rejimində əhaliyə və biznes sektoruna lazımi səviyyədə iqtisadi dəstək göstərildi. Cənab Prezidentin bu müşavirədə vurğuladığı kimi, ilin sonuna qədər sosial sahədə heç bir proqram ixtisar edilməyəcək. Bütün bunlar Azərbaycanda sosial dövlət quruculuğunun və Azərbaycan Prezidentinin siyasətinin mərkəzində vətəndaşın rifahının, sağlamlığının və təhlükəsizliyinin olduğunun təzahürüdür. Pandemiya dövründə biz dövlətin iqtisadiyyatın fors-major şəraitində idarəçiliyinin yeni modelinin şahidi olduq. Bu dövrdə üç əsas hədəf icra olundu: 1) ölkədəki makroiqtisadi sabitlik qorundu; 2) əhalinin işyerləri və məşğulluğu qorundu; 3) şəffaflığın artırılması və əlavə gəlir mənbələrinin tapılması nəticəsində büdcə gəlirləri iqtisadiyyatın dayanıqlığının təminatçısı oldu. Bu amillər postpandemiya dövründə də iqtisadiyyatın özünübərpasının əsasını təşkil edəcək və daxili tələblə investisiyaların stimullaşdırılması üçün iqtisadiyyata müsbət impulslar verəcəkdir. Büdcənin fiskal yükünün artmasına baxmayaraq, ölkəmizin valyuta ehtiyatları bu fors-major dövrdə azalmadı və Azərbaycan dünyanın 120 ölkəsindən fərqli olaraq iqtisadi yardım, kredit üçün heç bir beynəlxalq təşkilata müraciət etmədi, əksinə, özü 30-dan çox ölkəyə pandemiya dövründə yardım göstərdi. Qeyd olunanlar bir daha deməyə əsas verir ki, Azərbaycan 27 il ərzində özünü tam təmin edən, müstəqil siyasət yürüdən və iqtisadi dayanıqlığı ilə seçilən uğurlu sosial dövlət modeli yaratmağa nail olub. Bütün bu rəqəmlər, kəmiyyət və keyfiyyət göstəriciləri, eləcə də neftin dünya bazarındakı qiymətinin artıq 45 ABŞ dollarından yüksək olması deməyə əsas verir ki, Azərbaycan 2020-ci ildə də bütün sosial və investisiya proqramlarını uğurla icra edəcək və növbəti ildən etibarən iqtisadiyyat sürətli və dinamik şəkildə özünübərpa fazasına keçəcəkdir.



Bu gün, sözün əsl mənasında, siyasi, iqtisadi cəhətdən müstəqil olan və bu siyasəti ilə beynəlxalq ictimaiyyətin rəğbətini qazanan, beynəlxalq təşkilatlarda fikrinə, təşəbbüslərinə hörmətlə yanaşılan, beynəlxalq münasibətlərdə özünü etibarlı tərəfdaş kimi doğruldan, Cənubi Qafqaz regionunun lider ölkəsinə çevrilən Azərbaycan, həm də hərbi gücü ilə seçilir. Azərbaycan Ordusu bu gün ən müasir hərbi silahlarla təchiz olunmuş dünyanın ən güclü 50 ordusu sırasındadır. Ordumuz yüksək hərbi-texniki təminatı ilə yanaşı, Azərbaycan əsgərinin döyüş qabiliyyətinin, qələbə ruhunun və milli vətənpərvərliyinin yüksək səviyyədə olması ilə də fərqlənir. Son günlərdə düşmənə vurulmuş sarsıdıcı zərbələr bir daha göstərdi ki, şəhidlərimizin qisası alındı, bu torpağı Vətən edən şəhidlərimizin qanı yerdə qalmadı və qalmayacaqdır. Azərbaycan bir qarış da olsa torpağını düşmən tapdağı altında qoymayacaqdır. Azərbaycan Ordusu sərhədlərinin toxunulmazlığını qorudu və bundan sonra da qoruyacaqdır. Xain düşmənlə hər döyüşdə inamlı qələbəmiz düşmən tapdağı altındakı torpaqlarımızı azad etmək üçün güclü və qüdrətli orduya malik olduğumuzu göstərməklə, Böyük Qələbəyə xalqımızın əminliyini və inamını daha da yüksəldir.

Əlbəttə, elədir, lakin xalqımızı xırda intriqalarla yüklənən insanların "böyük iddiaları" ilə çaşdırmaq istəyən qüvvələrin hələ də mövcud olduğunu yaddan çıxarmamalıyıq. Yeri gəlmişkən, bir neçə gün öncə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqımıza müraciətində bunun nə dərəcədə qorxulu tendensiyalar yaradacağı fikrini xüsusi qeyd etməyi vacib hesab edirəm: *"Müasir informasiya platformaları düşmən qüvvələr, bədxah insanlar, bəzən sadəcə paxıl və qərəzli dairələr tərəfindən "feyk"lərin, saxta, təxribat xarakterli materialların yayılması üçün vicdansızcasına istifadə olunur. Məqsəd - çaxnaşma, nifaq salmaq və daxili "cəbhə" yaratmaq, düşkünlük və məğlubiyyət əhvali-ruhiyyəsini artırmaqdır. Unutmayaq ki, hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir. Nəinki döyüş meydanında, həm də kompüter qarşısında. Unutmayaq ki, bu gün biz bir amalı olan millət, xalqıq. Bizə zəfər lazımdır. Hamımız üçün bir qələbə. Qalib gələn isə güclü birlik, ağıl və iradə ilə möhkəmlənən olur".*

Bu məqamda döyüşlər boyunca işğalçı Ermənistanın internet resurslarında, sosial şəbəkələrdə dezinformasiyalarına, təxribat mahiyyəti daşıyan əsassız xəbərlərinə bir daha diqqət çəkmək istərdim. Cəbhədən yalan-yanlış xəbərlər verməklə, öz itkilərini gizlətmək, Azərbaycan haqqında həqiqətə uyğun olmayan xəbərlər yaymaqla işğalçı, əslində, tək döyüş meydanında yox, bir neçə cəbhədən Azərbaycanı hədəfə alır. Beynəlxalq internet resurslarında, sosial şəbəkələrdə Azərbaycan gənclərini çaşdırmaq məqsədi güdən çoxsaylı təxribatlara şahid oluruq. Bu günlərdə gənclərimiz informasiya müharibəsinin əhəmiyyətini və məsuliyyətini bir daha dərk etdilər. Müharibə şəratində olan ölkəmizin hərbi qulluqçuları dövlət sərhədlərimizin toxunulmazlığını və Azərbaycan vətəndaşlarının təhlükəsizliyini düşmənlə üz-üzə ön cəbhədə layiqincə təmin edir və düşmənin xain təxribatlarına qətiyyətli cavablar verirlər. Hər bir Azərbaycan gənci də bu gün gedib səngərdə əlində silah Vətənin müdafiəsi və Azərbaycanın haqq səsi naminə vuruşmağa hazırdır, lakin düşmən yalnız cəbhədə deyil, düşmən beynəlxalq internet resurslarında, sosial şəbəkələrdə də pusqudadır. Bu səbəblə hər bir Azərbaycan gənci bu gün sosial şəbəkələrdə, internetdə düzgün davranış qaydalarını bir daha nəzərdən keçirməli və mümkün olan hər yerdə, istənilən tribunada layiqli şəkildə Azərbaycanın haqq səsini ucaltmağı bacarmalıdır.

*2016-cı il Aprel qələbəsi, 2018-ci il Günnüt zəfəri və 2020-ci il İyul döyüşlərində düşmənə layiqli cavab və sarsıdıcı zərbələr, bir neçə gün ərzində Azərbaycanda mütləq əksəriyyətini gənclərin təşkil etdiyi 55 minə yaxın vətəndaşın könüllü cəbhəyə getmək üçün müraciətinin qeydə alınması, ABŞ Konqresinin Qeydiyyat Komitəsində Ermənistanın Azərbaycan ərazisini işğal faktını dövlət səviyyəsində ilk dəfə tanıyan 296 saylı düzəlişi qəbul etməsi, Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi, hər keçən gün bizi Böyük Qələbəmizə, Azərbaycanın ərazi bütövlüyünün bərpasına yaxınlaşdırır. O gün uzaqda deyil. İndi isə Ali Baş Komandanımızın, Prezidentimizin ətrafında daha sıx birləşmək və millət olaraq bir yumruq kimi olmaq vaxtıdır.*

**_Şəmsəddin HACIYEV,_**
**_Yeni Azərbaycan Partiyası Səbail Rayon Təşkilatının sədri,_**
**_iqtisad elmləri doktoru, professor_**

# Dünya Azərbaycanı dəstəkləyir, Ermənistanın təcavüzünü pisləyir

## Torpaqlarımız tezliklə azad olunacaq

### Bunu Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət, xalqımızın vətənpərvərliyi və həmrəyliyi təsdiq edir



**İyulun 12-dən etibarən Ermənistan ordusu Tovuz istiqamətində Azərbaycanın dövlət sərhədlərini, hərbçilərimizin mövqelərini, yaşayış məntəqələrini iriçaplı və uzaqmənzilli toplardan atəşə tutdu. Törədilən qanlı təxribatların qarşısı Ali Baş Komandanın müdrik rəhbərliyi və göstərişi ilə Ordumuzun qəhrəman əsgər və zabitlərinin yüksək sayıqlığı, şücaəti nəticəsində layiqincə alındı.**

Döyüş meydanında mənfur düşmən Azərbaycan Ordusunun güclü müqaviməti və əks-həmləsi ilə üzləşdi. Dəqiq, sarsıdıcı zərbələr nəticəsində düşmən başından zərbə aldı.

Müharibədə istər canlı insan, istərsə də texnika itkisi vermədən ötüşmək qeyri-mümkündür. Başda qəhrəman generalımız Polad Həşimov, polkovnik İlqar Mirzəyev olmaqla bir neçə zabit, gizir və əsgərimizin həlak olması çox kədərləndirici olsa da, onların igidliyi və vətənsevərliyi bütün cəmiyyətimiz üçün əsl qəhrəmanlıq nümunəsi oldu. Bu hadisə bir daha göstərdi ki, istər Azərbaycan əsgəri, istərsə də onun yüksəkrütbəli zabitləri məqamı gələndə Vətən uğrunda canını fəda etməyə hazırdır və torpaq uğrunda gözlərini qırpmadan belə şəhidlik zirvəsinə ucalmağı özlərinin müqəddəs borcu bilirlər.

Tovuz döyüşləri Aprel savaşı kimi Ali Baş Komandana ümumxalq məhəbbətinin növbəti təsdiqinə çevrildi və tarixə ordumuzun gücünün, xalqla ordunun birliyinin, vətənpərvərliyinin nümunəsi kimi düşdü. Bu qələbə bir daha sübut etdi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Ordusunun həyata keçirdiyi tədbirlər barədə danışan Prezident İlham Əliyev deyib: "Son iki gün ərzində düşmənə növbəti dəfə sarsıdıcı zərbələr endirildi. Bizdə olan məlumata görə, onlarca erməni hərbçi məhv edildi, onların sərhədboyu yerləşən dayaq məntəqələrinin böyük hissəsi darmadağın edildi. O cümlədən onların bəhanə kimi gətirdiyi məlum postun da bütün infrastrukturu darmadağın edildi, bu post artıq mövcud deyil. Düşmənin texnikası, silah-sursat anbarları, dayaq məntəqələri, avtomaşınlar, sisternlər, canlı qüvvənin yerləşdiyi yerlər Azərbaycan Ordusu tərəfindən dəqiq və sərrast atəşlə məhv edilmişdir".

Azərbaycan Ordusunun hədəfi zəbt olunmuş torpaqlarımızdan çıxmaq istəməyən erməni işğalçılarının öz yerini göstərmək, tez bir zamanda düşmən tapdağında olan doğma torpaqlarımızı azad etməkdir. Ordumuzun sarsıdıcı zərbələrindən Ermənistan rəhbərliyinin səksəkəyə düşməsi, öz himayədarlarından acizanə şəkildə kömək istəməsi dövlətimizin uğurudur. Sevindirici haldır ki, artıq ermənilərin iç üzünə yaxından bələd olan ölkələr, hətta onları həmişə dəstəkləyən dövlətlər bu dəfə haqqı nahaqqa vermədilər. Yəni ermənilərin haqsız müraciətlərinə baxmadılar.

Ermənistanın təxribatından sonra Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan, Xarici İşlər naziri Mövlud Çavuşoğlu, Müdafiə naziri və aparıcı dörd partiyası, tanınmış ictimai-siyasi xadimləri, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Ukrayna və Pakistan Azərbaycanın haqq işinin müdafiəsinə qalxdılar və ölkəmizin yanında olduqlarını bəyan etdilər. Vətənimizin beynəlxalq aləmdə daha çox dəstək qazanması düşməni şoka saldı.

Həmin günlərdə könüllü olaraq ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmək istəyən vətəndaşların Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə çoxsaylı müraciətləri göstərir ki, Azərbaycan xalqı Qarabağın işğalı faktı ilə heç vaxt barışmayacaq. Dövlət Xidmətinin məlumatına görə, 50 mindən çox müraciət edən vətəndaş qeydiyyata alınıb.

İyulun 14-də xalqımız qürurverici bir tarix yaşadı. Bu tarix milli həmrəyliyin canlı mücəssəməsi idi. Bu, gənclərimizin Azərbaycan Ordusunu və Ali Baş Komandanı dəstəkləməsinin bariz nümunəsi, xalqla ordunun birliyinə, düşmən üzərində gələcək qələbəmizə verilən mesaj və dəstək idi.

Əminik ki, cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında düşmən tapdağında olan bütün torpaqlarımız tezliklə azad olunacaq. Bunu cənab İlham Əliyevin həyata keçirdiyi siyasət, xalqımızın vətənpərvərliyi və həmrəyliyi təsdiq edir.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***

## Xarici İşlər Nazirliyində ABŞ-ın Azərbaycandakı səfiri ilə görüş olub

İyulun 23-də Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı səfiri Örl Litzenberqer Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə çağırılıb və Xarici İşlər nazirinin müavini Xələf Xələfovla görüş keçirilib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Görüşdə X.Xələfov ilk olaraq Ermənistanın Azərbaycan-Ermənistan sərhədində həyata keçirdiyi hərbi təxribat ilə bağlı qarşı tərəfə məlumat verib.

Nazir müavini ermənilərin sərhəddə törətdikləri təxribatın Azərbaycan Silahlı Qüvvələri tərəfindən iflasa uğradılmasından sonra militarist erməni hakimiyyətinin işğalçı siyasətini gizlətmək üçün dünyanın müxtəlif ölkələrinin əsasən ermənilərin daha sıx məskunlaşdığı şəhərlərində Azərbaycanın diplomatik nümayəndəliklərinə və soydaşlarımıza qarşı hücum və təxribatlara əl atdığını diqqətə çatdırıb.

X.Xələfov bildirib ki, belə təxribatlardan bir neçəsi məhz ABŞ-da həyata keçirilib. İyulun 21-də Azərbaycanın Vaşinqtonda yerləşən səfirliyinin giriş darvazasına naməlum şəxslər tərəfindən üzərində Azərbaycan əleyhinə yazıları əks etdirən banner bağlanıb və erməni media, mətbuat vasitələrində nümayiş etdirilib.

Nazir müavini ermənilərin daha bir təxribat və hücum əməlinin Los-Anceles şəhərində baş verdiyini, erməni radikal qruplarının Azərbaycan Respublikasının Los-Anceles şəhərindəki baş konsulluğunun yerləşdiyi binanı əhatəyə alaraq Azərbaycana qarşı aqressiv formada təxribatçı şüarlarla müşayiət olunan etiraz aksiyası keçirdiyini bildirib. Aqressiv erməni nümayişçilərin baş konsulluğun önündə dinc aksiya keçirən və sayca onlardan qat-qat az olan Azərbaycan icması üzvlərinə hücum etdiyi və biri qadın olmaqla yeddi nəfər azərbaycanlının müxtəlif dərəcəli bədən xəsarətləri aldığı qeyd olunub.

X.Xələfov bildirib ki, ABŞ-da Azərbaycanın baş konsulluğu qarşısında dinc aksiya üçün yığışmış Azərbaycan icması nümayəndələrinə aqressiv erməni kütləsi tərəfindən edilən hücumun ABŞ polisi tərəfindən qarşısının alınmaması məyusedici haldır.

Nazir müavini əlavə edib ki, milli mənsubiyyətinə görə günahsız vətənpərvər azərbaycanlılara erməni radikal qrupları tərəfindən polis qüvvələrinin gözü qarşısında hücum edilərək xəsarət yetirilməsi ABŞ-ın nüfuzuna xələl gətirir. Azərbaycan tərəfinin buna qəti etirazını bildirdiyini və öz qanuni vəzifələrini yerinə yetirməyənləri qınadığını deyən X.Xələfov ABŞ hökumətindən bu cinayətləri törətmiş erməni radikal birləşmələrinin məsuliyyətə cəlb edilməsinin və bu təxribat hadisələrinə hüquqi qiymət verilməsinin tələb edildiyini diqqətə çatdırıb.

X.Xələfov səfirlik və baş konsulluğumuzun toxunulmazlığı və fəaliyyətinin təhlükəsizliyinin pozulması ilə müşayiət olunan hadisələrin araşdırılmalı olduğunu və təxribat törədənlərin hərəkətlərinə hüquqi qiymət verilməsinin vacibliyini vurğulayıb.

Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı səfiri Örl Litzenberqer qeyd edilən məsələlərlə bağlı məlumatlı olduğunu, baş verən hadisələrdən dolayı dərin təəssüf hissi keçirdiyini bildirib. Los-Ancelesdə baş verən təxribatla bağlı danışan səfir bunun bilavasitə aqressiv erməni nümayişçilər tərəfindən həyata keçirildiyinə dair təkzibedilməz sübutların mövcud olduğunu və dinc aksiya üçün oraya yığışmış azərbaycanlılara qarşı sayca daha çox olan ermənilər tərəfindən edilmiş hücuma bəraət qazandırmağın mümkünsüzlüyünü diqqətə çatdırıb. Örl Litzenberqer ölkəsində dinc şəkildə söz azadlığı hüququnun dəstəkləndiyini, lakin ermənilərin Los-Ancelesdə həyata keçirdiyi aksiyanın qaragüruhdan ibarət olduğunu qeyd edib. Səfir bunun qəbuledilməz və ABŞ ərazisində baş verməməli bir hal olduğunu ifadə edib.

Səfir Los-Ancelesin yerli hüquq-mühafizə orqanları rəhbərliyinin baş vermiş erməni təxribatı və onun qarşısının alına bilməməsindən dolayı üzrxahlıq etdiyini, məsələ ilə bağlı araşdırmaların aparılacağını və müvafiq tədbirlərin görüləcəyini qeyd edib.

Sonda Örl Litzenberqer görüşdə qaldırılan məsələlərin, o cümlədən Azərbaycanın ABŞ-dakı diplomatik nümayəndəliklərinin təhlükəsizliyinin təmin edilməsi üçün əlavə tədbirlərin görülməsi məsələsini rəsmi Vaşinqton qarşısında qaldıracağını ifadə edib.

## Rusiyanın Xarici İşlər naziri azərbaycanlı və erməni icmalarının nümayəndələri ilə görüşüb

Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov Rusiyanın azərbaycanlı icmasının nümayəndəsi, "Kiyevskaya ploşşad" MMC-nin Direktorlar Şurasının sədri Qod Nisanovla görüşüb.

AZƏRTAC xəbər verir ki, Rusiya XİN-in başçısı Azərbaycan icmasının nümayəndəsi Q.Nisanovla söhbətində bundan əvvəl "Rusiya erməniləri ittifaqı" Ümumrusiya İctimai Təşkilatının prezidenti Ara Abramyan ilə də görüşdüyünü qeyd edib. Görüşlərdə qüvvədə olan qanunvericiliyə müvafiq olaraq Rusiya Federasiyasının ərazisində millətlərarası sülhün və həmrəyliyin dəstəklənməsində Azərbaycan və erməni icmalarının rolu müzakirə edilib.

## Mariya ZAXAROVA: "Azərbaycan və Ermənistan sülhün möhkəmlənməsinə yönələn müxtəlif təşəbbüslərlə çıxış edirlər"

AZƏRTAC xəbər verir ki, bu barədə Moskvada brifinqdə Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bəyan edib.

M.Zaxarova Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması üzrə diplomatik prosesin fəallaşdırılmasına dair Azərbaycanın təşəbbüsü haqqında sualı cavablandıraraq deyib: "Bunu tərəflərlə müzakirə edirik. Ümidvarıq ki, beynəlxalq səfərlərə məhdudiyyətlər götürüldükdən sonra münaqişənin nizamlanması ilə bağlı bütün məsələləri kompleks şəkildə müzakirə etmək imkanı yaranacaq".

RF XİN-in rəsmi nümayəndəsi qeyd edib ki, münaqişə zonasındakı vəziyyət ötən həftə Minsk qrupunun iclasında və təşkilatın bütün üzvlərinin iştirakı ilə ATƏT-in daimi şurasında nəzərdən keçirilib. "Minsk qrupunun həmsədrləri tərəflərlə müntəzəm əlaqə saxlayırlar. Daha əvvəl onların fəaliyyətdə olan sədrlə, ATƏT-in baş katibi ilə onlayn formatda görüşləri keçirilib, BMT katibliyi ilə məsləhətləşmələr planlaşdırılır. Həmçinin Rusiya Prezidenti administrasiyası və Xarici İşlər Nazirliyinin xətti ilə verilən bir sıra bəyanatlarda tərəflər maksimum dərəcədə təmkinlik nümayiş etdirməyə, atəşkəs rejiminə ciddi riayət etməyə çağırılır. Sergey Lavrovun erməni və azərbaycanlı həmkarları ilə təcili telefon əlaqələri təşkil olunub. Lavrov bu həftə Moskvada Azərbaycanın və Ermənistanın səfirləri ilə vəziyyəti müzakirə edib. Hərbi qurumların xətti ilə qarşılıqlı fəaliyyət həyata keçirilir", - deyə M.Zaxarova əlavə edib.

## Azərbaycanın Belçikadakı səfirliyinin önündə ermənilərin icazəsiz aksiyası uğursuz alınıb



Azərbaycanın Belçikadakı səfirliyinin önündə təxribatçı və vandal hərəkətlərini reallaşdırmaq məqsədilə piket keçirmək istəyən ermənilər soydaşlarımızın etiraz aksiyası ilə qarşılaşıblar.

Bu barədə AZƏRTAC-a Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Ermənilərin səfirliyimizin qarşısında icazəsiz aksiya təşkil edəcəyindən xəbər tutan soydaşlarımız qısa zamanda Azərbaycan səfirliyinə yığışıb. Soydaşlarımız səfirliyin qarşısında ingilis dilində yazılmış "Ermənistanın təcavüzkar siyasətinə son!", "Xocalıya ədalət!" şüarlarını, Ermənistanın son təxribatları zamanı qəhrəmancasına həlak olmuş şəhidlərimizin şəkillərini düzməklə ermənilərə təcavüzkar mahiyyətə malik ölkənin vətəndaşları olduqlarını bir daha xatırladıblar.

Aksiya ərzində Azərbaycanın Dövlət himni, vətənpərvərlik marşları və mahnıları, "Qarabağ Azərbaycandır!", "Qarabağ bizimdir, bizim olacaq!", "Vur, keç səngəri, Azərbaycan əsgəri!", "İşğalçı Ermənistana ar olsun!" kimi ədalətli şüarlar səsləndirilib. BMT-nin və digər beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünü tanıdığı, ölkəmizin əzəli torpaqları olan Dağlıq Qarabağdakı qeyri-qanuni fəaliyyət göstərən qondarma və cinayətkar rejimi heç bir təşkilatın və ölkənin tanımadığı, Azərbaycanın öz torpaqlarını erməni işğalından azad edəcəyi və ərazi bütövlüyünü bərpa edəcəyi erməni piketçilərinin diqqətinə çatdırılıb.

Soydaşlarımızın birliyi qarşısında ermənilərin aksiyası baş tutmayıb.

### Xarici mətbuat səhifələrində

## Paşinyan rejiminin ittihamları və ...

### Rusiyalı hərbi ekspert Ermənistanın etdiklərini bir daha xatırlatdı

*Tovuz rayonu ilə sərhəddə işğalçı Ermənistanın növbəti təxribatı Qafqaz üçbucağı olan Rusiya-Azərbaycan-Ermənistan münasibətlərində stereotipləri dağıtdı və fərqli münasibətlər modelinin yaranmasına təkan verdi. Tullanıb irəli sıçramaq istəyən erməni siyasi elitası büdrəyərək yıxıldı.*

*Sovet dönəmində erməni siyasi elitası demək olar ki, at belində idi. Çünki Kremlin Qafqaz siyasətində ermənilər aparıcı qüvvə idi və istənilən məsələnin öz maraqları çərçivəsində həllinə asanlıqla nail olurdular. Dövlət qurumlarında, kütləvi informasiya vasitələrində erməni əsilli politoloqlar əvvəllər sovet dövlətini, sonralar isə Rusiyanı öz mövqelərini dəstəkləməyə sövq etməklə yanaşı, ortaya çıxan rəqiblərini asanlıqla neytrallaşdıra bilirdilər. Ermənilər Moskvada elə gücə qadir idilər ki, göz qırpımında istədiklərinə nail olurdular.*

*Lakin son illər Rusiyanın Qafqaz siyasətində Ermənistandan başqa müstəqilliklərinə qovuşmuş digər Cənubi Qafqaz ölkələrinin maraqlarını müdafiə edən yeni siyasətçilər formalaşıb. Oleq Kuznetsov, Mixail Şevçenko kimi onlarca yeni politoloqlar Ermənistanın məkrli siyasətini qətiyyətlə ifşa edir, ortaya fərqli yaşanmalar qoyurlar. Əslində, bu, şimal qonşumuzun Şərq siyasətində vacib yenilikdir və təbii ki, öncə faydasını da özləri görəcəklər.*

*Bu baxımdan "Svobodnaya Pressa" nəşrinin hərbi şərhçisi Vladislav Şurıgin daha sərt mövqe nümayiş etdirir. "Bugünkü erməni liderləri Rusiyanı və öz xalqını satmağa cəhd edirlər" sərlövhəli yazısında müəllif Paşinyan rejimini darmadağın etmişdir. Sizə məqaləni kiçik ixtisarlarla təqdim edirik.*

"Ermənistan-Azərbaycan sərhədində növbəti gərginliklə bağlı Ermənistan tərəfindən gözlənilmədən Rusiyanın ünvanına ittihamlar səsləndi: onlar qardaş erməni xalqını satır və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) çərçivəsində öhdəliklərini yerinə yetirmir, bir dindən olduqları qardaşlarını müsəlman Azərbaycanı ilə üzbəüz tək qoyurlar.

Paşinyan rejiminin məhz belə ambisiyalı ittihamları, çox güman ki, indiki hərbi gərginləşmənin əsl mahiyyətini açmağa imkan yaradır.

Xatırladım ki, artıq bir həftədir Ermənistan-Azərbaycan sərhədində atışmalar gedir. Ən vacibi isə odur ki, bu, Dağlıq Qarabağda yox, Ermənistan və Azərbaycan arasında əvvəllər uzun illər toqquşmaların müşahidə edilmədiyi sərhədin nisbətən sakit hissəsində baş vermişdir.

Silahlı qarşıdurma niyə gözlənilmədən başladı?

İki il bundan əvvəl müxalif siyasətçi Nikol Paşinyan Ermənistanın baş naziri vəzifəsinə gəldi. O, siyasi karyerasının bütün sonrakı illərində erməni elitasının Rusiyadan tədricən aralanan zümrəsinin maraqlarını təmsil etməklə Avropa dövlətləri və ABŞ-a sarı səmt götürdü. Bu istiqamətdə atılan başlıca addım isə KTMT-dən və Avroasiya Hökumətlərarası Surası Təşkilatından çıxmağa yönəlmişdi. Lakin Paşinyan sadəcə bu müqavilədən özbaşına çıxa bilməzdi. Belə ki, Ermənistanın başlıca müttəfiqi və təhlükəszliyinin yeganə təminatçısı olan Rusiya ilə münasibətlər kəskin surətdə ağırlaşardı. Buna görə də Ermənistan başqa yol seçir və hər iki təşkilatdan aysberq kimi üzüb aralanmağa üstünlük verdi. Ötən iki il ərzində Nikolun komandası münaqişənin sülh yolu ilə tənzimləməsi üçün 2016-cı ildə qəbul edilən Vyana və Peterburq planlarından qətiyyətlə imtina etdi. Elə sonuncu münaqişə də məhz bu planları birdəfəlik dəfn etmək üçün lazım idi.

Sərhəddəki döyüşlər Ermənistana imkan verirdi ki, Vyana və Peterburq planları zibilliyə tullansın və üstəlik də Azərbaycan bu planın pozulmasında ittiham olunsun. Öz boyunlarından məsuliyyəti tam atmaq üçün erməni KİV qızdırmalı ağlaşma qopardıb Rusiyanı ittiham etdilər ki, o, Ermənistanı satdı və onun müdafiəsini və təhlükəsizliyini təmin etmək niyyətində deyil. Məqsəd Yerevanın NATO dövlətləri və daha dəqiqi, ABŞ timsalında yeni müdafiəçi və portnyor axtarmaq idi. Əgər belədirsə, gəlin araşdıraq ki, müasir Ermənistan bizə necə "qardaş", daha dəqiqi, necə "bacı"dır? Ermənistanın yedəyində getmək isə müasir Rusiya üçün təhlükəli tendensiyadır.

Maraqlısı odur ki, "qardaşlıq" çoxsaylı erməni diasporunun təmsilçiləri və siyasi elitası tərəfindən Rusiyanın yalnız birtərəfli və qeyri-şərtsiz erməni biznesinə və mentalitetinə verdiyi imtiyaz və üstünlüklər kimi başa düşülür. Qəfildən aydın olur ki, sən demə, məhz Ermənistan öz ərazisində 102-ci hərbi bazanın yerləşməsinə icazə verməklə Rusiyanı Türkiyədən qoruyurmuş. Sən demə, Rusiyada erməni diasporu öz xüsusi qanunları ilə yaşaya bilər. Qədim və şöhrəti əsrlərin dərinliyindən gələn erməni xalqı istisna təşkil edir və xüsusi statusa malikdir. Sonuncu iki bəndin erməni millətçilərinin bəzilərinin iliyinədək işləyən zəhərlənmiş millətci təfəkkürünün kliniki və psixiatrik halı kimi müzakirə edilməsinə lüzum yoxdur. Ancaq SSRİ-dən bizə miras qalan müttəfiqimizin necəliyini araşdırmağa dəyər. Buna görə isə 30 il geriyə qayıdaq...

Bu gün erməni mühitində 90-cı illərin əvvəlindəki hadisləri, SSRİ-nin dağılmasını xatırlamağa çalışmırlar, amma buna ehtiyac duyulur. Ona görə ki, məhz Ermənistan və o dövrün erməni millətçiləri Sovet İttifaqının parçalanmasına ilk təkan verənlərdən idi. Və erməni millətçiliyinin toxumları Ermənistanın münbit mühitində cücərib digər respublikalarda çiçəklədi, boy verib inkişaf etdi.

Bu gün onu da xatırlamaq dəbdə deyil ki, 1987-1995-ci illərdə Ermənistan faktiki olaraq monoetnik dövlətə çevrilmişdir. Azərbaycanlıların deportasiyasını demirəm, lakin "qardaş" respublikada rusların sayının 3 dəfə azalması çox şeydən xəbər verir. O dövrdə ermənilərin ruslara münasibətindən söz salmaq üçün Leninakanda baş verən hadisəni xatırlamamaq mümkün deyil. Mən 1992-ci ilin 10 iyulunda Leninakanın mərkəzində beş rus desantının qətlini nəzərdə tuturam. Üç il yarım bu şəhəri zəlzələnin uçqunlarından təmizləyən, insanları xilas edən, onlara çörək və yaşamağa yer verənlərin edamını deyirəm.

Leninakanın küçələrində gördüklərim veyillənən minlərlə tüfeyli və soyğunçular yox, məhz rus əsgərlərinin 1988-ci ilin dekabrındakı qətli mənim bu "qədim, müdrik və nəcib xalqın" münasibətlərində son nöqtəni qoydu...

Həmin vaxt Ermənistanın müdafiə nazirinin müavini Abramyanın və Şirak rayonunun hərbi birləşməsinin komandiri Vardanyanın timsalında bütün dünyaya "rusiyalı hərbçilərinin cinayətkar əməlləri haqqında" car çəkdilər. Guya ki, rus hərbçiləri avtomobillə uşağı vurmuş və silah tətbiq etmişdilər. Buna görə də onlara qarşı silah işlədilmişdi.

Əslində isə, rus desantları təmirə gedən döyüş texnikasını müşayiət edirdilər. Onlar əllərində olan silahları erməni yaraqlılarına verməkdən imtina etmiş və buna görə vəhşicəsinə qətlə yetirilmişdilər.

Necə fikirləşirsiniz, bizim desantların ölümünə görə kimsə cavab verdimi, məsuliyyət daşıdımı? Heç kim! Abramyan uğurlu karyerasını qurdu və öz əcəli ilə öldü. SSRİ dağıldıqdan sonra 7-ci qvardiya ordusunun taleyin ümidinə buraxılan hərbçilərinin ələ salınmasına görə də heç kim məsuliyyət daşımadı. İttifaq dağılan kimi erməni yaraqlıları və millətçiləri 7-ci qvardiya ordusunun anbarlarını və silahlarını ələ keçirməyə başladılar. Sonra isə bu, açıq soyğunçuluğa keçdi, silahla birlikdə hərbçilərin bütün qiymətli əşyaları da ələ keçirildi, qarət olundu. Onda hərbçilər qanundan kənar idilər.

12 dekabr 1988-ci il zəlzələsinin ilk çətin və ən ağır günlərinin yükünü çiyinlərində daşıyan, onun ağır fəsadları ilə təkbaşına mübarizə aparan ordunun qəhrəmanlıqları anındaca unuduldu. Bunun əvəzində erməni millətçi mətbuatında sovet hərbçilərinin qəddarlığı haqqında hər gün rəvayətlər uyduruldu.

1990-cı il mayın 27-də erməni yaraqlılarının silah ələ keçirmək üçün Ərubuni qalasının arxasındakı mühafizə polkuna hücum edərək keşikçinin və polk komandirinin müavinini öldürməsi, eyni zamanda hərbi patrula silah ələ keçirmək üçün hücum etməsi onunla nəticələndi ki, yaraqlı quldurlar su anbarının ətrafındakı ərazidə mühasirəyə alındılar. Onlardan 3-ü öldürüldü, 23-ü saxlanıldı və sonra hamısı buraxıldı. Bütün bunlar isə erməni "vətənpərvərləri"nin şəhərə, guya, cəza aksiyası üçün yeridilən qoşuna qarşı qəhrəmancasına mübarizəsi kimi təqdim edildi. Erməni təbliğat maşını bu "vətənpərvərlərin" ən cılız ehtiraslarını belə xaricə qəhrəmanlıq nümunəsi kimi ötürdü.

Yaraqlılar elə həmin Leninakanda helikopterləri rusların sıradan çıxaracağından şübhələndikləri üçün onların ailələrini girov götürüb aerodroma gətirmişdilər. Hərbçiləri də hadələmişdilər ki, əgər texnikanın sazlığı nümayiş etdirilməsə, girovları güllələyəcəklər. Yalnız əmin olduqdan sonra girovları qarət edib qovmuşdular.

Ədalət naminə etiraf etmək lazımdır ki, Rusiya həlak olan əsgərlərini asanlıqla unutdu. Elə görüntü yaratdı ki, guya, onlara heç nə olmayıb...

Desantların ölümündən iki il sonra buralara müdafiə naziri Pavel Qraçov ayaq açdı, erməni qonaqpərvərliyinə elə aludə oldu ki, bir ildən sonra - 1995-ci il martın 16-da Ermənistanda Rusiyanın 102-ci hərbi bazası yerləşdirildi. Bazanın Rusiyanın müdafiəsi üçün heç bir strateji əhəmiyyəti olmasa da, o, 25 ildir ki, Ermənistanı Türkiyədən qoruyur.

Erməni siyasətçiləri bu gün o zamanı xatırlamaq istəməsələr də, səxavətlə Rusiyanı ittiham edir, az qala ultimativ səviyyədə Ermənistanla necə davranmağı və onun işinə necə yarımağı göstərməkdən utanmıırlar.

Bu azmış kimi, Ermənistanın yeni rəhbərliyi bəyan edir ki, ümumiyyətlə, Rusiya KTMT ilə bağlı öhdəliklərini yerinə yetirmir. Bununla yanaşı, onlar hiyləgərcəsinə susur və etiraf etmək istəmirlər ki, Nikol Paşinyanın 2018-ci ildən üzü bəri bütün strategiyası KTMT-nin fəaliyyətinin dağıdılmasına yönəlmişdir. Məhz Ermənistan 2018-ci il ərzində bu təşkilatın fəaliyyətini uydurma bəhanələrlə bloklamış və o qədər həddini aşmışdı ki, KTMT baş katibini belə həbs etməyə cürət etmiş, 2019-cu ildə isə bir sıra komitələrin fəaliyyətini bloklamışdı.

İndi Paşinyanın qarşısında bir sual dayanır: bundan sonra nə etməli? KTMT-ni sadəcə tərk etsinmi? Amma bu, birmənalı şəkildə ermənilərin anti-Rusiya mövqeyinə keçməsi təsirini bağışlayacaq. Bu zaman isə Ermənistan, şübhəsiz ki, Rusiyanın dəstəyini itirəcək.

Azərbaycan-Ermənistan sərhədindəki sonuncu erməni təxribatı yenə də 2016-cı ildə olduğu kimi, Rusiyanı ittiham etməyə şans yaradırdı. Məhz buna görə də növbəti təxribat üçün həmişə işğal altında olan və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından kənarda qalan tanınmamış DQR-in ərazisi yox, Ermənistanla Azərbaycanın sərhədi seçilmişdi ki, Rusiyanı dalana dirəmək mümkün olsun...

30 il əvvəl olduğu kimi, erməni siyasiləri məhz növbəti dəfə də Rusiyaya "atmağa" və onu sadə ermənilərin maraqları ilə birlikdə daha baha satmağa cəhd edirlər. Məhz sadə ermənilər çətin ayaqda Yerevanın siyasi avantüralarının amansız xəyanətinin dəyərini həyatları bahasına ödəyəcəklər.

Amma Yerevanda erməni siyasi elitasının anlamaq iqtidarında olmadığı vacib bir məqam var: 2020-ci ilin Rusiyası nə 1990-cı ilin Rusiyasıdır, nə də ki, Putin Yeltsindir!

***Hazırladı:***
***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***



# Dünya Azərbaycanı dəstəkləyir, Ermənistanın təcavüzünü pisləyir

## *Patriarx KİRİLL:* "Hər dəfə Dağlıq Qarabağ münaqişəsinin kəskinləşməsini şəxsi ağrı kimi qəbul edirəm"

Moskvanın və bütün Rusiyanın Patriarxı Kirill Ermənistanı və Azərbaycanı dialoqa başlamağa və ekstremistlərə uymamağa çağırıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Patriarxın Rus Pravoslav Kilsəsinin (RPK) saytında dərc edilmiş bəyanatında deyilir.

Bəyanatda göstərilir ki, 2020-ci il iyulun 12-də Ermənistan-Azərbaycan sərhədində yenidən silahlı qarşıdurma yaranması hər iki tərəfdən insan tələfatı ilə nəticələnib. Sənəddə deyilir: "Əsrlər boyu yanaşı yaşamış xalqların münaqişəsi 33 ildir ki, davam edir. Mən 1989-cu ildən bu münaqişənin sülh yolu ilə həll edilməsi işində iştirak edirəm. Hər dəfə vəziyyət kəskinləşəndə bunu şəxsi ağrı kimi qəbul edirəm. 25 il bundan əvvəl, 1995-ci il iyunun 13-də Moskvadakı Svyato-Danilovo monastırında Azərbaycan, Ermənistan və Rusiya dini liderlərinin birinci üçtərəfli görüşü oldu. Təşəbbüskarı Rus Pravoslav Kilsəsi olmuş həmin görüşün yekunlarına əsasən, qəbul edilmiş birgə bəyanatda Ermənistan-Azərbaycan münaqişəsi dini zəminə əsaslanmayan münaqişə kimi baxış ifadə edilmişdi. Bu gün qarşıdurmanı kəskinləşdirmək üçün millətlərarası münaqişəyə din amilini süni yolla daxil etməyə çalışanlar bunu yadda saxlamalıdırlar".

Patriarx Kirill bildirib ki, bu gün Rus Pravoslav Kilsəsi münaqişənin hər iki tərəfini dialoqa çağırır.

RPK-nin bəyanatında deyilir: "Qafqazda gərginliyin artması müəyyən qüvvələr üçün sərfəlidir. Mən münaqişə tərəflərini belə qüvvələrə uymamağa çağırıram. Qafqazda yeni müharibə labüd olaraq müxtəlif terrorçu və ekstremistləri cəlb edəcək, onlar bu regionu sülhdən və əmin-amanlıqdan məhrum edəcəklər. Rus Pravoslav Kilsəsi Qarabağ münaqişəsinin nizamlanması üçün çoxillik sülhyaratma fəaliyyəti göstərib. Buna görə mənim Azərbaycanın və Ermənistanın dini liderlərinə müraciət etməyə haqqım var. Əziz qardaşlar, sizdən xahiş edirəm, qardaşcasına görüşlərdə möhkəmlədə bildiyimiz nailiyyətləri qoruyub saxlayın.

Rus Pravoslav Kilsəsi bu münaqişənin mümkün qədər tezliklə başa çatması üçün ürəkdən dua edir. Ümidvarıq ki, bizə qardaş olan Ermənistan və Azərbaycan xalqları etimadsızlığı azaltmaq, düşmənçiliyə son qoymaq, qarşılıqlı məqbul qərarlar qəbul etmək üçün özlərində qüvvə və müdriklik tapacaqlar".

## Paşinyanın hökumətin iclasında səsləndirdiyi fikirlər Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə növbəti zərbədir

"Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən iyulun 23-də hökumətin iclası zamanı səsləndirilən fikirlər ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə növbəti zərbədir".

AZƏRTAC xəbər verir ki, bunu KİV-ə açıqlamasında Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Leyla Abdullayeva bildirib.

Leyla Abdullayeva deyib: "Bununla Ermənistanın rəhbərliyi danışıqlar prosesini dayandırmaq istəyir. Onun əvvəlki dövrlərdə də səsləndirdiyi çıxış və bəyanatları göstərir ki, Ermənistan danışıqlar prosesinə qarşıdır, danışıqların formatının dəyişdirilməsi iddiası ilə çıxış edir. Lakin danışıqların formatı dəyişdirilə bilməz.

Ermənistanın işğalçı və təcavüzkar dövlət olaraq danışıqlara qeyd-şərt qoyması cəhdləri qəbuledilməzdir.

N.Paşinyanın çıxışında danışıqların mahiyyətinə zidd şəkildə xalqların öz müqəddəratını müəyyən etməsi prinsipindən danışmasına gəldikdə isə, bu, növbəti dəfə danışıqların formatını pozmaq və təhrif etmək cəhdidir. Ermənistanın bu kimi mövqeyi danışıqlardan boyun qaçırmaq kimi qiymətləndirilməlidir və ATƏT-in Minsk qrupunun həmsədrləri buna müvafiq qiymət verməlidirlər. Həmsədrlər Ermənistanın danışıqlar prosesini pozan bu açıqlamasına bilavasitə mövqe bildirməlidirlər.

Ermənistan rəhbərliyinin Azərbaycanın, guya ki, mülki əhaliyə zərər yetirməsi barədə ittihamlarına gəldikdə xatırladırıq ki, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qanlı etnik təmizləmə törədib və 1992-ci ilin Xocalı qətliamı bütün dünyaya bəllidir. Bu il iyulun 12-də Azərbaycan-Ermənistan sərhədində Ermənistan silahlı qüvvələrinin son hərbi təxribatı zamanı Tovuz rayonunun kəndlərdəki mülki insanları və obyektləri hədəfə alması və Ağdamlı kənd sakini, 76 yaşlı Əziz Əzizovun qətlə yetirilməsi təcavüzkar ölkənin terrorçu mahiyyətini bir daha ifşa etdi. Ermənistan tərəfində isə heç bir mülki şəxs ölməyib və yaralanmayıb. Azərbaycan - Ermənistan sərhədinin Tovuz istiqamətində baş vermiş gərginlik bilavasitə Ermənistanın əvvəlcədən planlaşdırdığı təxribatı idi.

Münaqişənin həlli üzrə danışıqlar prosesinə zərbə vuran bəyanatlarından sonra Ermənistanın münaqişənin sülh yolu ilə həlli məqsədilə ATƏT-in Minsk qrupunun həmsədrləri ilə işləməyə davam edəcəyi barədə fikirlər səsləndirməsi isə N.Paşinyanın riyakarlığından başqa bir şey deyildir.

Ermənistan baş naziri öz çıxışında həmçinin Türkiyəyə qarşı əsassız iddialar irəli sürür. Türkiyə bölgədə sabitliyə və təhlükəsizliyə töhfə verən dövlətdir. Türkiyə ATƏT-in Minsk qrupunun üzv ölkələrindən biridir. Türkiyə beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsi və BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində ədalətli həllini dəstəkləyir. Azərbaycan və Türkiyənin tərəfdaşlığı və həyata keçirdikləri birgə layihələr regionun inkişafına, sabitliyinə və çiçəklənməsinə xidmət edir.

Bölgədə sülh, sabitlik və təhlükəsizliyə təhdid yaradan isə məhz N.Paşinyan və onun yürütdüyü siyasətdir. Regionda baş vermiş gərginliyə görə bütün məsuliyyət şəxsən N.Paşinyanın üzərinə düşür.

## *Los-Anceles polisi:* Ermənilər azərbaycanlılara qarşı nifrət zəminində cinayət törədiblər

Los-Anceles polisi iyulun 23-də məlumat yayaraq, iki gün əvvəl Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğu qarşısında baş verən hadisələr zamanı azərbaycanlılara məhz ermənilərin hücum edərək xəsarət yetirdiyini bildirib.

Bu barədə AZƏRTAC-a Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğundan məlumat verilib.

Məlumatda deyilir: "Qeyd edək ki, hadisə baş verəndən sonra erməni daşnakları və ümumiyyətlə, erməni təbliğatı bütün sosial media platformalarında özlərini qurban kimi təqdim edərək, azərbaycanlıların onlara qarşı aqressiya törətdiklərini deyərək, öz cinayətlərini ört-basdır etməyə çalışırdılar. Baş Konsulluq isə elə ilk gündən hadisələrə dair obyektiv rəsmi açıqlamanın verilməsində və kimin hücuma məruz qaldığının aydın bəyan edilməsində təkid edirdi.

Baş Konsulluğun səyləri nəticəsində bu hadisənin məhz erməni daşnakları tərəfindən törədildiyi öz rəsmi təsdiqini tapdı.

Bundan əlavə, polis bu vəhşilikləri törədən erməni cinayətkarlarına qarşı yalnız xəsarət yetirmə maddəsi üzrə deyil, daha ağır maddə olan nifrət zəminində törədilən cinayət maddəsi üzrə iş açılacağını bəyan edib".

Qeyd edək ki, hadisədən dərhal sonra baş konsul Los-Anceles Polis İdarəsinin rəisi Michel Moore ilə əlaqə saxlayaraq, vəziyyətin ciddiliyi ilə bağlı ona məlumat verib və polisin erməni zorakılığının qarşısını ala bilməməsi ilə bağlı ciddi iradını bildirmişdi. O, öncədən Los-Ancels polisinə icmamızın keçirəcəyi bu əks-nümayiş barədə xəbərdar olduğunu və Baş Konsulluğa nümayişçilərin təhlükəsizliyinin tam təmin olunacağına zəmanət verdiyini demişdi. M.Moore isə baş konsuldan baş verən bu hadisəyə görə dəfələrlə üzr istəyərək, məsələnin ciddi araşdırılacağını, bununla bağlı xüsusi istintaq qrupu yaradacağını qeyd etmişdi.

Hazırda bir nəfər erməni saxlanılıb və digərlərinin müəyyən edilib cinayət məsuliyyətinə cəlb olunması üzrə istintaq prosesi davam edir. Baş Konsulluq sözügedən erməni cinayətkarların tezliklə müəyyən edilib öz cəzalarını almaları üçün bütün lazımi tədbirləri görməkdədir.

## *Karlos URİARTE:* "Ermənistanın təcavüzkar siyasəti regionda sülhə və təhlükəsizliyə əsas təhdiddir"

Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarını, təcavüzkar siyasətini pisləyirəm. Bu cür siyasət regionda sülhə, sabitliyə, təhlükəsizliyə əsas təhdiddir. Əlbəttə ki, bu, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə mənfi təsir göstərir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində İspaniyanın Xuan Karlos Universitetinin Hüquq və beynəlxalq münasibətlər üzrə professoru Karlos Uriarte bildirib.

O deyib: "BMT-nin Baş katibi Antonio Quterreşin də bəyan etdiyi kimi, bütün dünya öz səylərini COVID-19 pandemiyası ilə mübarizəyə yönəltməlidir. Belə bir həssas dövrdə yaranmış vəziyyətdən sui-istifadə edərək digər dövlətə qarşı hərbi təcavüz aktının törədilməsi qəbuledilməzdir. Ermənistan təxribatçı əməllərindən əl çəkərək özünün beynəlxalq öhdəliklərinə əməl etməlidir".

Professor dünyanın istənilən bölgəsində münaqişələrin həlli üçün əsas kimi beynəlxalq hüquqa, müvafiq beynəlxalq təşkilatların sənədlərinə istinad edildiyini vurğulayaraq söyləyib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlarda da BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri rəhbər tutulmalı, yenilənmiş Madrid prinsipləri nəzərə alınmalıdır".



Ermənistanın təxribatları zamanı mülki şəxslərə, yaşayış obyektlərinə ağır artilleriyadan atəş açması ilə bağlı sualı cavablandıran Karlos Uriarte bildirib: "Münaqişələr zamanı mülki əhalinin, xüsusilə də əhalinin həssas təbəqələrinin - yaşlı insanların, qadınların və uşaqların zərər görməsi böyük təəssüf hissi doğurur. Mülki əhaliyə zərər vermiş tərəf olan Ermənistan Azərbaycan xalqından və dövlətindən üzr istəməli, öz təqsirini etiraf etməli və dəymiş ziyanın əvəzini ödəməlidir".

Karlos Uriarte diqqətə çatdırıb ki, Ermənistan artıq 30 ilə yaxındır Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətraf yeddi rayonu işğal altında saxlayır. BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərini dərhal, tam və qeyd-şərtsiz tərk etməsinə dair 4 qətnamə (822, 853, 874 və 884 saylı) qəbul edib, lakin həmin qətnamələr hələ də Ermənistan tərəfindən icra edilməyib. Mən bundan dərin təəssüf hissi keçirirəm. Ermənistan Azərbaycana qarşı təcavüz aktı həyata keçirməklə BMT Nizamnaməsinin digər müddəaları ilə yanaşı, 2.4-cü maddəsini (BMT-nin prinsipləri) kobud şəkildə pozub. Azərbaycan ərazilərinin işğalı, işğal olunmuş ərazilərdə etnik təmizləmənin həyata keçirilməsi BMT Nizamnaməsinə tam şəkildə ziddir. Ermənistan BMT-nin, habelə Avropa Şurasının üzv dövləti kimi adıçəkilən təşkilatların təsis aktlarına, əsas hüquqi sənədlərinə hörmətlə yanaşmalıdır. Lakin biz görürük ki, Ermənistan beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına, Əsas İnsan Hüquqları və Azadlıqları haqqında Avropa Konvensiyasına zidd siyasət həyata keçirərək, qonşu Azərbaycanın ərazilərini işğal altında saxlayır, 1 milyondan çox azərbaycanlının əsas insan hüquqlarını pozmaqda davam edir.

# Ermənilərin yeni terror dalğası

### Siyasi arenalarda, savaş meydanlarında məğlub olan Ermənistan azərbaycanlılara qarşı yeni etnik müharibə elan edib

*Yenə erməni vəhşiliyi, erməni vandalizmi...*

*Tarix boyu məkrli, hiyləgər siyasətindən əl çəkməyən təcavüzkar Ermənistan həm siyasi arenalarda, həm də savaş meydanlarında Azərbaycana açıq-aşkar məğlub olduğu üçün çirkin niyyətli siyasətini indi başqa müstəviyə yönəldib. İndi təkcə azərbaycanlılar deyil, dünya ictimaiyyəti əsl erməni vandalizminə şahidlik edir.*

*Son bir həftə ərzində ermənilərin Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə və müxtəlif şəhərlərdə dinc aksiya keçirən soydaşlarımıza qarşı həyata keçirdikləri çirkin təxribatlar, həqiqətən də, əsl erməni xislətinin bariz təcəssümüdür.*




#### 26 ölkədə 58 aksiya, 84 bəyanat, 17 dildə 100-ə yaxın məqalə

İşğalçı Ermənistanın sonuncu hərbi təxribatı zamanı Azərbaycan Ordusunun bir neçə hərbçisi qəhrəmancasına savaşaraq şəhidlik zirvəsinə yüksəldilər. Həmçinin Tovuz rayonunun Ağdam kəndinin 76 yaşlı dinc sakini erməni silahlı birləşmələrinin artilleriya atəşi nəticəsində həlak oldu. Azərbaycan Ordusunun bu təxribata layiqli cavabı ilə düşmən on qat artlq itki verdi.

Bu təxribatdan sonra xarici ölkələrdə yaşayan azərbaycanlılar beynəlxalq səviyyədə dinc aksiyalar keçirməklə dünya xalqlarına bir daha Ermənistanın terrorçu, cinayətkar, işğalçı siyasətini çatdırmağa başladılar.

İlk dəfədir ki, belə birlik nümayiş etdirərək Azərbaycan dövlətinin və ordusunun yanında olduğunu bəyan edən soydaşlarımız, diaspor təşkilatları indiyədək 25 ölkədə 84 bəyanatla çıxış ediblər. BMT, ATƏT və digər beynəlxalq təşkilatlara, eləcə də dünyanın aparıcı ölkələrinin rəsmi dairələrinə Ermənistanın işğalçılıq siyasətinin dayandırılması ilə bağlı müraciətlər ünvanlayıblar.

Məhz soydaşlarımızın fəallığı ilə 23 ölkədə 17 dildə 100-ə yaxın məqalə və xəbər çap edilib, sosial şəbəkələrdə həqiqətləri özündə əks etdirən on minlərlə informasiya paylaşılıb. Ümumilikdə, 26 ölkədə, 58 aksiya keçirilib. Bu aksiyalarda 20 000-dən çox soydaşımız iştirak edib.

Onu da xüsusi vurğulamalıyıq ki, bir çox ölkələrdə COVID-19 pandemiyası ilə əlaqədar məhdudiyyətlərə baxmayaraq, on minlərlə soydaşımız müxtəlif aksiyalara qatılıblar. Aksiyalarda iştirak edə bilməyən soydaşlarımız isə davamlı olaraq müxtəlif qurumlara və rəsmilərə məktublar, bəyanatlar, məlumatlar göndərir, sosial mediyada dəstək verir, təbliğat və maarifləndirici işlər aparırlar.

Soydaşlarımızın müxtəlif ölkələr və şəhərlərdə keçirdikləri dəstək aksiyaları gekdikcə geniş vüsət alır. Diasporla İş üzrə Dövlət Komitəsindən aldığımız məlumata görə, soydaşlarımız Avropada 31 (Almaniyanın 7 şəhərində 9 aksiya, İsveçdə 4 aksiya, Niderlandda 2 aksiya, Fransada 2 aksiya, Belçika, İngiltərə, İsveçrə, Avstriya, İtaliya, İspaniya, Finlandiya, Polşa, Macarıstan, Latviya, Litva), ABŞ-da 11 (8 ştatında- İllinoys, Kaliforniya, Texas, Nyu York, Massaçusets, Corcia, Vaşinqton ştatları və Vaşinqton Kolumbiya Dairəsi ), Kanadada 1 (Toronto), İsraildə 1 (Kiryat Byalik - Krayotı şəhər kəsişməsi), Rusiyada 2 (Moskva, Şimali Asetiyada), Moldovada 1 (Kişinyov), Ukraynada 2 (Kiyev), Qazaxıstanda 1 (Aktau), Türkiyədə 7 (4 şəhərdə - Ankara, İstanbul, İzmir, Antalya ) dəstək aksiyaları təşkil ediblər.

Bundan başqa, bir neçə ölkədə - İsveç, İspaniya, Litva, Türkiyə və Gürcüstanda mətbuat konfransları və maarifləndirmə tədbirləri, Latviya, İsveç və ABŞ-da maşın yürüşləri həyata keçirilib və ABŞ-ın Kaliforniya, Atlanta ştatlarında bayrağımızın havada qaldırılması mərasimləri təşkil edilib. Bütün aksiyalar icazəli olub və müdafiə aksiyaları haqqında polis əvvəlcədən məlumatlandırılıb.

#### Erməni vəhşiliyi, insanlıqdankənar hərəkətlər

Lakin təəssüflə qeyd etməliyik ki, soydaşlarımızın dinc aksiyaları zamanı bu ölkələrdə yaşayan ermənilər bir daha öz vəhşiliklərini nümayiş etdiriblər. Azərbaycanlıların ABŞ-da, Avropanın müxtəlif ölkələrində "Qarabağ Azərbaycandır!", "Ermənistan terroristdir" və s. şüarları qarşısında hiddətlənən ermənilərin soydaşlarımıza qarşı insanlıqdan - kənar hərəkətləri onların iç üzünü bir daha göstərdi.

Azərbaycanlılar dinc aksiyalar keçirdikləri halda, ermənilər məkrlərini gizlədə bilmədilər. Belə ki, ABŞ-da, Belçikada, Almaniyada, Polşada diplomatik korpuslarımızın binaları önündə icazəsiz aksiya keçirən erməni xuliqan dəstələri öz mahiyyətlərini bir daha çılpaqlığı ilə ortaya qoydular.

Ermənilərin bu təxribatları, çirkin əməlləri nəticəsində soydaşlarımızın 50 nəfərə yaxını xəsarət alıb və şəxsi əmlaklarına ciddi maddi zərər dəyib. Belə ki, Belçikadakı erməni vəhşiliyi zamanı 10-dan artıq (4 nəfər xəstəxanaya müraciət edib, o cümlədən 1 qadın jurnalist), Los- Ancelesdə (ABŞ) - 30 nəfərdən çox (5 nəfər xəstəxanaya müraciət edib) soydaşımız ciddi xəsarət alıb.

Erməni vandalları tərəfindən dinc aksiya iştirakçılarının üzərinə butulka, daş, şüşə parçaları, partlayıçı vasitələr atılıb, maşınlar əzilərək aşırılıb və müxtəlif ölkələrdəki səfirliklərimizin binalarına ziyan vurulub.

Bir sözlə, həm Ermənistan, həm də beynəlxalq erməni terror təşkilatları tərəfindən idarə olunan, xaricdə yaşayan ermənilərin təşkil etdikləri aksiyalarda idarəolunmaz, qanuna zidd davranışlar nəticəsində müxtəlif zorakılıq və vandalizm aktları qeydə alınıb.

Digər təəssüfedici məqam odur ki, bir çox hallarda öncədən məlumatlanmasına baxmayaraq, polis lazımi mühafizə tədbirləri təşkil etməyib. Bu, xüsusilə Los-Anceles və Brüsseldə təşkil olunan aksiyalarda özünü göstərib. Lakin Azərbaycanın Baş Konsulluğunun səyləri nəticəsində Los-Anceles polisi bu vəhşilikləri törədən erməni cinayətkarlarına qarşı yalnız xəsarət yetirmə maddəsi üzrə deyil, daha ağır maddə olan nifrət zəminində törədilən cinayət maddəsi üzrə iş açılacağını bəyan edib.

#### Bostonda ABŞ senatorunun ermənipərəst mövqeyinə etiraz aksiyası

Erməni təxribatına, erməni vəhşiliyinə baxmayaraq, soydaşlarımızın Avropanın müxtəlif ölkələrində icazəli aksiyaları davam edir. Dünən növbəti aksiyalar ABŞ-ın Massaçusets ştatının paytaxtı Boston şəhərində keçirilib. Bostonda yaşayan azərbaycanlı gənclər Ermənistanın son hərbi təxribatları ilə bağlı ədalətsiz və ermənipərəst mövqe sərgiləyən ABŞ senatoru Edvard Con Markiyə (Edvard John Markey) öz etirazlarını bildiriblər. Konqresin binası qarşısında gerçəkləşdirilən aksiyada gənclərimiz amerikalı senatora Azərbaycanın Tovuz istiqamətindəki dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin xaincəsinə hərbi təxribatlar törətdiyini, artilleriya zərbələri nəticəsində sərhədyanı hərbi obyektlərin və yaşayış məntəqələrinin dağıdıldığını, hərbçilərimizin və dinc sakinlərin həlak olduğunu xatırladıblar. Onlar müstəqil Azərbaycanın işğalçı Ermənistanın hücumuna məruz qaldığını nəzərə çatdıraraq, 2013-cü ildən Massaçusets ştatından ABŞ senatoru olan Edvard Con Markinin mövqeyini ədalətsiz və haqsız adlandırıblar.

Aksiyaçılar senatoru Bostonda yaşayan 30 min erməninin haqq və ədalətə söykənməyən, beynəlxalq hüquq və normalara zidd olan istəyinə görə deyil, tarixi faktları araşdırıb ədalətli mövqe nümayiş etdirməyə dəvət ediblər: "Biz Amerika demokratiyasına inanırıq və Sizdən ədalətli mövqe gözləyirik".

Çexiyanın paytaxtı Praqa şəhərinin mərkəzi körpülərindən birində "Qarabağ Azərbaycandır!" şüarı yazılmış iri poster asılıb. Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumatda bildirilir ki, bu aksiya Çexiyada yaşayan azərbaycanlı gənclərin təşəbbüsü ilə reallaşdırılıb. Çex dilində yazılmış poster Çexiyanın Prezident Sarayına, ölkənin Baş Nazirinin iqamətgahına və Nazirlər Kabinetinin inzibati binasına aparan yolun üzərindəki körpüdə yerləşdirilib. Məqsəd ölkənin dövlət rəsmilərinin və yerli ictimaiyyətin diqqətini müstəqil Azərbaycan dövlətinin əzəli torpaqları olan Dağlıq Qarabağ və ona bitişik 7 rayonun Ermənistanın işğalı altında qalmasına, BMT-nin məlum 4 qətnaməsinə baxmayaraq, hələ də Azərbaycanın ərazi bütövlüyünün təmin olunmamasına cəlb etməkdir.

Bu gün Praqada soydaşlarımız Ermənistanın işğalçı siyasətinə və hərbi təxribatlarına son qoyulması, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün təmin olunması tələbi ilə etiraz aksiyası keçirəcəklər. Aksiya zamanı dövlətimizə, xalqımıza, ordumuza və xarici ölkələrdə Ermənistanın təcavüzkar siyasətinə etiraz səsini ucaldan dünya azərbaycanlılarına dəstək ifadə olunacaq.

Qeyd edək ki, aksiyalar davam edir. Bu gün soydaşlarımızın ABŞ-ın Florida ştatında, Praqada, iyulun 27-də Minnisotada, iyulun 28-də isə İngiltərədə icazəli aksiyalar keçirilməsi nəzərdə tutulub. Yəni bu aksiyalarla bağlı artıq müvafiq icazə alınıb. Bu aksiyalarda da soydaşlarımız "Ermənistanın işğalçı siyasəti dayandırılsın!", "Azərbaycan torpaqları azad edilsin!", "Beynəlxalq təşkilatların qətnamələri yerinə yetirilsin!", "Xocalı soyqırımına ədalət!", "Erməni vandalizmini dayandır!" şüarları səsləndiriləcək.

#### Belçikada və Avstraliyada erməni təxribatının qarşısı alındı

Azərbaycanın Belçikadakı və Avstraliyadakı səfirlikləri önündə təxribatçı və vandal hərəkətlərini reallaşdırmaq məqsədilə piket keçirmək istəyən ermənilər soydaşlarımızın etiraz aksiyası ilə qarşılaşıblar. Ermənilərin səfirliyimizin qarşısında icazəsiz aksiya təşkil edəcəyindən xəbər tutan soydaşlarımız qısa zamanda Azərbaycan səfirliyinə yığışıblar. Soydaşlarımız səfirliyin qarşısında ingilis dilində yazılmış "Ermənistanın təcavüzkar siyasətinə son!", "Xocalıya ədalət!" şüarlarını, Ermənistanın son təxribatları zamanı qəhrəmancasına həlak olmuş şəhidlərimizin şəkillərini düzməklə ermənilərə təcavüzkar mahiyyətə malik ölkənin vətəndaşları olduqlarını bir daha xatırladıblar.

Soydaşlarımızın birliyi qarşısında ermənilərin aksiyası baş tutmayıb.

Avstraliyadakı səfirliyimizə qarşı ermənilərin növbəti təxribatının qarşısı Avstraliya Federal Polisi tərəfindən alınıb. Belə ki, erməni icmasının nümayəndələri radikal ənənələrini davam etdirərək Azərbaycanın Avstraliya İttifaqındakı səfirliyi önündə aksiya keçiriblər. "Erməni Gənclər Federasiyası" hər zaman olduğu kimi, qeyri-konstruktiv çağırışları və plakatları ilə yalan məlumatlar yaymağa çalışıblar.

Radikal ermənilərin son günlər xaricdəki Azərbaycan diplomatik missiyalarına və icmasına qarşı vəhşiliklərindən və vandal hərəkətlərindən məlumatlı olan Avstraliyanın hüquq-mühafizə orqanları mümkün təxribatların qarşısını almaq üçün müvafiq tədbirlər görüb, səfirliyin inzibati binasının önündə canlı kardon təşkil ediblər. Beləliklə, ermənilərin növbəti təxribatı da baş tutmayıb.

#### Dünya erməni vəhşiliyinə şahidlik edir

Bir sözlə, işğalçı Ermənistan son silahını işə salıb. Ermənilər bu kimi təxribatlarla azərbaycanlıları öz həqiqətlərini dünyaya çatdırmaq üçün istifadə etdikləri sivil yollardan çəkindirmək, dinc aksiya iştirakçılarını münaqişəyə cəlb edərək ölkəmizin imicini zədələmək, Azərbaycanın Dağlıq Qarabağla bağlı siyasətini başqa müstəviyə çəkmək, əsas hədəfdən yayındırmaq kimi məqsədlər güdürlər. Bu zaman isə əl atdıqları vasitə vandalizm, insanlığa sığmayan hərəkətlər və hiyləgərlikdir.

Ancaq xaricdə yaşayan soydaşlarımız erməni millətçiləri, təxribatçıları ilə durmadan mübarizə aparırlar. Radikal erməni fəalları soydaşlarımızı təxribata cəlb etmək üçün Azərbaycan bayrağına, şəhidlərimizin fotolarına qarşı hörmətsiz davranış nümayiş etdirir, dövlət hakimiyyəti orqanları və rəsmilər haqqında yanlış məlumatlar yayır, təhqiramiz ifadələr işlədirlər.

Bütün bunlar, əlbəttə ki, ermənilərin beynəlxalq ictimai rəyi çaşdırmaq üçün əl atdıqları növbəti təxribatlardır. Lakin müxtəlif ssenarilər qurmaqla öz çirkin əməllərini ört-basdır etməyə çalışan vandalların məkrli niyyətləri hər zamankı kimi ifşa edilməkdədir. Dünya artıq əsl erməni vəhşiliyinə şahidlik edir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İtaliya mətbuatında erməni yalanlarının ifşası davam edir




İtaliyanın "Agenzia Stampa Italiana", "Askanews", "Notizie Yahoo", "Agenzia Nova", "Giornale Diplomatico", "The Daily Cases" və sair kimi kütləvi informasiya vasitələri Azərbaycanın İtaliyadakı səfirliyinin Ermənistanın yeni təhdidləri və media təxribatlarını ifşa edən mətbuat açıqlamasını dərc edib.

AZƏRTAC xəbər verir ki, məlumatlarda media vasitələrinin dezinformasiyadan çəkinməsinin çox vacib olduğu bir dövrdə Ermənistan tərəfindən davamlı olaraq Azərbaycana qarşı uydurma media kampaniyasının davam etdiyi və növbəti absurd xəbərlərdən birinin də Azərbaycan tərəfinin Ermənistandakı Metsamor Atom Elektrik Stansiyasına raket atması ilə hədələməsi xəbəri olduğu bildirilib.

Məlumatlarda Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tərəfindən bu yalan xəbərin təkzib olunduğu diqqətə çatdırılaraq, əslində, Ermənistanın öz cinayətlərini ört-basdır etmək, Azərbaycanın neft-qaz strukturları və əhəmiyyətli obyektlərini hədəf alacağı ilə bağlı fikirlər səsləndirdiyini vurğulayıb. H.Hacıyevin fikirlərinə istinadən, Azərbaycanın hər hansı bir strateji obyekti hədəf göstərmək siyasətinin olmadığı, Ermənistanın qəsdən Metsamor məsələsini şouya çevirdiyi, əslində, köhnəlmiş texnologiyaya mənsub bu strukturun bölgə üçün ciddi təhlükə yaratdığı və radioaktiv maddələrin qaçaqmalçılığı üçün bir vasitəyə çevrildiyi qeyd edilib.

Metsamor Atom Elektrik Stansiyasına gəldikdə, yazılarda bir çox beynəlxalq təşkilatlar və Avropa İttifaqı tərəfindən də qeyd olunduğu kimi, onun aktiv seysmik zonada yerləşməsi ilə yanaşı, istismar müddəti başa çatması səbəbindən bütün bölgə üçün ciddi təhlükə yaratdığı, bu səbəblərdən uzun illərdir dünyanın ən təhlükəli nüvə stansiyalarından biri hesab olunduğu bildirilib.

Məlumatlarda, eləcə də Ermənistanın son hərbi təxribatlarının hədəfi olan Tovuz rayonunun, xüsusilə də Azərbaycandan və Xəzər dənizindən enerji qaynaqlarının beynəlxalq bazarlara, o cümlədən Avropaya nəqli, xüsusilə də İtaliyaya xam neft daşıyan Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Supsa neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, İtaliyaya qədər uzanan Trans-Adriatik boru kəmərinin də daxil olduğu "Cənub qaz dəhlizi"nin başlanğıc hissəsi olan Cənubi Qafqaz boru kəməri, habelə İpək yolunun yenidən canlandırılmasına əsas yaradan Bakı-Tbilisi-Qars dəmir yolu xətti və Bakı-Tbilisi magistralı kimi Şərqi Qərblə birləşdirən nəqliyyat dəhlizinin keçməsi nöqteyi-nəzərindən strateji ərazi olduğu xatırlanıb.

Məlumatlarda bildirilib ki, Ermənistanın bu hərbi təxribatları yeni bazarlara və alternativ enerji mənbələrinə çıxışı təmin etmək baxımından Avropa üçün də vacib olan bu layihələrin fəaliyyətinin qarşısını almaq məqsədi daşıyır və Azərbaycandan bir çox ölkələrə, o cümlədən İtaliyaya qaz nəql edəcək dəhlizin tam fəaliyyətə başlamasından 3 ay əvvəl baş verməsi təsadüfü deyil.

Yazılarda, eləcə də son günlərdə Ermənistan tərəfindən Cənubi Qafqazdakı ən böyük su elektrik stansiyası olan Mingəçevir Su Elektrik Stansiyasını vurmaqla bağlı çoxsaylı təhdidlərin də yayıldığı qeyd olunub.

Həmçinin bildirilib ki, Ermənistan tərəfindən dəfələrlə "Azərbaycan şəhərlərini Ağdam kimi xarabalığa çevirəcəklərinə" dair bəyanatların verildiyi, Ermənistan ordusunun talan etdiyi, dağıdılmış Qarabağın əsas iqtisadi-mədəni mərkəzi və "Qafqazın Hiroşima"sı adlandırılan Ağdam düz 27 ildir ki işğal altındadır. Ağdamın işğalı ilə bağlı BMT Təhlükəsizlik Şurasının 29 iyul 1993-cü il tarixli 853 nömrəli qətnaməsinin qəbul edildiyi və Ermənistan silahlı qüvvələrinin bu ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasının tələb edildiyi vurğulanıb.

# İlham Əliyev bütün imkanları səfərbər edir

## Ölkədə su qıtlığı probleminin həlli üçün kompleks tədbirlər görüləcək

*Əvvəli 1-ci səh.*

İlk növbədə həm təsərrüfat, həm də içməli su sahələrində itki həddən artıq çoxdur. "Bəzi hallarda itkilər 40 faizdir və 50 faizə çatır, bu, dözülməzdir" - deyən dövlət başçısı itkinin nəticələrinin ölkə iqtisadiyyatı, xüsusən kənd təsərrüfatı üçün mənfi təsirlərindən söz açmışdır: "Biz suyu itiririk. Beləliklə, o, əkin sahəsinə, insanların evinə çatmır, əksinə, torpaqlara ziyan vurur. Bizim indi ən çox əməktutumlu sahələr taxılçılıq və pambıqçılıqdır. Pambıqçılıq, ümumiyyətlə, su olmadan inkişaf edə bilməz. Pambıqçılıqda təqribən 200-300 min adam işləyir, öz ailə büdcəsini təmin edir".

Amma Prezidentin müşavirədəki nitqindən məlum olur ki, mərkəzi su təsərrüfatları qurumlarının fəaliyyətlərindəki nöqsanlar təkcə yüksək itki faizi deyilmiş. Bu sahədə ən böyük və ən ciddi problem ölkədə indiyəcən su balansının olmamasıdır: "İndi mənə məlumat verilir ki, bizdə heç vaxt su balansı tərtib edilməmişdir. Necə ola bilər? Məgər su balansını tərtib etməyi Prezidentmi deməlidir?! Bunu aidiyyəti qurumlar etməlidirlər".

Aydın olmaq üçün su balansının nə olduğunu qısaca izah edək. Deməli, hər bir ölkə, o cümlədən Azərbaycan öz su ehtiyatlarının həm mövcud, həm də gələcək vəziyyətini öyrənməlidir, bilməlidir ki, onun yeraltı və yerüstü su ehtiyatları nə qədərdir. Bundan sonra həmin ehtiyatlar qiymətləndirilməlidir. Su balansının olması artezian quyularının qazılması zamanı da vacib şərt sayılır. Çünki artezian quyuları harada gəldi qazıla bilməz. Bunun üçün ərazi seçilərkən artezianın torpağa təsiri mütləq öyrənilməlidir. Bütün bunları nəzərə aldıqda, dövlət başçısının müşavirədə indiyəcən ölkədə su balansının tərtib edilməməsini əlaqədar qurumların rəhbərlərinə ciddi irad tutması başadüşüləndir.

Məlum olduğu kimi, bu ilin aprelində Prezidentin sərəncamı ilə ölkənin su təchizatı ilə məşğul olan mərkəzi icra qurumlarının fəaliyyətini koordinasiya edən komissiya yaradılmışdır. Komissiyaya rəhbər Baş Nazirin müavini Şahin Mustafayev təyin olunmuşdur. Müşavirədə də qeyd edildiyi kimi, komissiya qısa vaxtda xeyli iş görmüşdür. Ən əsası, su ehtiyatları barədə operativ məlumat sistemi qurulmuş, aidiyyəti qurumlardan alınan məlumatlar təhlil edilmiş, sudan səmərəli istifadə ilə bağlı verilmiş tapşırıqların gündəlik nəzarəti təmin edilmişdir. Bunlardan əlavə, mövcud su ehtiyatlarının ədalətli, optimal və proporsional bölgüsü prinsipi əsasında 580 mindən çox əkin sahəsi üzrə suvarma qrafikləri tərtib olunmuş, eləcə də suyun mənbədən götürülməsindən son istehlakçıyadək bütün mənbələr üzrə uçotun və dəqiq qiymətləndirmənin aparılması ilə bağlı tədbirlərin görülməsinə başlanmışdır.

Komissiyanın yaxın gələcək üçün nəzərdə tutduğu tədbirlər (Kür-Araz ovalığında yerləşən və içməli su tələbatı Kür çayından təmin edilən yaşayış məntəqələrinin su təchizatının alternativ mənbələr hesabına təmin edilməsi ilə bağlı təkliflərin hazırlanması; qrunt və təmizlənmiş tullantı sularından, eləcə də Xəzər dənizinin suyundan istifadə imkanının araşdırılması; subartezian və artezian quyularının sifarişi, layihələndirilməsi, qazılması və istismarı qaydalarının hazırlanaraq təsdiqlənməsi; kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən suvarmada müasir texnologiyaların tətbiqinin təşviqi; suvarma suyundan güzəştli istifadə ilə bağlı yeni mexanizmin hazırlanması) də diqqət çəkir və onların reallaşacağı halda sahədəki bir çox problemlərin həllinə önəmli yol açacağı şübhə doğurmur.

Problemlərsə az deyil. Kənd Təsərrüfatı naziri İnam Kərimovun müşavirədəki çıxışından məlum oldu ki, builki quraqlıq aran rayonlarında 100 min hektarda taxıl sahəsinə ziyan vurmuş və nəticədə ölkə üzrə istehsal ötən ilə nisbətən 5,5 faiz az olmuşdur. Su problemi pambığın becərilməsinə də təsir göstərir. Nazirin sözlərinə görə, pambıq əkilmiş 100 min hektardan 7 min hektarında birinci vegitasiya suvarması hələ başa çatmamışdır. "Su çatışmazlığı və quraqlıq səbəbindən suya daha çox tələbatı olan bəzi bitkilərin becərilməsi üzrə də məcburi azalmalar baş vermişdir. Belə ki, şəkər çuğunduru üzrə 7500 hektar əkin nəzərdə tutulurdusa, faktiki əkin 4800 hektarda aparılıb. Çəltik üzrə 4000 hektar proqnoza qarşı 3000 hektarda əkin aparılması mümkün olmuşdur", - deyə nazir bildirmişdir.

İçməli su sarıdan korluq çəkən rayonlar da var və onların sırasında Neftçaladakı vəziyyət daha kritikdir. Hətta o dərəcədə ki, indi rayon mərkəzinə içməli su maşınlarla daşınır. Amma problem Prezidentin nəzarətindədir və müşavirədə dövlət başçısına Neftçalanın su məsələsinin ən qısa zamanda həll ediləcəyinə söz verilməsi də bu nəzarətin hesabınadır.

Əslində susuzluq bəlkə də problemdən çox, bəladır. O üzdən son vaxtlar dünyanın başına gələn bəlaların üstünə quraqlığın da əlavə olunması yaxşı heç nə vəd etmir. Nə etmək olar, yəqin ki, insanın öz əməlləridir virus, quraqlıq, aclıq şəklində çıxır qabağına.

Amma dərd varsa, dərman da var, deyiblər. Götürək ölkəmizi. Az vaxtda hansı qlobal problemlərimizi həll etməmişik ki... Prezidentin müşavirədə dediyi kimi: "Necə ki, enerji təhlükəsizliyi məsələləri həll olundu, nəqliyyat təhlükəsizliyi məsələləri həll olundu. İndi biz ərzaq təhlükəsizliyi məsələlərinin həllinə yaxınlaşırıq. Su təhlükəsizliyi məsələsi də öz həllini tapmalıdır".

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# Müdafiə Nazirliyinin nümayəndə heyəti hərbi pilot Rəşad Atakişiyevin məzarını ziyarət edib









Müdafiə nazirinin tapşırığına əsasən təlim-məşq uçuşları zamanı qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin hərbi pilotu polkovnik-leytenant Rəşad Atakişiyevin həlak olmasının ildönümündə nazirliyin nümayəndələri tərəfindən onun məzarı ziyarət olunub, əklil qoyulub və xatirəsi ehtiramla yad edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, anma mərasimində Hərbi Hava Qüvvələrinin zabiti polkovnik Elşad Pənahov çıxış edərək R.Atakişiyevin Azərbaycan Ordusunda xidmət etdiyi müddət ərzində özünü peşəkar, nümunəvi, vətənpərvər zabit kimi göstərdiyini və onun xidmətlərinin həmişə yüksək qiymətləndirildiyini qeyd edib.

# ABŞ-dakı Azərbaycan icması Vətən naminə birlik və dəstək nümayiş etdirir




**İyulun 23-də ABŞ-da fəaliyyət göstərən Amerikada Azərbaycan Cəmiyyətlərinin Konqresinin (CASA) təşəbbüsü və dəvəti ilə Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Elin Süleymanov ilə ABŞ-ın müxtəlif ştatlarında yaşayan çoxsaylı icma üzvləri arasında videokonfrans formatında görüş keçirilib.**

CASA şəbəkəsi müstəqil və könüllülərin şəbəkə platforması olaraq Texas, Massaçusets, Nyu York, Nyu-Jersi, Kaliforniya və Floridada yaşayan soydaşlarımızın təşəbbüsü və əməkdaşlığı nəticəsində yaranıb.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş vermiş döyüşlərdə şəhid olan hərbçilərimiz və dinc sakinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Səfir E.Süleymanov icma üzvlərinin təşəbbüsünü yüksək qiymətləndirib, son günlərdə ABŞ-da yaşayan azərbaycanlıların çətin vəziyyətlə üzləşdiyini qeyd edib və icma üzvlərinin bir araya gələrək gündəlikdə qoyulan məsələləri və növbəti addımları birlikdə müzakirə etməyin faydalı olacağını bildirib.

Diplomat Azərbaycanın ABŞ Konqresi və digər dövlət qurumları ilə fəaliyyəti barədə məlumat verib və ABŞ-Azərbaycan ikitərəfli münasibətlərinə göstərilən dəstəyə və töhfələrinə görə icma üzvlərinə dərin təşəkkürünü bildirib. Eyni zamanda erməni lobbisinin ölkəmizə qarşı təxribatlarının artmasını nəzərə alaraq Azərbaycan icmasının daha da fəal olmasına çağırış edib.

Səfir ABŞ ştatları üzrə Ermənistanın təcavüzünə qarşı keçirilmiş aksiyalarda icmanın iştirakı barədə danışıb. Qeyd edib ki, erməni lobbisinin paytaxt Vaşinqtonda səfirliyin qarşısında keçirdiyi aksiya zamanı müxtəlif ştatlarda olan həmvətənlərimiz bir yerə toplaşaraq Azərbaycan dövlətinə, Ordumuza və Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə dəstək verib, sivil şəkildə qarşı tərəfi susdurublar. Səfir aksiyada iştirak edənlərə təşəkkürünü bildirərək deyib: "Vətəndaşlarımız və soydaşlarımızın etiraz aksiyasında təmkinli və mədəni davranışı digərlərinə nümunə kimi göstərilə bilər. Bu nümunəvi davranış özlərini olduqca aqressiv və vəhşi aparan ermənilərin davranışı ilə heç cürə müqayisə oluna bilməz".

Həmçinin Kaliforniya ştatının Los-Anceles şəhərində keçirilən aksiyalarda baş verənləri təəssüf hissi ilə xatırladan səfir xəsarət alanlar barədə məlumat verib. O deyib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə xəsarət alanlara dövlət tərəfindən hərtərəfli dəstək veriləcək. Hazırda ABŞ-da fəaliyyət göstərən diplomatik missiyalarımız da daxil olmaqla, azərbaycanlılara erməni radikal qrupları tərəfindən real təhdidin olması nəzərə alınmalı və soydaşlarımız olduqca ehtiyatlı davranmalıdırlar. Səfir həmçinin icma üzvlərimizin haqlı qəzəbini anladığını və bölüşdüyünü, eyni zamanda, onları erməni radikalların təxribatlarına uymamağa və birlik nümayiş etdirərək təmkinli və soyuqqanlı olmağa çağırıb.

İki saatdan çox davam edən görüşdə müxtəlif məsələlər müzakirə edilib.

# GUAM Parlament Assambleyasının videokonfrans formatında növbədənkənar büro iclası keçirilib



İyulun 24-də Milli Məclisdə GUAM Parlament Assambleyasının videokonfrans formatında 14-cü növbədənkənar büro iclası keçirilib.

Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Növbədənkənar büro iclasının 8 məsələdən ibarət gündəliyi təsdiqləndikdən sonra GUAM PA-nın sədri, qurumda Azərbaycan nümayəndə heyətinin rəhbəri Elnur Allahverdiyev Parlament Assambleyasının üzvlərinə iyulun 12-dən etibarən Ermənistan silahlı qüvvələrinin Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi təxribat barədə ətraflı məlumat verib. Ermənistanın yeni ərazilər işğal etmək niyyəti ilə törətdiyi təxribatın bölgədə vəziyyəti çox gərginləşdirdiyini bildirib. Ermənilərin hərbi əməliyyatları nəticəsində Azərbaycanın şəhidlər verdiyini qeyd edib. Bu təxribatın dünya ölkələrinə və beynəlxalq qurumlara doğru-dürüst çatdırılması üçün GUAM PA-nın fəallaşmasına ehtiyac olduğunu vurğulayıb.

Videokonfransda iştirak edən GUAM PA-dakı Ukrayna nümayəndə heyətinin rəhbəri Yuraş Svyatoslav, Gürcüstan nümayəndə heyətinin rəhbəri Kuçava Kaxaber, Moldova nümayəndə heyətinin rəhbəri Jizdan Aleksandru GUAM ərazisində baş vermiş bütün təcavüz aksiyaları pislədiklərini, Azərbaycanın Tovuz bölgəsində baş verən hərbi təxribatdan narahat olduqlarını bildiriblər. Çıxışlarda Ermənistanın növbəti təcavüzünün yolverilməz olduğu söylənilib. Büro üzvləri münaqişənin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq normativ-hüquqi aktlarda əks olunan sərhədləri çərçivəsində həll edilməsinin vacibliyini vurğulayıblar.

Videokonfransda Milli Məclisin deputatları Qüdrət Həsənquliyev, Azər Kərimli, Fatma Yıldırım işğalçı Ermənistanın riyakar siyasəti, Tovuz bölgəsinə hücumun təfərrüatları barədə həmkarlarına dolğun məlumat veriblər. Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında Ukrayna, Moldova və Gürcüstan parlamentarilərinin birgə fəaliyyətinin vacibliyini vurğulayıblar.

Büro iclasında GUAM PA-nın üzvləri COVID-19 pandemiyası ilə əlaqədar öz ölkələrindəki vəziyyət və mübarizə tədbirləri barədə ətraflı fikir mübadiləsi aparıblar.

GUAM PA-nın Baş katibi Altay Əfəndiyev və nümayəndə heyətlərinin rəhbərləri əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsinə dair rəy və təkliflərini səsləndiriblər. Pandemiya dövründə bu formatda onlayn görüşlərin intensivləşməsinin vacibliyi qeyd olunub.

# EANA-nın növbəti vebinarında pandemiya zamanı xəbər istehsalının xüsusiyyətlərindən danışılıb




**"İnformasiya agentlikləri pandemiya dövründə xəbər istehsalını yeni müstəviyə keçirdilər. Çox vaxt diqqət etmədiyimiz imkanlar mürəkkəb epidemioloji vəziyyətdə işimizin irəli getməsinə şərait yaratdı".**

Bu fikirləri İtaliyanın ANSA xəbər agentliyinin prezidenti Stefani de Alessandri Avropa Xəbər Agentlikləri Alyansının (EANA) növbəti vebinarında səsləndirib.

İtaliyada pandemiyanın pik vaxtında ANSA-nın fəaliyyətindən danışan Stefani de Alessandri məqsədlərinin, ilk növbədə, əməkdaşları yoluxmadan qorumaq və iş dinamikasını saxlamaq olduğunu deyib. "Yoluxmaların geniş yayıldığı vaxtlarda ANSA əsasən onlayn işlədi. Buna baxmayaraq, biz abunəçilərə xəbərlərin çatdırılmasını dayandırmadıq. Hətta gəlirlərimiz çoxaldı", - deyə o qeyd edib.

Stefani de Alessandri, həmçinin ANSA-nın feyk xəbərlərlə mübarizəsindən, video və fotoxəbərə tələbatın artmasından danışıb, agentliyin böhran vəziyyətində idarəçilik təcrübəsini bölüşüb.

Onlayn görüşdə AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov, Almaniyanın DPA agentliyinin baş icraçı direktoru, EANA-nın prezidenti Piter Kropş, EANA-nın baş katibi Aleksandr Giboi, Fransanın France Press agentliyinin prezidenti Fabris Fris, İspaniyanın EFE agentliyinin baş direktoru Qabriela Kanas, Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman, həmçinin Türkiyənin Anadolu, Ukraynanın Ukrinform agentliklərinin nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, Avropa Xəbər Agentlikləri Alyansı 1956-cı ildə Strasburqda təsis olunub. Dünya informasiya siyasətinə mühüm təsir imkanlarına malik bu media təşkilatı öz sıralarında Avropanın 32 aparıcı xəbər agentliyini birləşdirir. 2008-ci ildən EANA-nın üzvü olan AZƏRTAC təşkilatın fəaliyyətində yaxından iştirak edir.

# Moldovada soydaşlarımızın etiraz aksiyası zamanı ermənilər təxribat törədiblər

Moldovanın paytaxtı Kişinyov şəhərində diaspor fəalları, soydaşlarımız Ermənistan silahlı qüvvələrinin Azərbaycanla sərhədin Tovuz rayonu istiqamətində törətdiyi təxribata etiraz, Milli Ordumuza və dövlətimizə dəstək aksiyası keçiriblər.

AZƏRTAC xəbər verir ki, aksiya Azərbaycanın Moldovadakı səfirliyi qarşısında başlayıb. Aksiyada Azərbaycan diasporunun fəalları, tələbələr və media təmsilçiləri iştirak ediblər. Aksiya iştirakçıları "Qarabağ bizimdir, bizim olacaq!", "Azərbaycan, biz səninləyik!", "Şəhidlər ölməz, Vətən bölünməz", "Erməni təcavüzünə son qoyulsun!" şüarları səsləndirərək yürüş ediblər. Yürüş iştirakçıları Ermənistanın Moldovadakı səfirliyi qarşısından keçiblər. Bu zaman səfirliyin qarşısında dayanan ermənilər polisin təhlükəsizlik tədbirlərinə baxmayaraq təxribat törədiblər. Belə ki, ermənilər yürüş iştirakçılarından sonda qalanına hücum edərək fiziki güc göstərib, dövlət bayrağımızı almağa çalışıblar. Lakin soydaşlarımızın müdaxiləsindən sonra qarşıdurma yaranıb. Polisin müdaxiləsi nəticəsində qarşıdurmanın genişlənməsinin qarşısı alınıb.

Yürüş iştirakçıları ATƏT-in və BMT-nin nümayəndəliyinin qarşısından keçəndən sonra Kişineunun mərkəzi meydanında aksiyanı davam etdiriblər. Burada soydaşlarımızın qarşısına çıxan Azərbaycanın Moldovadakı səfiri Qüdsü Osmanov çıxış edərək Ermənistanın işğalçı siyasətini pisləyib.

"Ermənilər burada təxribat törətməklə Azərbaycan və Moldova arasındakı dost və səmimi münasibətlərə xələl vurmaq istəyirlər. Bu təxribatın arxasında Moldova parlamentinin erməni əsilli deputatı Qayk Vartanyan və Moldova Prezidentinin erməni əsilli müşaviri Ernest Vardanyan dayanır. Bu rəsmi şəxslər Moldovanın milli maraqlarını tapdalayaraq Ermənistanın işğalçı siyasətinə haqq qazandırırlar. Bütün dünya Ermənistanın Tovuz rayonu ərazisindəki təxribatını bir daha görüb və pisləyib", - deyə səfir əlavə edib.

Aksiya barədə məlumat və səfirin bəyanatı Moldovanın yerli KİV-ində geniş işıqlandırılıb.

# “Dini tolerantlıq dövlətin və cəmiyyətin inkişafında vacib amildir” mövzusunda beynəlxalq videokonfrans keçirilib

İyulun 24-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Özbəkistan Respublikasının Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə “Dini tolerantlıq dövlətin və cəmiyyətin inkişafında vacib amildir” mövzusunda beynəlxalq videokonfrans keçirilib.



Bu barədə AZƏRTAC-a Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Videokonfransda hər iki ölkədən 40-a yaxın alim, deputatlar, din xadimi, ali təhsil müəssisələrinin rəhbərləri iştirak ediblər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək bu gün müstəqil Azərbaycanın və Özbəkistanın ən böyük nailiyyəti qardaş xalqların öz milli və dini dəyərlərini qoruması və bərpa etməsi olduğunu vurğulayıb. Qeyd edib ki, dünyada baş verən terrorizm, radikalizm, islamofobiya hallarına qarşı mübarizədə Özbəkistan Azərbaycanın İslami birlik çağırışını dəstəkləyir, sülh və demokratiya yolunda bərabər addımlar atılır. Bizim məqsədimiz Azərbaycan və Özbəkistan arasında tarixən formalaşmış və İslam Həmrəyliyi çağırışı ilə yeni mərhələyə daxil olmuş münasibətlərin inkişafıdır. Çünki biz həmişə eyni etnik köklərə malik, tarixi və mentaliteti bir-birinə bənzəyən qardaş xalqlar olmuşuq və bu gün də çox məmnunuq ki, iki dost liderlər - Prezident Şavkat Mirziyoyev və Prezident İlham Əliyev Özbəkistan-Azərbaycan münasibətlərinin inkişafına, qarşılıqlı əlaqələrin möhkəmlənməsinə yardım edirlər. Biz fəxrlə təşəkkür edirik ki, Prezident Şavkat Mirziyoyev və özbək xalqı hər zaman Azərbaycanın dostu olduğunu bəyan edir, bizim üçün önəm daşıyan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi probleminə münasibətdə Özbəkistan dövləti öz prinsipial mövqeyini və dəstəyini nümayiş etdirir. Təəssüflə qeyd etməliyəm ki, son günlərdə sərhəd bölgəmiz olan Tovuzda növbəti dəfə Ermənistan tərəfinin təxribatları nəticəsində atəşkəs pozulub, zabitlərimiz və əsgərlərimiz şəhid olmuş, mülki əhali arasında insan tələfatı baş verib, dini-mədəni abidələrimizə zərər dəyib. Biz baş verənlərlə əlaqədar beynəlxalq təşkilatlara, dini liderlərə və dünya ictimaiyyətinə rəsmi müraciətlər etmişik. Ümidvarıq ki, hər zaman olduğu kimi qardaş Özbəkistan dövləti hərbi münaqişələrin beynəlxalq sülh prinsipləri əsasında həllinin tərəfdarı olacaq, Azərbaycanın ərazi bütövlüyünün tanınmasına dair öz dəyişməz mövqeyini və dəstəyini yenə də davam etdirəcək. Bizim birliyimiz, tarixin sınaqlarından keçmiş nailiyyətimiz, qardaşlıq salnaməmizdir.

Şeyxülislam belə bir aktual mövzuda videokonfransın keçirilməsinin əhəmiyyətini qeyd edərək konfransda hər iki ölkənin elmi, dini və siyasi ictimaiyyəti üçün tarixi əhəmiyyət kəsb edən birgə memorandumun qəbul edilməsinə xeyir-dua verib, konfransın işinə uğurlar arzulayıb.

Özbəkistan Respublikasının Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin sədri Abduqafar Axmedov çıxış edərək bu videokonfransın Azərbaycan ilə Özbəkistan arasında mənəvi-maarifçilik sahəsində əməkdaşlığın gücləndirilməsi istiqamətində növbəti vacib addım olacağını bildirib. Qeyd edib ki, müstəqilliyin elan olunması və Özbəkistan hökumətinin demokratiya ideallarına sadiqliyi, cəmiyyətin inkişafı üçün dünyəvi yolun seçilməsi tədricən ölkədə bütün din və konfessiyalar üçün bərabərhüquqlu şərait yaratmağa imkan verdi.

A.Axmedov qeyd edib ki, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə 2017-2021-ci illərdə ölkənin inkişafının beş prioritet istiqaməti ilə qəbul edilmiş Fəaliyyət Strategiyası çərçivəsində ölkənin həyatına dəstək olan bütün sahələrdə dəyişikliklər fəal şəkildə davam etdirilir. Dini sahədə bu iş dövlət orqanları və vətəndaş cəmiyyəti institutları tərəfindən həyata keçirilir və dinlərarası dialoq dini plüralizmin, tolerantlığın gücləndirilməsinə yönəldilib.

Eyni zamanda, birgə işlərin mühüm nəticələrindən biri 2018-ci ilin dekabr ayında BMT Baş Assambleyası tərəfindən “Maarifləndirmə və Dini Dözümlülük” adlı xüsusi qətnamənin qəbul edilməsidir. Qətnamənin qəbul edilməsi Özbəkistan Respublikası Prezidentinin BMT Baş Assambleyasının 72-ci sessiyasında irəli sürülən təşəbbüsünün əməli icrası idi. Qətnamənin əsas məqsədi “təhsilin hamıya açıq olmasını təmin etmək, savadsızlığı və cəhaləti aradan qaldırmaqdır”. Sənəd “dözümlülük və qarşılıqlı hörmətin bərqərar olmasına, dini etiqad azadlığının təmin olunmasına, dindarların hüquqlarının qorunmasına və ayrı-seçkilik hallarının qarşısının alınmasına” çağırılıb.

Dövlət Komitəsinin sədri son illərdə ölkədə ciddi dəyişikliklər baş verdiyini, bir çox sahələrdə, o cümlədən dini və təhsil sahəsində genişmiqyaslı islahatların həyata keçirildiyini konfrans iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, Özbəkistan Konstitusiyanın normalarını təmin etmək üçün bütün zəruri tədbirləri görür: vətəndaşların hüquq və azadlıqlarının qorunması, irqindən, cinsindən, millətindən, dilindən, sosial mənşəyindən, dini etiqadından asılı olmayaraq vətəndaşların hüquq və azadlıqlarının qorunması, qanun qarşısında bərabərliyi təmin olunur. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, müasir Özbəkistanın dini həyatının mühüm fərqləndirici xüsusiyyəti digər dinlərə münasibətdə bir din üçün üstünlük və ya məhdudiyyətin qoyulmasının yolverilməz olmasıdır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında Özbəkistan ilə Azərbaycan arasında tarixi köklərə olan dostluq münasibətlərinə toxunub, ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrindən danışıb. Qeyd edib ki, ölkələrimiz arasında münasibətlərin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və bu gün dövlət başçısı tərəfindən uğurla davam etdirilir. Komitə sədri Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana rəsmi səfərini, eyni zamanda, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin 2019-cu il oktyabrın 14-də Azərbaycana etdiyi səfəri, burada Azərbaycan Prezidenti ilə görüşdüyünü və Türk Şurasının iclasında iştirak etdiyini xatırladıb.

Bildirilib ki, müstəqillik qazandıqdan sonra ölkələrimiz arasında çoxsaylı dövlətlərarası müqavilələr, münasibətlərimizi tənzimləyən sənədlər imzalanıb. Komitə sədri vurğulayıb ki, müasir Azərbaycan dünyəvi dövlətdir və ölkənin Konstitusiyası din və vicdan azadlığını tam təmin edir. Azərbaycan çoxmillətli və çox konfessiyalı ölkədir. Bu xüsusiyyət insanların dini inanclarına və tolerantlığın tarixi formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərib. Eyni zamanda, ölkəmizdə dinə yüksək səviyyədə dövlət qayğısı var və bu qayğı bütün konfessiyaları əhatə edir. Dövlətin qayğısı ibadət evlərinin təmiri, bərpası və əsaslı şəkildə qurulması, yenilərinin tikilməsi istiqamətində həyata keçirilir. 2016-cı ilin ölkəmizdə “Multikulturalizm İli”, 2017-ci ilin isə “İslam Həmrəyliyi İli” elan olunmasının təsadüfi olmadığına diqqət çəkən komitə sədri bununla bağlı ölkəmizdə və xaricdə çoxsaylı tədbirlərin keçirildiyini deyib. Eyni zamanda, IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsini İslam dünyasını bir araya gətirən, birləşdirən humanitar, siyasi, iqtisadi əlaqələrə təkan verən hadisə kimi qiymətləndirən Mübariz Qurbanlı bildirib ki, İslamda həmrəyliyə böyük ehtiyac var.

O, həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təkcə Azərbaycanda deyil, bütün dünyada milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına və dini ziyarətgahların yenidən qurulmasına xüsusi diqqət yetirdiyini qeyd edib. Bu da ölkəmizdəki tolerantlıq atmosferinin daha da gücləndirilməsinə mühüm töhfə verir.

Dinlərarası dialoqdan danışan sədr bildirib ki, prosesin yalnız müsbət tərəflərini bildirməklə kifayətlənməməliyik. Münaqişələri dini amillə əlaqələndirmək cəhdlərini də qınamalıyıq. Belə nümunələrdən biri də illərdir davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi - Dağlıq Qarabağ və ona bitişik 7 rayon işğal edilib. Bu ərazilərdə Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirilib, ermənilər bütün tarixi abidələrimizi, məzarlarımızı, o cümlədən məscidlərimizi dağıdıblar. BMT Təhlükəsizlik Şurasının münaqişə ilə əlaqədar olaraq, Ermənistan silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması ilə bağlı tamamilə açıq müddəaları olan 4 qətnaməsi hələ də yerinə yetirilməyib.

Mübariz Qurbanlı iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribata əl atan erməni hərbi birləşmələrinin artilleriya qurğularından istifadə edərək atəşkəsi kobud şəkildə pozduğunu diqqətə çatdırıb. Qeyd edib ki, hücum nəticəsində həm Azərbaycan Ordusunun hərbçiləri, həm də mülki şəxs həlak olub. Bu hadisə Ermənistanın işğalçılıq siyasətinin davamıdır. Azərbaycan ordusunun hərbi qüdrəti, qətiyyəti və cəsarəti sayəsində Ermənistanın məkrli və çirkli təxribatının qarşısı qətiyyətlə alındı.

Mübariz Qurbanlı bugünkü videokonfransda Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Özbəkistan Nazirlər Kabineti yanında Dini İşlər Komitəsi, həmçinin Azərbaycan İlahiyyat İnstitutu və Özbəkistan Beynəlxalq İslam Akademiyası arasında əməkdaşlıq memorandumları imzalanacağını qeyd edərək konfransın işinə uğurlar arzulayıb.

Özbəkistan Müsəlmanları İdarəsinin sədri müfti Usmonxon Alimov çıxış edərək videokonfransın mövzusunun əhəmiyyətindən danışıb, dini sahədə gələcəkdə hər iki ölkənin müvafiq qurumları arasında təcrübə mübadiləsinin aparılmasının önəmini vurğulayıb. Qeyd edib ki, hazırda bəzi qüvvələr İslam dininə qarşı düşmən münasibət formalaşdırmağa çalışır. Şübhəsiz ki, İslam dininə münasibətdə bu cür yanaşma əsassızdır və bu, İslam dəyərlərinin yanlış dərk edilməsindən irəli gəlir. Çünki İslam dinini dərk etdikcə onun humanizm, tolerantlıq, xoş rəftar, mərhəmət daşıdığının, yüksək əxlaqi dəyərləri təbliğ etdiyinin şahidi oluruq. Buna görə də iki ölkənin din siyasətini həyata keçirən qurumlar arasında əlaqələrin möhkəmləndirilməsi, birgə tədbirlərin keçirilməsi, eləcə də qarşılıqlı maraq kəsb edən digər məsələlər barədə müzakirələrin aparılması günün tələbidir.

Daha sonra Milli Məclisin deputatı, Parlamentin Azərbaycan-Özbəkistan dostluq qrupunun sədri Eldar İbrahimov çıxış edərək bildirib ki, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra siyasi, iqtisadi və sosial, dini sahədə də çətin və mürəkkəb bir vəziyyət yaranıb. Bu şəraitdə cəmiyyətin sabitliyini və müstəqil Azərbaycan dövlətinin təhlükəsizliyini təmin etmək üçün ölkə parlamenti bir sıra vacib normativ hüquqi aktları qəbul edib. Bu aktlardan biri də “Dini etiqad azadlığı haqqında” Qanundur. Bu qanun Azərbaycan Respublikasında hər bir insanın dinə münasibətini müəyyənləşdirmək və ifadə etmək, eləcə də bu hüquqdan istifadə etməyə zəmanət verir. Eyni zamanda, dinə dair bir sıra məsələlər Azərbaycan Respublikasının Konstitusiyasında da öz əksini tapmışdır.

O qeyd edib ki, respublikamızda belə mükəmməl bir tolerantlıq mühitinin yaradılması, dini dözümlülüyün İslamın və Azərbaycan xalqının xarakterik xüsusiyyəti və milli-mənəvi sərvətinin olmasına dəlalət edir. Müxtəlif dini konfessiyaların nümayəndələri həmişə Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirib, Azərbaycan Respublikasının azadlığı və rifahı üçün birgə mübarizə aparıblar. Azərbaycan xalqının dözümlülüyünün bu xarakterik keyfiyyətləri xüsusilə erməni təcavüzü dövründə aydın şəkildə özünü büruzə verdi. Azərbaycanlılarla birlikdə müxtəlif dini konfessiyalara və etnik xalqlara mənsub olan vətəndaşlarımız da Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarını fəda etdilər.

E.İbrahimov qeyd edib ki, 1991-ci ildə ikinci dəfə müstəqillik qazandıqdan sonra ölkəmiz müsəlman dünyası ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq qurub. Bu kontekstdə dost və qardaş Özbəkistanla qurulan münasibətlər böyük əhəmiyyət daşıyır və Özbəkistan Azərbaycanın strateji müttəfiqləri arasında xüsusi yer tutur. Əvvəlcə qeyd etmək istərdim ki, Azərbaycan və Özbək xalqları arasında tarixən bir çox ortaq dəyərlər inkişaf edib. Xalqlarımız arasında dostluq və anlaşma dərin kök salıb. Bizi linqvistik, dini, mənəvi və bir çox qardaşlıq və dostluq bağları bağlayır. Həyat və iqtisadiyyatın bütün məsələlərində hər zaman bir-birimizi dəstəkləyirik.

Videokonfransın birinci hissəsinin davamında Özbəkistan Respublikası Nazirlər Kabineti yanında Özbəkistanda İslam Sivilizasiyası Mərkəzinin Tədqiqat şöbəsinin müdiri Qulçexra Tulemetova, Özbəkistan Respublikası Ruhani və maarifçilik Mərkəzinin rəhbəri Minxojiddin Xojimatov çıxış edərək din sahəsində dövlət siyasəti istiqamətində təcrübə mübadiləsinin, dini ekstremizmin təzahürlərinin yayılmasının qarşısının alınması istiqamətində maarifləndirmə işlərinin aparılması, tolerantlıq mühitinin qorunub saxlanmasında birgə tədbirlərin keçirilməsi kimi müvafiq istiqamətlər barədə fikirlərini ifadə ediblər.

Beynəlxalq videokonfrans “Cəmiyyətdə dini tolerantlığın və harmoniyanın təmin edilməsi: Özbəkistan və Azərbaycan təcrübəsi”, “Müasir dövlətdə dini dəyərlərin saxlanılması və inkişafı”, “Müasir dövrdə İslam maarifçiliyi” mövzularında panel sessiyalarla davam edib. Milli Məclisin deputatları Cavanşir Paşazadə, Ceyhun Məmmədov, Anar İsgəndərov, QMİ sədrinin birinci müavini müfti Salman Musayev, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Daşkənd İslam İnstitutunun rektoru Uyqun Qafurov, Özbəkistan Müsəlmanları İdarəsi sədrinin birinci müavini Xomijon İşmatbekov, İmam Buxari Beynəlxalq Araşdırma Mərkəzinin direktoru Şovosil Ziyodov və başqaları mövzular ətrafında geniş məruzələrlə çıxış edərək beynəlxalq videokonfransın əhəmiyyətini, qarşılıqlı fikir və təcrübə mübadiləsinin vacibliyini bir daha diqqətə çatdırıblar.

Beynəlxalq videokonfrans zamanı Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Özbəkistan Respublikasının Nazirlər Kabineti yanında Dini Məsələlər Komitəsi arasında əməkdaşlıq haqqında Memorandum, eləcə də Azərbaycan İlahiyyat İnstitutu və Özbəkistan Beynəlxalq İslam Akademiyası arasında Anlaşma Memorandumu imzalanıb.

# Azərbaycandakı dini konfessiyaların rəhbərləri dünya ictimaiyyətinə, dini liderlərə və beynəlxalq təşkilatlara müraciət ünvanlayıblar

**Azərbaycandakı dini konfessiyaların rəhbərləri dünya ictimaiyyətinə, dini liderlərə və beynəlxalq təşkilatlara müraciət ünvanlayıblar.Bu barədə AZƏRTAC-a Qafqaz Müsəlmanları İdarəsinin mətbuat xidmətindən məlumat verilib. Müraciətdə deyilir:**

Biz - Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri iyulun 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatı, dinc əhalini, yaşayış yerlərini, dini məbədləri davamlı atəşə tutmasını qətiyyətlə pisləyir və dünya ictimaiyyətini, dini liderləri və beynəlxalq təşkilatları bu hadisəyə biganə qalmamağa, müvafiq mövqe nümayiş etdirməyə çağırırıq.

Biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair beynəlxalq səyləri dəstəkləyirik və beynəlxalq təşkilatları, o cümlədən BMT-ni, ATƏT-in Minsk qrupunu mülki şəxsləri hədəf seçən bu cinayəti törədənlərə qarşı adekvat münasibət göstərilməsi istiqamətində səylərini birləşdirməyə çağırırıq. İndiyədək qoşunların təmas xəttində və hazırda Azərbaycan-Ermənistan sərhədində çoxsaylı insan tələfatları səbəbindən Azərbaycan xalqının, xüsusən gənclərin kütləvi şəkildə orduya səfərbər olunub cəbhə xəttinə yollanmaq istəyi qürurverici vətənpərvərlik nümunəsidir, lakin biz din xadimlərini narahat edən məsələ Ermənistan tərəfindən hərbi təxribatlar davam edərsə, münaqişənin alovlanaraq böyük müharibəyə çevrilmə ehtimalıdır. Bu reallıq 30 ildən çox davam edən münaqişənin həlli ilə məşğul olan tərəflərin nəzərə almalı olduğu mühüm məqamdır. Bəzən işğalçı ilə işğala məruz qalan tərəfin eyniləşdirilməsi münaqişənin həllinə xidmət edə bilməz. Beynəlxalq hüquq və normalara riayət, istisnasız olaraq hamının borcudur. Dinc əhaliyə qarşı silah işlədilməsi Ermənistan dövlətinin davamlı hərbi təcavüzünün, Azərbaycan xalqına qarşı həyata keçirilən etnik təmizləmə və terror aktlarının davamıdır. Atəşkəs elan edilməsinə rəğmən, mülki əhalinin mütəmadi atəşə tutulması, qətlə yetirilməsi, ölüm təhlükəsi altında yaşamağa məcbur qoyulması, dini məbədlərin dağıdılması beynəlxalq müstəvidə təcavüzkara qarşı münasibəti kökündən dəyişməyin, növbətçi açıqlamalardan qətiyyətli addımlar atmaq mərhələsinə keçməyin vaxtının çoxdan çatdığını bir daha sübuta yetirir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin böyüyərək dünyanın müxtəlif qitələrinə, o cümlədən Avropa, Amerika müstəvisinə keçməsi, xarici ölkələrdə yaşayan azərbaycanlılar və ermənilər arasında etnik zəmində qarşıdurma hallarının yaşanması olduqca böyük təhlükənin göstəricisidir. Bu, separatizm, terror dalğası üzərində yaranmış, uzun müddət ədalətli həllini tapmayan regional konfliktin qlobal miqyas kəsb etməsinin acı təzahürüdür. Ermənilərin xaricdəki Azərbaycan diasporunu və diplomatik nümayəndəliklərimizi hədəf alması, üzərinə hücum etməsi həll olunmamış konfliktin fəsadlarıdır və dünya ictimaiyyəti buna biganə qalmamalıdır.

Birləşmiş Millətlər Təşkilatı bu günədək beynəlxalq hüququn və fundamental insan haqlarının keşiyində ardıcıl duran beynəlmiləl qurumdur. Bu il yaranmasının 75-ci ildönümü tamam olan BMT kimi mötəbər beynəlxalq strukturun Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair 4 qətnaməsinin tələbləri Ermənistan tərəfindən bu günədək yerinə yetirilmir. Bu qətnamələrin reallaşmasını təmin edəcək addımların düşünülməsi BMT-nin şanlı yubileyi ərəfəsində nüfuz və dəyərinin daha da artmasına xidmət edən məqam olardı.

Dünyanı məhvərindən çıxmağa qoymayan əbədi bəşəri dəyərlərə istinad edən din xadimləri bütün dünyada hər zaman sülh və anlaşma tərəfdarı kimi çıxış etməlidirlər. Vətənimiz Azərbaycan müxtəlif din ardıcıllarının dinc birgəyaşayışının gündəlik həyati reallıq, multikulturalizmin həyat tərzi olduğu nadir ölkələrdəndir. O bir olan Yaradanımız qarşısında məsuliyyətimiz bizi - dini konfessiya rəhbərlərini sülh və mövcud problemlərin ədalətli həlli naminə səyləri dəstəkləməyə sövq edir. Lakin sülh və anlaşmaya nail olmağın yolu asan deyil və çoxlu zəhmət, güclü iradə, səylərin birləşdirilməsini tələb edir.

Münaqişə başlayan zamandan etibarən Rus Pravoslav Kilsəsinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan dini liderlərinin dəfələrlə sülhməramlı görüşləri baş tutub. Sülh və dinc yanaşı yaşamağa nail olmaq üçün qarşılıqlı etimadın gücləndirilməsi məqsədilə ünsiyyətlərin nəticəsi olaraq münaqişənin dinlərarası müstəviyə keçməsinin qarşısı alınıb. Etibarlı sülh yalnız xoş məram və səmimi niyyət olarsa, mümkündür. Lakin, təəssüflər olsun ki, erməni tərəfinin təxribatları növbəti dəfə münaqişənin sülh yolu ilə həll olunması istiqamətində danışıqlar prosesinin pozulmasına gətirib çıxarır. Bu təxribatın bütün siyasi və hüquqi məsuliyyəti Ermənistan tərəfinin üzərindədir.

Bütün səmavi dinlər dinc, günahsız insanların qətlini ən ağır cinayət kimi qiymətləndirir. Biz beynəlxalq ictimaiyyəti Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsi, onun ətrafındakı 7 rayonumuzda, həmçinin hazırda Azərbaycan-Ermənistan sərhədində törətdiyi hərbi təxribatlar zamanı dinc insanların qətli kimi qəbuledilməz bir hala qarşı öz qətiyyətli münasibətini bildirməyə, təcavüz və təxribat hallarını kəskin qınamağa çağırır, bu kimi halların qarşısının alınması, ədalətli sülhün bərqərar olması naminə səyləri birləşdirməyə çağırırıq. Yaradanımız qarşısında, xalqlarımız qarşısında borc və məsuliyyətimiz biz dini liderləri sülh, mərhəmət və mövcud problemlərin ədalətli həlli naminə səy göstərməyə məsul edir. Bu əsnada, dünya katoliklərinin lideri Roma Papası Zati-müqəddəsləri Fransiskin Qafqaz regionunda Ermənistan və Azərbaycan arasında hərbi gərginliyin kəskinləşməsindən narahatlığını, son döyüşlərdə ölənlərin ailələri üçün dua etməsini yüksək dəyərləndirir, Pontifik həzrətlərinin təbirincə desək, beynəlxalq ictimaiyyətin köməyi ilə “dialoq və tərəflərin xoş istəyi ilə bu sevimli xalqların xeyrinə münaqişənin davamlı sülh ilə həll yolu əldə edilə biləcəyinə” ümidini bölüşürük.

Ümidvarıq ki, dünya dini liderlərinin, beynəlxalq təşkilatların səyləri və dünya ictimaiyyətinin dəstəyi ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq norma və prinsipləri əsasında tezliklə öz ədalətli həllini tapacaqdır.

Uca Yaradan Yer üzündə sülhü və əmin-amanlığı bərqərar etsin. Amin.

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
*Qafqaz Müsəlmanları İdarəsinin sədri*

***Arxiyepiskop ALEKSANDR,***
*Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri*

***Melih YEVDAYEV,***
*Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri*

***Robert MOBİLİ,***
*Alban-udi xristian dini icmasının sədri*

# Diasporla İş üzrə Dövlət Komitəsi soydaşlarımızın xarici ölkələrdə keçirdikləri dinc aksiyalar zamanı ermənilərin törətdikləri təxribatlarla bağlı bəyanat yayıb

**Diasporla İş üzrə Dövlət Komitəsi soydaşlarımızın xarici ölkələrdə keçirdiyi dinc aksiyalar zamanı ermənilərin törətdikləri təxribatlarla bağlı bəyanat yayıb. Bu barədə AZƏRTAC-a Komitənin mətbuat xidmətindən məlumat verilib.**

Bəyanatda deyilir: Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar Ermənistanın işğalçılıq siyasətinə, Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində törədilən erməni təxribatlarına etiraz əlaməti olaraq mütəşəkkil şəkildə aksiyalara başlayıb. Sevindirici haldır ki, soydaşlarımız güclü birlik nümayiş etdirərək dünya dövlətlərindən və beynəlxalq təşkilatlardan Azərbaycan torpaqlarının işğaldan azad edilməsini və Ermənistanın işğalçılıq siyasətinə son qoyulmasını tələb edir.

Azərbaycan Ordusunun Ermənistanın hərbi təxribatlarına layiqli cavab verməsinin ardından soydaşlarımızın beynəlxalq aləmdə, kütləvi, sivil, icazəli aksiyalara başlaması, cəbhədə olduğu kimi, dünyada da erməniləri ciddi təşvişə salıb. Ermənistanın uzun illərdir dünya dövlətlərini aldatması soydaşlarımızın birliyi sayəsində ifşa edilir, əsl həqiqətlər real faktlar əsasında dünyaya bəyan olunur.

Soydaşlarımız Ermənistanın işğalçılıq siyasətinin, təxribat hallarının dayandırılması ilə bağlı BMT, ATƏT və digər beynəlxalq təşkilatlara, eləcə də dünyanın aparıcı ölkələrinin rəsmi dairələrinə onlarla müraciət ünvanlayıb, ümumilikdə 25 ölkədə yaşayan azərbaycanlılar 84 bəyanatla çıxış ediblər.

Məhz soydaşlarımızın fəallığı nəticəsində 24 ölkədə 18 dildə 94 məqalə və xəbər çap edilib, sosial şəbəkələrdə həqiqətləri özündə əks etdirən 10 minlərlə informasiya paylaşılıb. Ümumilikdə 26 ölkədə 20000-dən çox soydaşımızın iştirak etdiyi 58 aksiya keçirilib.

Dünya dövlətlərində səsləndirilən “Qarabağ Azərbaycandır!”, “Qarabağ bizimdir, bizim olacaq!”, “Ermənistanın işğalçı siyasətinə son qoyulsun” şüarlarından, yalanlarının ifşa olunmasından hiddətlənən ermənilər öz məkrli niyyətlərini beynəlxalq aləmdə də davam etdirməyə cəhd göstərirlər.

Ermənilər Azərbaycanın müxtəlif ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin qarşısında icazəsiz aksiyalar təşkil edir, azərbaycanlıların təşkil etdiyi icazəli aksiyalarda təxribatlar törətməyə çalışırlar. Təəssüf ki, bəzən erməni barbarlığı soydaşlarımızın xəsarət almasına, şəxsi əmlaklarına zərər dəyməsinə, diplomatik nümayəndəliklərə maddi ziyan vurulmasına gətirib çıxarır, bunun da adekvat cavabı verilməkdədir.

Bildiririk ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına əsasən, soydaşlarımızla mütəmadi əlaqə saxlanılır, onların pozulmuş hüquqlarının yaşadıqları ölkələrin qanunları çərçivəsində və beynəlxalq hüquq normaları əsasında bərpası, eləcə də dəymiş maddi və digər zərərin aradan qaldırılması üçün bütün mümkün addımlar atılır.

Soydaşlarımızı ayıq-sayıq olmağa çağırırıq və onlara haqq işində bütün dəstəyi göstərməyə hazır olduğumuzu bildiririk.

Diasporla İş üzrə Dövlət Komitəsi erməni yalanlarının ifşası, Ermənistanın işğalçı siyasətinin, törədilən təxribatların dünya birliynə, beynəlxalq ictimaiyyətə çatdırılması yolunda göstərdiyi mütəşəkkilliyə görə xaricdə yaşayan soydaşlarımıza dərin təşəkkürünü bildirir.

Xaricdə yaşayan azərbaycanlılar Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, erməni təxribatlarına son qoyulması üçün yaşadıqları ölkələrin qanunları çərçivəsində icazəli aksiyaları davam etdirmək niyyətindədir və daha 14 ölkədə də aksiyaların keçirilməsinə icazə alınması üçün müraciət olunub.

Bununla yanaşı, soydaşlarımız hüquqi müstəvidə mübarizəni davam etdirməli, beynəlxalq təşkilatlara ünvanlanan bəyanatların, müraciətlərin sayı daha da artırılmalıdır. Biz öz sözümüzü dünya mediasında deməli, Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi təxribatları, işğal faktlarını dolğun, dəqiq məlumatlarla çatdırmalıyıq.

Biz dünya azərbaycanlılarının hər bir istiqamət üzrə haqq səslərini qaldırmalarını başa düşür, ermənilərin təxribatçı hərəkətlərini, vəhşiliklərini ifşa edərək yaşadıqları ölkələrdə hüquqi müstəviyə daşımalarını məqsədəuyğun sayır və soydaşlarımızı erməni təxribatlarına uymamağa çağırırıq”.

# Biz birlikdə güclüyük!

## Azərbaycanda koronavirusla mübarizədə lazımi işlər görülür

### Vətəndaşların qaydalara əməl etməsi sayəsində yoluxma sayında sabitləşməyə nail olunub

Bəşəriyyət mövcudluğu boyunca müxtəlif növ viruslarla, epidemiyalarla üz-üzə gəlib. Məsələn, taun, vəba, yatalaq, müxtəlif növ qrip virusları və s. Milyonlarla insanın ölümünə səbəb olan bu xəstəliklərin əksəriyyəti hazırda tarixin qaranlıq səhifələrinə qərq olub. Lakin dəhşətli epidemiyalar müasir tibbin xeyli irəli getdiyi XX və XXI əsrlərin də bəlasına çevrilib. Elm bir çox ciddi xəstəliyin peyvəndini kəşf etmiş olsa da, yeni üzə çıxan viruslar qarşısında çarəsiz qalıb. Necə ki, aylardır yeni tip koronavirus, COVID-19 adlı bəla önündə acizdir.

Son bir neçə aydır bəşəriyyət koronavirus pandemiyasına qarşı savaşa qalxsa da, hələ də ona qalib gələ bilmir. Görünən odur ki, peyvənd tapılana qədər vəziyyət belə də davam edəcək. O zamana kimi isə virusla mübarizənin ən effektiv yolu karantin rejimi, sosial təcriddir. Heç də təsadüfi deyil ki, karantin rejimini yumşaldan, məhdudiyyətləri aradan qaldıran ölkələrdə COVID-19 yenidən alovlanaraq sürətlə yoluxdurma sayını artırır və dövlətlər qapanmağa məcbur olurlar.

Digər yandan isə koronavirus vaksini haqda yaxın günlərdə təsəlliverici xəbər gözlənilir. Düzdür, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 23 "ümidverici vaksin-namizəd"in işlənib hazırlanma mərhələsində olduğunu, iki tədqiqatın, o cümlədən Oksford Universiteti alimlərinin məhsulu haqqında materialların artıq elmi jurnallarda dərc edildiyini açıqlayıb. Lakin söhbət yalnız sınaqların ilk mərhələsindən gedir və qarşıda hələ uzun yol var.

ÜST rəhbəri Tedros Cebreyesus isə qeyd edib ki, həyatı xilas etmək üçün vaksin gözləmək lazım deyil. Təbii ki, vaksinlərin hazırlanmasını sürətləndirməyə çalışmalı, eyni zamanda infeksiyanı dayandırmaq üçün əlimizdə olan bütün vasitələrdən istifadə etməliyik: "Karantin tədbirləri koronavirus infeksiyasının yayılmasını ləngitməyə kömək edir. Lakin epidemiyanı dayandırmaq üçün yeni yoluxma mənbələrini tapmaq, yoluxmuş insanlarla təmasda olanları müəyyənləşdirmək və onları təcrid etmək çox vacibdir".

T.Cebreyesusun sözlərinə görə, pandemiyaya qarşı mübarizədə ən vacib vasitələrdən biri yoluxmuş şəxslərlə təmasda olanların təcrid olunmasıdır. İstənilən şəraitdə bu, hər bir ölkə üçün vacib məsələdir. Bu, lokal koronavirus ocaqlarının ətrafa yayılmasının qarşısını vaxtında almağa imkan verir.

#### Ölkədə koronavirusa yoluxma sayında sabitləşməyə nail olunub

Azərbaycandan da yan keçməyən qlobal təhlükəyə ölkəmizdə də mümkün effektiv və zəruri tədbirlər ardıcıllıqla həyata keçirilir. Dövlətimiz vətəndaşların sağlamlığını, təhlükəsizliyini qorumaq, virusun kütləvi yayılmasının qarşısını almaq üçün bütün imkanlardan istifadə edir. Mövcud sanitar-epidemioloji vəziyyətə uyğun addımlar atılır.

Hazırda da infeksiyanın yoluxma dinamikası ilə bağlı ölkədəki vəziyyət təhlil edilərək lazımi işlər görülür. 5 avqustadək davam edəcək sərtləşdirilmiş xüsusi karantin rejimi çərçivəsində bu həftəsonu da Bakı, Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərində, eləcə də Abşeron, Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Siyəzən və Şəki rayonlarında ictimai nəqliyyatın hərəkəti dayandırılacaq.

Vətəndaşlar bilməlidirlər ki, sərt karantin rejimi sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamaq, yoluxma zəncirini qırmaq baxımından olduqca əhəmiyyətlidir. Son günlər əhali arasında infeksiyaya yoluxma dinamikasında azalmaların müşahidə edilməsi, sağalanların sayının xeyli artması da qabaqlayıcı tədbirlər sayəsində əldə olunub. Vətəndaşların qoyulan qaydalara əməl etməsi də ölkəmizdə yeni növ koronavirusa qarşı əldə olunan nailiyyətlərin əsasında dayanır. Bu bir reallıqdır ki, əhalimizin qaydalara əməl etməsi sayəsində yoluxma sayında sabitləşməyə nail olunub, rəqəmlər müsbətə doğru dəyişib. Hazırda ölkədə COVID-19 infeksiyası nəzarət altındadır. Müsbər dinamika bu şəkildə davam edərsə, avqustun 5-dən sonra müəyyən yumşaldılmalar həyata keçirilə bilər.

#### Təcili Tibbi Yardım xidmətinə COVID-19-la bağlı müraciətlərin sayı azalıb

Bakı Şəhər Baş Səhiyyə İdarəsinin (BŞBSİ) rəisi Nelli Veysova ölkədə koronavirus infeksiyasının yayılmasının ən qızğın vaxtında stasionar tibbi yardım xidmətlərinin üzərinə düşən yükün azaldılması məqsədilə yaradılmış tibbi məntəqələrinin sayı və vəzifələri haqqında məlumat verərəkən bildirib ki, Səhiyyə Nazirliyi nəzdində olan işçi qrupu tərəfindən Bakı şəhərində 87 tibb müəssisəni əhatə edən 39 tibb məntəqəsi yaradılıb. Məntəqələrin iş vaxtı səhər saat 08:00-dan axşam saat 20:00-dəkdir. Axşam saat 20:00-dan sonra isə 103 nömrəsinə zəng etmək lazımdır. Amma xəstənin stasionar müalicəsinə göstəriş olan təqdirdə o, mütləq hospitalizasiya olunmalıdır. Hər bir məntəqədə Ə. Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda təlim keçən 11 nəfər tibb işçisi çalışır. Məntəqələrin fəaliyyəti Çağrı Mərkəzindən müraciətlərin qəbulu, dislokasiyaları üzrə müəssisələrə ötürülməsi və vətəndaşların sahə həkimi ilə əlaqəsinin yaradılmasından ibarətdir.

BŞBSİ-nin rəisi şəhər poliklinikalarının sahələrində təşkil edilmiş tibb məntəqələrinin göstərdiyi səyyar xidmətinin kəsintisiz işini təmin etmək məqsədilə hər məntəqə üçün bir ədəd xüsusi nəqliyyat vasitəsinin ayrıldığını da deyib. Onun sözlərinə görə, artıq istifadəyə verilmiş 40 avtomobil vasitəsilə hər gün saat 08:00-dan 12:00-dək evdə olan xəstələrdən test yaxmaları götürülür, məntəqələrə gətirilir, orada barkodlaşdırılıb, laboratoriyalara çatdırılır, xəstələrə dərman preparatları verilir.

N.Veysova hal-hazırda COVID-19-la bağlı gələn müraciətlərin sayı haqqında da məlumat verib. O, Təcili Tibbi Yardım xidmətinin COVID 19-la bağlı müraciətlər sayının 25 faizə qədər, ağır xəstələrin müraciətlər sayının isə 30 faizə qədər azalmasını müsbət nəticə kimi qeyd edib.

N.Veysova xatırladıb ki, virusa yoluxma şübhəsi olan vətəndaş dərhal sahə həkiminə müraciət etməli, virusun yayılmasına yol verməmək üçün poliklinikaya gəlməməlidir: "Sahə poliklinikalarının telefon nömrələrini Səhiyyə Nazirliyinin saytından öyrənmək mümkündür. Amma lazım olan nömrə tapılmadığı təqdirdə xəstə 814 nömrəsinə zəng etməlidir və bununla onun sahə həkimi ilə əlaqəsi təmin olunacaq. 814 nömrəli Çağrı Mərkəzi cari ilin iyul ayından etibarən fəaliyyət göstərir. Bu nömrə vasitəsilə əlaqə saxlayıb, məlumat və məsləhət almaq mümkündür. Hazırda 814-ə gələn sualların əksəriyyəti təkrar testlərin götürülməsi, xəstəlik vərəqələrinə və sağlamlıq haqqında arayışların verilməsinə aiddir".

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

*Əvvəli 1-ci səh.*

Bölgələri də əhatə etməklə ölkədə 2000 çarpayılıq 10 modul tipli xəstəxananın quraşdırılmasına başlandı və onlardan əksəriyyəti artıq istifadəyə verilib. Gələcəkdə daha 10 modul tipli xəstəxananın quraşdırılması da planlaşdırılır.

Koronavirusun yayılma coğrafiyasının azalmasında xəstəliyin erkən aşkarlanması xüsusilə əhəmiyyətlidir. Bu sahədə də ölkəmiz əsaslı işlər gördü. Qısa zamanda ən müasir standartlara cavab verən laboratoriyalar alındı və onların sayı xeyli artırıldı. Qeyd edək ki, hazırda xəstəliyin müəyyənləşdirilməsi üçün ümumilikdə aparılan test sayı 650 mindən çoxdur.

Həmçinin ölkəmizdə qoruyucu vasitələrin, dezinfeksiya vasitələrinin istehsalı təşkil olundu və qısa müddətdə bu sahədə olan problem aradan qaldırıldı. Əhalinin sosial təminatının, iqtisadiyyatın dayanıqlılığının təmin edilməsi, sahibkarlara yardım məqsədilə zəruri tədbirlər görüldü, bunlara görə də milyardlarla vəsait ayrıldı.

Məhz bu tədbirlərin nəticəsidir ki, dünyanın ən inkişaf etmiş ölkələrində yaranmış acınacaqlı vəziyyət Azərbaycanda müşahidə olunmadı.

Son zamanlar yoluxma sayında müşahidə edilən müsbət dinamika isə, pandemiya ilə mübarizənin daha uğurlu mərhələlərə daşındığından xəbər verir. Bu isə zamanında tətbiq edilən sərt karantin rejimi sayəsində əldə olunub.

#### Yoluxma sayının azalması normal həyata dönüşümüzü sürətləndirəcək

Vaxtaşırı ölkədəki sanitar-epidemioloji vəziyyət dəyərləndirilərək uyğun tədbirlər görülür. Buna görədir ki, yoluxma riski yüksək olan 14 şəhər və rayonumuzda avqustun 5-dək sərtləşdirilmiş karantin rejimi tətbiq olunub. Xüsusi karantin rejimi qaydalarına uyğun olaraq həftə sonları ictimai nəqliyyatın fəaliyyəti də dayandırılır.

Bunlarla yanaşı, xüsusi karantin rejimi tətbiq olunan rayon və şəhərlərin ərazisindəki məhdudiyyətlərə bəzi yumşalmalar da tətbiq olunub. Belə ki, 20 iyul tarixdən etibarən masaj və hamam xidməti istisna olunmaqla, bərbərxana, gözəllik salonlarının və kosmetik xidmətlərin fəaliyyətinə icazə verilib. Yaşayış yerini və olduğu yeri tərk etmək üçün SMS icazənin müddəti 2 saatdan 3 saatadək artırılıb.



## Azərbaycan qısa zamanda pandemiyaya qarşı döyüş hazırlığına gətirildi

### Müsbət dinamika virusla mübarizənin daha uğurlu mərhələlərə daşındığından xəbər verir

Sevindirici haldır ki, hazırda pandemiya səbəbindən təxirə salınan qəbul və buraxılış imtahanları da koronavirusun tələb etdiyi qaydalara əməl etmək şərti ilə həyata keçirilir. Ölkəmizdə COVID-19-a yoluxma sayının getdikcə azalması normal həyata dönüşümüzü də sürətləndirir. Sosial məsafə saxlamaq, maska taxmaq, gigiyena şərtlərinə və qoyulan qaydalara əməl etmək bizi peyvənd tapılana qədər koronavirusun yarada biləcəyi hər cür mənfi ssenaridən qoruyur və qoruyacaq.

Danılmaz faktdır ki, hazırda virusun varlığını inkar edib yoluxma riskini artırmaqdansa, onun diktə etdiyi şərtlərə uyğun yaşamaqla özümüzün, doğmalarımızın, ümumilikdə xalqımızın həyatını xilas etmiş, genefondumuzun da keşiyində dayanmış olarıq.

#### Qaydalara əməl etmək vacibdir

Amma nə yazıq ki, bəzi vətəndaşların məsuliyyətsiz davranışı həm özlərinin, həm də digərlərinin həyatını təhlükə altında qoyur. Təəssüf ki, evdə nəzarətdə olan koronaviruslu xəstələrin qanunsuz halda evlərini tərk edərək ictimaiyyət arasına çıxması kimi yolverilməz davranışlar sərgilədiklərinin də şahidi oluruq. Təbii ki, həmin şəxslər tələb olunan qaydada məsuliyyətə cəlb olunurlar. Amma bu reallıqdır ki, heç bir cəza onların yol açacaqları fəsadları aradan qaldırmağa qadir deyil.

Eyni zamanda karantin rejiminin qaydalarına əməl etməyən vətəndaşlarımız da var. Belə ki, Bakı, Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərində, Abşeron, Bərdə, Xaçmaz, Goranboy, Göygöl, Siyəzən və Şəki rayonları ərazisində tətbiq edilmiş sərtləşdirilmiş xüsusi karantin rejiminin pozulmasına görə iyulun 23-ü və 24-nə olan müddət ərzində nəqliyyat vasitələri ilə hərəkətdə olan 857, sərnişindaşımada istifadə olunan taksi və avtobuslarda tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə edilmədiyinə görə 73 nəfər inzibati məsuliyyətə cəlb edilib.

Baş Dövlət Yol Polisi İdarəsindən verilən məlumata görə, qeyd olunan müddət ərzində 125-i rayon, 105-i paytaxt istiqamətinə olmaqla 230 avtomobil geri qaytarılıb.

#### Vətəndaşının sağlamlığı və təhlükəsizliyi dövlətin qarşısına qoyduğu prioritet vəzifə və müqəddəs borcdur

Sadalanan və daha bu kimi bir çox qayda pozuntusu və məsuliyyətsiz davranışlar isə qətiyyən yolverilməzdir. Aylardır vətənimizdə koronavirusa qarşı gərgin mübarizə aparılır. Mərhələli şəkildə ölkəmizdən COVID-19-un ayağını kəsmək üçün çevik tədbirlər görülür. Dövlət əhalimizin sağlamlığı və təhlükəsizliyinin etibarlı qorunması üçün bütün qüvvəsini səfərbər edib. İnsanların maddi sıxıntı çəkməməsi üçün hər bir vətəndaşına maddi dəstək verir. Eyni zamanda xaricdə yaşayan vətəndaşlarımızın problemlərini həll edir, onların ölkəyə gətirilmələri istiqamətində mühüm işlər həyata keçirir.

Operativ şəkildə səhiyyə sistemimizin, sözün əsl mənasında, pandemiya ilə döyüş hazırlığına gətirilməsi isə virusa yoluxan 20 mindən çox vətəndaşımızın sağaldılmasına, ağır, ümidsiz xəstələrimizin həyata dönməsinə imkan verib. Bu, sadəcə statistika deyil, dəyəri heç bir qiymətli xəzinə ilə ölçülməyəcək insan həyatlarıdır. Azərbaycan xalqının hər bir nümayəndəsinin sağlamlığı, təhlükəsizliyinin təmini dövlətin qarşısına qoyduğu, həmçinin həyata keçirdiyi prioritet vəzifə və müqəddəs borcdur.

Ölkəmizin vətəndaşları da bu həssas zamanlarda dövlətimizin gördüyü işlərə dəstək verib qaydalara əməl etməlidirlər ki, Azərbaycan bu bəladan qurtulsun.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




## Azərbaycanda koronavirusdan daha 573 nəfər sağalıb,332 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 573 nəfər sağalıb, 332 yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 29 min 312 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 21 min 547 nəfər müalicə olunaraq sağalıb, 400 nəfər vəfat edib. Aktiv xəstə sayı 7365 nəfərdir. Ötən müddət ərzində 667 min 819 test aparılıb. Dünənki test sayı isə 9037-dir.

## Bu il 12 min işsiz şəxs özünüməşğulluq proqramına cəlb ediləcək

Özünüməşğulluq proqramının əhatə dairəsinin genişləndirilməsi və icrasının sürətləndirilməsi işləri davam etdirilir. Bu il ərzində 12 min işsiz şəxsin proqrama cəlb edilməsi planlaşdırılır. Artıq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 3700-dən çox vətəndaş həmin proqrama cəlb edilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, özünüməşğulluq proqramının genişləndirilməsində bu il Dünya Bankı ilə birgə layihə həyata keçiriləcək. Layihə çərçivəsində hər il 5 min, bu il isə 2 min ailənin özünüməşğulluğu təmin ediləcək. Həmçinin nazirlik tərəfindən BMT-nin İnkişaf Proqramı ilə əməkdaşlıq çərçivəsində 500 nəfər əlilliyi olan şəxsin aktivlərlə təmin edilməsi işləri həyata keçirilir.

Özünüməşğulluq proqramına dəstək məqsədilə Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi ilə əməkdaşlıq da bu il üzrə davam etdiriləcək. Belə ki, 2020-ci ildə daha 250 ailə üçün bağçılıq təsərrüfatlarının yaradılması nəzərdə tutulub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mərkəzi Bankı və Azərbaycan Banklar Assosiasiyası arasında həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə köməklik göstərilməsi sahəsində əməkdaşlığa dair memoranduma əsasən özünüməşğulluq proqramının genişləndirilməsində banklarla da əməkdaşlıq edilir. Artıq 200-dən çox




proqram iştirakçısına seçdiyi fəaliyyət sahəsi üzrə kiçik biznesini qurmaq üçün banklar tərəfindən mal və materiallar formasında aktivlər təqdim edilib.

## Muxtar respublikada ümumi daxili məhsul istehsalı 1 milyard 310 milyon manatı ötüb

Bu ilin ilk yarımilində inkişafı xarakterizə edən əsas göstərici kimi muxtar respublikada ümumi daxili məhsul istehsalı 1 milyard 310 milyon 168 min 700 manat olub ki, bu da bir il öncəki göstəricidən 1,1 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,7 faiz artaraq 2 min 847,6 manat olub. Ümumi daxili məhsulun tərkibində ilk yeri 30,1 faizlik payla sənaye sahəsi tutub və maddi istehsalın payı 58 faiz təşkil edib. Muxtar respublikada həyata keçirilən uğurlu iqtisadi siyasət sənayeləşmə prosesini daha da sürətləndirib, rəqabətədavamlı və ixracyönlü məhsullar istehsal edən yeni müəssisələr yaradılıb.

Bu ilin yanvar-iyun aylarında muxtar respublikada 561 milyon 563 min 200 manat dəyərində sənaye məhsulu istehsal olunub ki, bu da bir il öncəki göstəricini bir faiz üstələyib. Sənaye məhsulu istehsalının 96,3 faizi malların, 3,7 faizi isə xidmətlərin payına düşüb. İstehsal olunan sənaye məhsulunda özəl bölmənin payı 94,2 faiz təşkil edib ki, bu da ölkənin digər iqtisadi rayonları ilə müqayisədə ən yüksək göstəricidir.

2020-ci ilin ilk yarımilində muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 69 layihə üzrə istehsal və xidmət obyektləri yaradılıb, 46 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması hazırda davam etdirilir.

Sənayenin inkişafı məqsədilə bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə bu ilin yanvar-iyun aylarında 11 milyon 260 min manat kredit verilib ki, bu da bir il öncəki göstəricidən 2,6 dəfə çoxdur.

Sənayedə istehsalın həcminin artması nəticəsində 2020-ci ilin yanvar-iyun aylarında 152 milyon 23 min 700 ABŞ dolları dəyərində sənaye məhsulları ixrac olunub.


## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - "Aztelekom" MMC tərəfindən iki il müddətinə 2000 m2 qapalı sahəsi olan anbarın icarəsinin satın alınması

İştirak haqqı: 200 manat

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını "ASAN ödəniş" sistemi vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu etender.gov.az vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **19 avqust 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **27 avqust 2020-ci il saat 18:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **28 avqust 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

# *Rəna xanım Paşayevanın xatirəsinə:* "Əlvida, gözəl insan"

**Biz onunla "Əli və Nino" kafesində görüş təyin etmişdik. 2009-cu il idi. Rəna xanım Parisdən yenicə qayıtmışdı. Parisdə UNESCO Rəna xanımın atası - böyük alim Musa Əliyevin doğum gününü təntənə ilə qeyd etmişdi. Mən ondan bu mövzuda müsahibə götürmək niyyətində idim. Zala zərif, təbii, ingilissayağı eleqant geyimdə bir xanım daxil oldu. Zahiri görkəmi yaşına uyğun və çox ciddi idi. Bir sözlə, qüssəli eleqant xanım. Biz masalardan birinin arxasında əyləşib söhbətə başladıq. Masa arxasına keçərək, dedim:**



**- Rəna xanım, fikirləşirəm, sizə hansı sualı verim ki, üzünüz gülsün.**

Görünür, bu sualım çox gözlənilməz olmuşdu. Rəna xanım gülümsədi: "Ümumiyyətlə mən nadir hallarda gülürəm". - "Nə üçün?" - "Bilmirəm, uşaqlıqdan qüssəli xarakterim olub. Yəqin ki, çox tez yaşlaşmışam".

Əlbəttə, burada zaman və genlər öz təsirini göstərmişdi. Rəna Paşayevanın babaları və ulu babaları arasında siyasətçilər, diplomatlar, maliyyəçilər, din və maarif xadimləri olub. Onlardan ən məşhuru - babası Məmmədtağı Əlizadə çar hökumətinin naziri, Rusiyanın Almaniyadakı elçisi, 1-ci Dövlət Dumasının deputatı, "Hümmət" Partiyasının əsasını qoyanlardan biri, "Əkinçi" qəzetinin fəal yazarı olub. 1918-ci il Şamaxı hadisələri zamanı daşnaklar tərəfindən diri-diri yandırılıb. Ailəsi xilas olmaq üçün qaçmağa məcbur olub.

- Bu "Şamaxı qaçqını" hissi anama ömrünün sonuna qədər əzab verirdi. Atama görə qorxu hissi də onu heç vaxt tərk etmirdi, - Rəna xanım dedi. - Ağır illər idi. Ötən əsrin bütün repressiyaları bizim ailədən də yan keçməyib.

## Atası, onun dostları və o dövrün qorxusu barədə

Rəna xanımın atası Musa Əliyev dünya şöhrətli alim olub. Bu azərbaycanlı alim rusiyalılara geologiya elminin əlifbasını öyrədib, əlcəzairlilərə neftlə zəngin olan Böyük Səhranın sirlərini açıb, Yura dövründə naməlum personajı axtarıb tapıb, Mezozoy dövrünün faunasının stratiqrafiyasına aid sanballı əsərlər dərc etdirib, Meksika, Danimarka, Hindistan və Livanda elmi konfranslarda çıxış edib. Ötən əsrin 30-cu illərinin ortalarından başlayaraq Azərbaycanda yüksək vəzifələr tutub: Dövlət Plan Komitəsinin sədri, Nazirlər Soveti sədrinin müavini, Milli Elmlər Akademiyasının prezidenti və sair. Ona ehtiyac duyurdular, çünki o, yüksək səviyyəli peşəkar idi. Lakin hər bir plenumda - yeni layihənin icrasının başlanması müzakirə edildə də, Səməd Vurğunun müdafiəsindən və ya özünün cavabdeh olduğu bir yatağın işlənməsindən söhbət gedəndə də respublikanın rəhbəri Mircəfər Bağırov hədələyici tərzdə xəbərdarlıq edirdi: "Sən ağarmış başını Solovkidə qoyacaqsan".

- O vaxt rəhbərlik stili belə idi, - deyə Rəna xanım dəqiqləşdirdi. - Bugünkü nəsil Solovki barədə heç nə bilmir, amma biz bilirdik. Bu dəhşətli sürgündən, demək olar ki, heç kəs qayıtmırdı. Atam, adətən, mülayim, xoşrəftar adam idi, amma belə günlərdə qanı qaralırdı və biz - uşaqlar, bilirdik ki, ona yaxınlaşmasaq, yaxşıdır. Anamla o, qapını bağlayıb nəyisə sakitcə müzakirə edirdilər. Ən lazımlı əşyaların yığıldığı balaca çamadan həmişə hazır vəziyyətdə idi.

**- O, Bakıdan köçüb getməyə hazırlaşırdı?**

- O, həbs olunmağa hazır idi. Bilirdi ki, növbəti "təmizləmə" siyahısında Səməd Vurğun, Mirzə İbrahimov və Musa Əliyevin adları var.

...O illərin repressiyaları barədə çoxlu proqram hazırlamışam və bir məsələ məni həmişə narahat edirdi. Rəna Paşayevaya həmin sualla müraciət etdim: "Nə üçün ağıllı adamlar onlara divan tutulmasını belə sakitcə gözləyirdilər? Nə üçün cəlladlardan qaçmırdılar?".

- Hara qaçaydılar?! Qırxıncı illərin əvvəlində atamı Moskvaya, SSRİ Xalq Neft Komissarlığının Elm İdarəsinə rəhbərlik etməyə göndərdilər. Almanlar Moskvaya yaxınlaşırdı. Atam sözün hərfi mənasında bomba sədaları altında Moskvanın neft üzrə ali məktəblərini Qroznıya və Ufaya köçürürdü ki, kadr hazırlığı pozulmasın. Moskvada atamı paytaxtda saxlamağı qərara alırlar, lakin Bağırov Musa Əliyevin qayıtmasını tələb edir. Əslində, atamı güclə Bakıya qaytardılar və sonra... Bu nəsil romantiklər nəsli idi. Onlar öz Vətənini fədakarcasına sevirdilər. Heç nəyə baxmadan hakimiyyətə inanırdılar.

**- Lakin həm də ondan qorxurdular, eləmi?**

- Qorxurdular. Valideynlərimin yataq otağında hökumət telefonu vardı. Bu telefonla yalnız Bağırov zəng edə bilərdi. Həmin aparatın zəngi səslənəndə, - bu isə yalnız fors-major hallarda olurdu, - hərəmiz bir tərəfə qaçırdıq. Qorxumuzdan pıçıltı ilə danışırdıq... (bir qədər susdu). İndi də bir mühüm məsələdən söhbət düşəndə pıçıltı ilə danışıram. Mənə deyirlər: "Sən yenə səsini azaldırsan?" Mən isə cavab verirəm ki, yəqin, elə belə də həyatdan köçəcəyəm (kədərlənir). İndi keçmiş dövr barədə nostalgiya ilə danışanları görəndə təəccüblənirəm. Axı o dövrdə nə var idi? Növbələr, heç nə tapılmırdı, darısqal mənzillər, bir yerə getmək mümkün deyildi. Qorxu... Yox. Bu gün keçmişdən daha yaxşıdır.

**- Böyük adamın qızı olmaq çətin idimi?**

- Məsuliyyətli idi. Axı sən təkcə özünü təmsil etmirsən. Atamı hörmətdən salmamaq çox vacib idi. Çünki o da, biz də göz qabağında idik. Dövr isə sərt və təhlükəli idi.

**- Atanız kiminlə ünsiyyətdə olurdu? Sizin evə kimlər gəlirdi, onun dostlarından kimi xatırlayırsınız?**

- Azərbaycan elminin əsasını qoyanların, demək olar ki, hamısı bizim evdə olurdu, xüsusən atam Elmlər Akademiyasının prezidenti olan dövrdə. Səməd Vurğun, - o, vitse-prezident idi, - Mirəli Qaşqay, Əşrəf Əlizadə, Süleyman Vəzirov, Ədhəm Şıxəlibəyli, Şamil Əzizbəyov, Şəfaət Mehdiyev, Baba Babazadə - bir sözlə, neft geologiyasının qızıl fondunun bütün qaymaqları. Çay süfrəsi sadə, münasibətlər təbii, şən olurdu. O vaxt intellektual diskussiyaları çox eşitmişəm.

## "Dünyanın yarısını ona tapşırmışdılar"

**- Necə oldu ki, siz şərqşünaslıq peşəsini seçdiniz? Yeri gəlmişkən, 1960-cı illərdə bu, Bakıda ən prestijli və dəbdə olan fakültələrdən biri idi.**

- Elədir, oraya çoxları can atırdı, çünki bu fakültə xaricə getməyə, Şərq ölkələrində işləməyə imkan verirdi. Amma mən hələ məktəb illərindən Yaxın Şərq ədəbiyyatını öyrənməyi arzu edirdim. 1968-ci ildə Livan ədəbiyyatına aid dissertasiya müdafiə etdim, 12 il Moskva Şərqşünaslıq İnstitutunda işlədim, Sudanda təcrübə keçdim, Əlcəzairdə oldum. Sonra Bakıya qayıtdım, 13 il Şərqşünaslıq İnstitutunda, daha sonra 14 il Vaşinqtonda çalışdım.

Mənim həyat yoldaşım Hafiz Paşayev ABŞ-da müstəqil Azərbaycanın ilk fövqəladə və səlahiyyətli səfiri olub.

...Hafiz Paşayevin səlahiyyətləri dairəsinə ABŞ-dan əlavə digər dövlətlər - Kanada, Meksika, Kuba, Latın Amerikası ölkələri də daxil idi. Şair Nəriman Həsənzadə bununla əlaqədar zarafatla deyirdi: "Sənə dünyanın yarısını tapşırıblar". Yadımdadır, Hafiz Mircəlal oğlundan soruşdum ki, ilk günlər Amerikada Azərbaycan səfiri üçün ən mürəkkəb sual nə idi?

Səfir xatırlayırdı: O vaxt Vaşinqtonda az adam bilirdi ki, Azərbaycan Abican ilə Abuca arasında yerləşən ekzotik Afrika guşəsi deyil, suveren dövlətdir. Ən mürəkkəb sual da lakonik səslənirdi: nədən başlamalı? "Vaşinqton Post" qəzetində dərc edilmiş bir yazı məni, sadəcə, şok etdi. Ağ Evdə Azərbaycana görə cavabdeh olan yüksəkrütbəli şəxs telefonda öz xanımı ilə söhbət edir. Bu arada, onun köməkçisi qaça-qaça gəlir və deyir ki, Azərbaycanda vəziyyət yenidən gərginləşib. Məmur öz xanımından sakitcə soruşur: "Əzizim, sən bilmirsən ki, Azərbaycan harada yerləşir?"

Rəna xanım da ərinin sözlərini təkrar edir:

- Bəli, 1990-cı illərin əvvəli olduqca mürəkkəb dövr idi. İnformasiya blokadası. Hamı ermənilərə tərəfdar çıxır. Hara getsən, hər yerdə soruşurlar: "Siz nə üçün onları öldürürsünüz?". Anamın dərdi barədə danışmaq istəyirəm, ermənilər onun atasını öldürüb, evlərini yandırıblar. Heç kəs bunu eşitmək istəmir. Nə konqresmenlər, nə senatorlar, nə Ağ Evdəkilər, hətta şəxsi söhbətlər zamanı da. Qarşımızda "Berlin divarı" dayanmışdı və Hafiz sözün hərfi mənasında bu divarı dəf etməyə çalışırdı. Mənim əllərim yanıma düşmüşdü.

...Kənardan baxanda diplomatın həyatı monoton, yeknəsəq, hər gün çox böyük səbir tələb edən yorucu işlə dolu həyatdır. Zahirən o qədər də effektli görünməyən bu həyat, əslində, dərin daxili temperament, fikir temperamenti ilə doludur.

- Gecələr çox vaxt yataqda uzanıb, amma yatmırdım, - deyə Hafiz Paşayev xatırlayırdı, - özümün və xalqımın təhqir olunması fikri mənə dinclik vermirdi. Axı işğal edilmiş ərazilər, öz yurdundan silah gücünə qovulmuş insanlar mənim millətimə mənsubdur. Nə üçün? Nəyə görə? Hansı haqla?

**- Belə vəziyyət çoxmu davam etdi?**

- Üç-dörd il, - Rəna xanım dedi, - o vaxt Hafiz peşəkar diplomat deyildi. O, fizika-riyaziyyat elmləri doktorudur, buna görə də elm adamlarının qapılarını döyməyə başladı. Ölkəni gəzir, Kolumbiya, Harvard, Berkli universitetlərində çıxışlar edirdi. Mən səfir xanımları ilə görüşür, onların vasitəsilə ərəb dünyası ilə əlaqə yaradırdım.

...Rəna xanım Hafiz Paşayevin ABŞ prezidentləri Buş və Klinton ilə mühüm tanışlıq görüşlərində iştirak edirdi, belə görüşlərdən yaranan ilk təəssüratın böyük əhəmiyyət kəsb etməsi isə diplomatik dairələrdə yaxşı məlumdur - Rəna xanıma xas olan kübarlıq, ağıl, davranış maneraları uzun müddət onların yadında qalırdı! Ərəb ölkələrinin səfirləri ilə Hafiz Paşayevin diskussiyalarında Rəna xanımın iştirakının əhəmiyyətini lazımınca qiymətləndirmək çətindir - filologiya elmləri doktoru, şərqşünas, ərəbşünas qadının ərəb dünyasına aid bilikləri diplomatları yaxşı mənada heyrətləndirirdi. Beləcə, onlar addım-addım vəziyyəti dəyişdilər. Böyük səbir tələb olunurdu. Onlar heç nəyi nəzərdən qaçırmırdılar. Bəzən ən gözlənilməz tərəfdən uğur qazanmaq olardı, bu hətta kuryoz təsir bağışlayırdı.

- Vaşinqtonda Konqres klubu var, - Rəna Paşayeva xatırlayırdı, - orada fəaliyyətdə və istefada olan konqresmenlərin xanımları hər il böyük ziyafət təşkil edirlər. Məni hər il dəvət edirlər, mən də hər il səliqə ilə gəlirəm. Hər dəfə də məndən nəzakətlə soruşurlar: "Siz kimsiniz? Hansı ölkədənsiniz?" Qəbullar müxtəlif, bəzən tematik olurdu. Bir dəfə ölkələr öz milli geyimlərini nümayiş etdirməli idilər. Bizim milli geyimimizi bir azərbaycanlı tələbə qız nümayiş etdirdi. Onu Amerikanın ali məktəblərinin birində axtarıb tapmışdıq. Uca boylu, şux qamətli, kürən saçlı bir qız idi. Çox gözəl idi. Onu gurultulu alqışlarla qarşıladılar. Qız podiumdan düşəndə bütün kişilər onun əlini sıxmağa çalışırdı... O vaxtdan etibarən mən klubda görünəndə dərhal məni tanıyırdılar: "Ah, Sizin o qız necə gözəl idi!". Bəlkə də, xırda məsələdir, amma nəticəsi yaxşı olmuşdu...

Heydər Əliyev ölkədə hərc-mərcliyə son qoyaraq, sabit siyasi vəziyyət yaratmağa nail olanda, demək olar ki, hər şey əsaslı şəkildə dəyişdi. Neftlə bağlı "Əsrin müqaviləsi" imzalananda isə əlbəttə, bizi eşitməyə, anlamağa, bizə hörmət etməyə başladılar.

## "Raisa Qorbaçovanın brilyant üzüyü"

Yeri gəlmişkən, kiçik bir haşiyə. Dünya praktikasında taleyüklü problemlərə təsir göstərən diplomatların xanımları çox olub. Təəssüf ki, bəzən mənfi təsir göstərənlər də olub. Qorbaçovun dövründə SSRİ-nin ABŞ-dakı səfirinin xanımının əhvalatı çoxlarına məlumdur. Dubinin Z.Bjezinskinin təbirincə desək, "qəşəng yalançı" idi. Onun arvadı Lyana Dubinina, - qızlıq soyadı Xaçaturyan, - ABŞ-dakı erməni diasporunun Rusiya səfirliyi ilə əlaqəsini yaratmışdı. Raisa Qorbaçovanın erməni diasporu ilə görüşünü də məhz o təşkil etmişdi. Bunun müqabilində Raisa Qorbaçova ABŞ-dakı erməni icmasından qədim brilyant üzüyü hədiyyə almışdı.

Həmin brilyant üzük ilə əlaqədar Almaniyada çıxan "Ştern" jurnalında dərc edilmiş kollajda Raisa Qorbaçovanın barmağındakı brilyant üzüyün şüası Azərbaycan xəritəsində Dağlıq Qarabağın üzərinə düşür.

## Məhəbbət, müharibə, siyasətçi qadınlar və yaxşı insanlar haqqında

İlk baxışdan, ilk görüşdən məhəbbətin nə demək olduğunu yaşlı nəsil bilir. Beləleri həyatda onların qarşısına çıxmış çoxsaylı namizədlər arasından yeganə birini seçir, elə ilk görüşdə ona vurulur və öz hisslərini taleyüklü "odun, suyun və zəfərlərin içində" qoruyub saxlamağı bacarırlar. Bu sözlər Rəna və Hafiz Paşayevlərə aiddir. Onlar 55 il birgə yaşayıblar... Məktəbdə, səkkizinci sinifdə oxuyarkən tanış olublar. Dostluq ediblər. Məktəbi bitirəndən sonra Rəna ailəsi ilə bərabər Moskvaya köçüb. Sonra Hafiz Moskvaya gedib, aspiranturaya daxil olub. Evləniblər.

- Hafizlə dostluğum çox möhkəmdir. Çox zərbələrə birlikdə sinə gərmişik. Var qüvvəmizlə bir-birimizi dəstəkləmişik (gülümsəyir)... Görürsünüz, yenə qüssəli mövzuya keçdik.

**- Siz dünyabaxışınıza görə necə adamlarsınız - optimist, pessimist, yoxsa romantik?**

- Çox güman ki, realistlərik. Hafiz yumor hissi olan realistdir, mən isə, sadəcə, realist.

**- Bu gün sizi qorxudan məsələlər varmı?**

- Bəli. Müharibə. Mən nəvələrim üçün qorxuram, dörd nəvəm var. Anam deyərdi ki, müharibədən qorxulu heç nə yoxdur. Mən hesab edirəm ki, müharibədənsə problemin uzun sürən olsa da, sülh yolu ilə həlli daha yaxşıdır.

**- Qadınlar vəziyyətə təsir göstərə bilərlərmi?**

- Mən Amerikada çox şey öyrənmişəm. Orada hara getsən - istər Ağ Ev olsun, istər Baş Qərargah və Pentaqon - hər yerdə qadınlardır. Oradakı çalışanların 50 faizi qadınlardır. Bizdə bu mənada görüləsi iş hələ çoxdur. Mənim fikrimcə, böyük siyasətdə qadınlar nə qədər çox olsa, dünyamız bir o qədər xeyirxah və təhlükəsiz olar.

**- Rəna xanım, həyatınızdan razısınızmı?**

- Bir dəfə qadın qohumlarımdan biri dedi ki, təbiət bizim üzərimizdə istirahət edir, çünki biz atalarımız qədər yüksək mövqelərə çatmamışıq. Cavabında mən dedim ki, nə üçün çatmamışıq? Biz, sadəcə, yaxşı insanlarıq. Məgər bu azdırmı? Məncə, çoxdur, lap çoxdur, çünki yaxşı insanlar azdır.

...Mən nə üçün məhz bu söhbəti xatırladım? Bu həftə Rəna xanım Paşayeva dünyasını dəyişdi... Məhz işğalçı ermənilər yenidən təxribat törətdikləri gün. Yenə atışma. Yenə qan. Yenə kədər, elə bil ürəyinə dammışdı. Əlvida, gözəl, qüssəli xanım, rahat yat.

***Nadejda İSMAYILOVA***

# Daha 137 əlilliyi olan şəxsə reabilitasiya vasitələri yaşadıqları bölgələrdə təqdim olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik Bərpa Mərkəzi xüsusi rejimli karantin müddətində gücləndirilmiş iş rejimində səyyar xidmətlərini davam etdirir. Mərkəz növbəti səyyar xidməti Sumqayıt, Şirvan şəhərlərində, Sabirabad və Hacıqabul rayonlarında təşkil edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, həmin 4 şəhər və rayon üzrə 137 nəfər əlilliyi olan şəxsə ehtiyac duyduqları 1000-dək reabilitasiya vasitəsi mərkəzin əməkdaşları tərəfindən həmin bölgələrdə, onlardan bir qisminə isə evlərində təqdim olunub.

Əlilliyi olan şəxslər onlara göstərilən xidmətdən razılıqlarını bildirib, ölkəmizdə əlilliyi olan şəxslərin qayğı ilə əhatə olunması, o cümlədən reabilitasiya vasitələri ilə təminatı istiqamətində aparılan mühüm işlərə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Ümumilikdə bu ilin ötən dövründə respublikamızın müxtəlif bölgələri üzrə 664 nəfər əlilliyi olan şəxsə səyyar formada xidmətlər göstərilib. Ehtiyac duyduqları 2000 reabilitasiya vasitəsi (o cümlədən 14 əlil arabası, 411 aşağı və yuxarı ətraf protezi, 188 dördayaqlı dayaq vasitəsi, 141 qoltuqaltı və dirsəkaltı ağac, 365 əsa və s.) yaşadıqları rayon və şəhərlərdə, bir qisminə evlərində təqdim edilib.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 45 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Qorqan, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.


## Xızı Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Xızı Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi 2020-ci il üçün *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir.
LOT 1 - Xızı şəhərində yaşıllaşdırma işləri

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 200 manat**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**

**Təşkilat: Xızı Şəhər İƏD üzrə Nümayəndəlik**
**Hesab : AZ51CTRE00000000000002517032**
**VÖEN: 7800015151**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M\H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.
**Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **26 avqust 2020-ci il saat 15:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **03 sentyabr 2020-ci il saat 15:00-a** qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri **04 sentyabr 2020-ci il saat 15:00-da** Portalda açılacaqdır.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi *açıq tenderə dəvət edir*

**- DOST mərkəzlərində 5 istiqamət üzrə monitorinq sisteminin yaradılması və monitorinq qruplarının təchizatı layihəsi ilə əlaqədar proqram təminatının satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT üzrə 150 (bir yüz əlli) manat**

**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT IBAZAZ2X**
**H/hesabı: AZ59IBAZ38090019446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri - notarial qaydada təsdiq olunmuş;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış - 21.07.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışları qəbul ediləcəkdir;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti - 2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı-21.07.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;*
- *iddiaçı şirkət proqramlaşdırma sahəsində ən azı 5 illik iş təcrübəsinə malik olmalıdır (bunu təsdiq edən müvafiq sənədlər təqdim edilməlidir);*
- *dövlət qurumları üçün ən azı 1 (bir) ədəd kompleks proqram təminatının tərtib olunması və onu tam işlək vəziyyətə salınaraq təhvil verməlidir (bunu təsdiq edən müvafiq sənədlər təqdim edilməlidir. Sifarişçinin tövsiyə məktubu təqdim olunmalıdır);*
- *nazirliyin və DOST Agentliyinin informasiya sistemləri ilə işləmələri üçün "fərdi məlumatlarla işləmə" lisenziyası olmalıdır;*
- *iddiaçının ixtisaslı işçi heyəti barədə məlumatlar (CV-lər əlavə olunmaqla);*
- *bənzər işlərdə layihələr barədə müqavilələr və görülmüş işlər barədə təsdiqedici sənədlər təqdim olunmalıdır.*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **17.08.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **26.08.2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **27.08.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ofis kreslosu və inventarın kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 29 iyul 2020-ci il saat 15:00-dək qəbul olunur.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# Mənəvi Dəyərlərin Təbliği Fondu
## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

**LOT -1.** Fondun sifarişi ilə hazırlanacaq bir sıra sənədli film və videoçarxların hazırlanması işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyən təşkilatlar iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər.

**İştirak haqqı: 100 manat**

**Adı: Mənəvi Dəyərlərin Təbliği Fondu**
**VÖEN: 1702301551**
**H/H: AZ22CTRE00000000000008478301**
**Bank: DXA**
**VÖEN: 1401555071**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Təsnifat kodu: 142330**
**Səviyyə kodu: 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olub-olmaması barədə vergi orqanı tərəfindən verilmiş arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank arayışı;*
- *VÖEN, reyestrdən çıxarış və şəhadətnamənin surəti;*
- *iddiaçının texniki imkanları barədə arayış;*
- *iddiaçının ixtisasına dair məlumatlar (Forma 3);-işlərin keyfiyyətinə dair zəmanət (Forma 4);*
- *tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (Forma 2) (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır).*

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **31 avqust 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **08 sentyabr 2020-ci il saat 17:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **09 sentyabr 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılacaq.*

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ
# "AZƏRBAYCAN"
## *qəzetinə 2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*6 aylığ*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylığ*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylığ*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti fərdi mühafizə vasitələrinin satın alınması məqsədilə
### *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 05 avqust 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## BİLDİRİŞ

Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən "Serebral iflic xəstələri üçün əlil arabalarının satın alınması" üzrə keçirilmiş açıq tender təkliflərinin nəticələri qiymətləndirilmiş və tenderin qalibi "NORT KİNQ LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti koronavirus infeksiyasına qarşı fərdi mühafizə vasitələri və dezinfeksiya məhlullarının satın alınması məqsədilə
### *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 05 avqust 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## BİLDİRİŞ

Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən "Hazır reabilitasiya vasitələrinin satın alınması" üzrə keçirilmiş açıq tender təkliflərinin nəticələri qiymətləndirilmiş və tenderin qalibi "NORT KİNQ LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti xidməti geyimlərin satın alınması məqsədilə
### *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 10 avqust 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi COVID-19 xəstəliyinə səbəb olan virusun müəyyənləşdirilməsi məqsədilə əməkdaşların test müayinəsindən keçirilməsi işlərini kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla), digər zəruri sənədlər 30 iyul 2020-ci il saat 12:00-dək DOST Agentliyinin Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı, 86 ünvanında yerləşən ofisinə təqdim olunmalıdır. Zərflər 30 iyul 2020-ci il saat 15:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları DOST Agentliyinin AZ 1073 Bakı şəhəri, İsmayıl Qutqaşınlı 86 ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Telefon: 012 525-50-27.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti müxtəlif qaz və texniki məhlulların satın alınması məqsədilə
### *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 13 avqust 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 20 iyun 2020-ci il tarixli 117 (8433) saylı buraxılışında dərc olunmuş Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən elan edilən "Maşın və avadanlıqlar" xərc maddəsi üzrə bütün növ elektroavadanlıqların satın alınmasına dair açıq tenderdə iştirak etmək üçün tələb olunan sənədlərin təqdim edilməsinin son tarixi və vaxtı 06 avqust 2020-ci il saat 15:00-dək, tender təklifinin təqdim edilməsinin son tarixi və vaxtı 14 avqust 2020-ci il saat 15:00-dək, zərflərin açılış tarixi və vaxtı 17 avqust 2020-ci il saat 15:00-dək uzadılmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Milli Məclisin İşlər müdiri Firudin Hacıyevə bacısı

**MƏTANƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclis Aparatının Milli Məclisin, komitələrin və komissiyaların işinin təşkili şöbəsinin kollektivi Milli Məclisin İşlər müdiri Firudin Hacıyevə bacısı

**MƏTANƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri İlqar Fərzəliyev və şöbənin əməkdaşları Milli Məclisin İşlər müdiri Firudin Hacıyevə bacısı

**MƏTANƏT ATAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin İşlər müdiri Firudin Hacıyevə bacısı

**MƏTANƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təlatüm Quliyev və Xanlar Fətiyev Milli Məclisin İşlər müdiri Firudin Hacıyevə bacısı

**MƏTANƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Hüseyn İsmayılov, İlham Məmmədov və Rafiq Hüseynov Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələri komandanının müavini Mais Orucəliyevə anası

**HACI ƏRKİNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin Avtomobil Yollarının İstisması və Təmiri Baş İdarəsinin rəis müavini Hidayət Rüstəmova həyat yoldaşı

**QƏTİBƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Kamran Şəfiyev Milli Məclisin İşlər müdiri Firudin Hacıyevə bacısı

**MƏTANƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kamil və İlqar Məmmədovlar Firudin və Sənan Hacıyevlərə əzizləri

**MƏTANƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İsa Qaraşov və İsaxan Vəliyev Bakı Şəhəri üzrə Baş Maliyyə İdarəsinin rəisi Təbriz Həsənova anası

**NABAT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*
Tiraj 6957
Sifariş 1771
Qiyməti 40 qəpik